**Ahmet USLU[1]**

**[1]Doç. Dr., Kütahya Dumlupınar Üniversitesi, Filoloji,**

**ORCID: https://orcid.org/0000-0001-9014-9797**

## Özet

Ege Bölgesinin önemli şairleri arasında olmasına rağmen edebiyat tarihlerinde ve edebiyat çalışmalarında üzerinde durulmayan Mustafa Seyid Sutüven, Edremit'te yaşamını sürdürmesine rağmen zamanının önemli şair ve yazarları ile tanışmak ve onlarla sohbet etmek için Ankara ve İstanbul'a gider. Bu şair ve yazarlarla aynı muhitte edebî sohbetlere katılan Sutüven, bir taraftan aruz vezninin kullanırken şiir dünyasında adını yazdığı serbest vezinli şiirlerle duyurur. Şiir anlayışında Nazım Hikmet'in izlerini görmek mümkündür. Serbest vezinli şiirlerde asıl öğe olarak ahenk ön plana çıkar. Ahenk unsurunun şiirlerinde belirgin bir şekilde görülmesi Nazım Hikmet'in etkisi olarak da görülebilir. Ancak Sutüven Nâzım Hikmet'te gördüğü ahenk unsurunu şiirlerinde başarı ile uygular. Kelime seçimi ve tema arasında kurduğu bağ aruz vezninin akışını andırır. Aruz vezni ile yazdığı şiirler de görmezden gelinecek şiirler değildir. Ancak zamanının şiir anlayışının tamamen farklı mecralara kaymış olması nedeniyle yeterinde Sutüven'in şiirleri eleştirilerek gündeme alınmaz. Ancak aruz vezni ile yazdığı Sutüven isimli şiirinde aruz veznini kullanan şair, bu şiirinde üçlükleri kullanarak aruz vezninin akıcılığını Türkçe kelime ve kalıplarla sağlar. Bu şiirde dikkat çeken en önemli nokta ise şiirdeki ahenk unsurlarının başarılı bir şekilde kullanılışıdır. Şairlerin şiir anlayışları ve tema genel olarak şiir tahlillerinde üzerinde durulan belli başlı konulardır. Ancak üslup incelemeleri şiir tahlillerinde üzerinde yeterince durulmayan ögelerdir. Bu çalışmada Mustafa Seyid Sutüven'in kendi soyadını taşıyan şiiri ahenk ve üslup özellikleri ve kelime seçimi ele alınarak irdelenecektir. Şairin diğer şiirlerinde yapılacak toplu bir çalışma Sutüven'in edebiyat tarihimizde daha farklı bir yer edinmesinin de önünü açacaktır.

**Anahtar kelimeler:** Yeni Türk Edebiyatı, Mustafa Seyid Sutüven, Şiir, Ahenk, Üslup.

## Abstract

Mustafa Seyid Sutüven, who is not emphasized in literary histories and literary studies even though he is among the important poets of the Aegean Region, lives in Edremit but goes to Ankara and Istanbul to meet and chat with the important poets and writers of his time. Sutüven, who participated in literary conversations in the same environment with these poets and writers, made his name known in the poetry world with his free verse poems while using the aruz meter. It is possible to see traces of Nazım Hikmet in his understanding of poetry. Harmony comes to the fore as the main element in free verse poems. The prominent element of harmony in his poems can also be seen as the influence of Nazım Hikmet. However, Sutüven successfully applies the element of harmony he sees in Nâzım Hikmet in his poems. The connection he establishes between word choice and theme resembles the flow of aruz meter. The poems he

wrote in Aruz meter are not poems to be ignored. However, due to the fact that the understanding of poetry of his time had shifted to completely different channels, Sutüven's poems were not criticized enough. However, the poet, who uses the aruz meter in his poem called Sutüven, which he wrote in aruz meter, provides the fluency of the aruz meter with Turkish words and phrases by using triads in this poem. The most important point that draws attention in this poem is the successful use of harmony elements in the poem. Poets' understanding of poetry and theme are generally the main issues emphasized in poetry analysis. However, stylistic analyzes are elements that are not emphasized enough in poetry analysis. In this study, Mustafa Seyid Sutüven's poem bearing his surname will be examined by considering its harmony and style features and word choice. A collective study of the poet's other poems will pave the way for Sutüven to have a different place in our literary history.

**Key words:** New Turkish Literature, Mustafa Seyid Sutüven, Poetry, Harmony, Style.

# THE EFFECT OF SOCIAL MEDIA ON THE RELIGIOUS EDUCATION FUNCTION OF THE FAMILY: WHATSAPP EXAMPLE

# SOSYAL MEDYANIN AİLENİN DİN EĞİTİMİ İŞLEVİ ÜZERİNE ETKİSİ: WHATSAPP ÖRNEĞİ

**Doç. Dr. Cemil OSMANOĞLU[1]**

[1]**Doç. Dr.; Erciyes Üniv. İlahiyat F., Din Eğitimi ABD., ORCID: 0000-0003-3088-8357**

## Özet

Günümüzde giderek yaygınlaşan sosyal medya imkânları ailenin eğitsel işlevlerini etkilemiş ve çeşitlendirmiştir. Akıllı telefonlar sayesinde etkileşim ve kullanım kolaylığı sunan WhatsApp uygulaması söz konusu imkânların başında gelmektedir. Bu çalışmada WhatsApp uygulaması kullanılarak oluşturulan aile gruplarının din eğitimi açısından işlevi incelenmiştir. Araştırmada, durum çalışması deseni ve kolay erişilebilir örneklem tekniği ekseninde, yarı yapılandırılmış görüşme formu kullanılarak ilgili uygulamayı kullanarak aile grubunda dini içerikli paylaşımlar yapan 25 kişiyle görüşülmüştür. Görüşme formunda demografik bilgiler yanında ilgili sosyal medyada ne tür dini içeriklerin paylaşıldığını, bunların daha çok kimler tarafından ne zaman/ne sıklıkla ve ne amaçla paylaşıldığını, paylaşım üzerinde ne tür etkileşimlerin (yüz yüze, çevrimiçi) olduğunu, paylaşımın dini gelişim ve din eğitimi anlamında etkisinin olup olmadığını tespit etmeye dönük açık uçlu sorulara yer verilmiştir. Görüşmeler Nisan-Mayıs 2024 döneminde yüz yüze gerçekleştirilmiştir. Araştırma verilerinin analizinde Nvivo10 kullanılmıştır. Araştırmanın sonunda paylaşımların genelde ailenin ileri gelen, yaşça büyük bireyleri tarafından yapıldığı, paylaşımlarda dini sohbet videoları ile ses kayıtlarının, çoğunlukla dini zaman dilimlerine okunan/ezberlenmeye çalışılan duaların, eğitici bilgilendirici kısa yazıların, notların, görsellerin, ayet, sure, meal ve tefsirlerin, dini içerikli makale ve köşe yazılarının, özlü sözlerin başı çektiği görülmüştür. Paylaşım zamanı noktasında söz konusu içeriğin çoğunlukla dini zaman dilimlerinde (cuma günleri, dini bayramlar, üç aylar, cenaze, kandil geceleri...) yapıldığı, bununla beraber, belirli bir zaman bağlı kalmaksızın beğenilen, hoşa giden bir içerikle karşılaşıldığında da paylaşımların yapılabildiği anlaşılmıştır. Dini içerikli paylaşımların amacına bakıldığında ise bu tür paylaşımların çoğunlukla genel anlamda aileye, çevreye karşı duyulan sorumlulukların bir gereği olarak, dini tebliğ hissiyatı ve Allah rızası ile yapıldığı, bunun yanında çocuklara (küçüklere) dini bilgi vermek, nasihat (öğüt) etmek, manevi destek sunmak ile güncel konularda bilgilendirme (hatırlatma) yapmak, farkındalık kazandırmak, günün anlam ve önemine dikkat çekmek vb. amaçlarla yapıldığı belirlenmiştir. Katılımcılar paylaşılan içerik etrafında çoğu zaman yüz yüze, kimi zaman da online semboller kullanmak suretiyle etkileşimler kurduklarını belirtmiştir. Son olarak katılımcıların ileri yaşlardaki büyük çoğunluğunun sosyal medyada, aile gruplarında paylaşılan dini içeriklerin birçok olumlu etkisi olduğunu düşündükleri, olumlu yönde herhangi bir etkinin olmadığını düşünen az sayıdaki katılımcının ise çoğunlukla ailedeki çocuklar olduğu görülmüştür.

**Anahtar kelimeler:** Din Eğitimi, Aile, Sosyal Medya, WhatsApp

**Abstract**

Today, increasingly widespread social media opportunities have affected and diversified the educational functions of the family. WhatsApp application, which offers interaction and ease of use thanks to smart phones, is one of these opportunities. In this study, the function of family groups created using WhatsApp application in terms of religious education was examined. In the research, on the axis of case study design and easily accessible sampling technique, 25 people who shared religious content in the family group using the relevant application were interviewed using a semi-structured interview form. In the interview form, in addition to demographic information, open-ended questions were included to determine what kind of religious content is shared on the relevant social media, when/how often and for what purpose, what kind of interactions (face-to-face, online) on the sharing, and whether the sharing has an impact on religious development and religious education. Interviews were conducted face-to-face between April and May 2024. At the end of the research, it was seen that the posts were generally made by the prominent and older members of the family, and that religious chat videos and audio recordings, prayers that are mostly recited/memorised for religious time periods, educational informative short articles, notes, visuals, verses, texts and exegesis, articles and columns with religious content, and aphorisms were the leading ones in these posts. In the context of the time of sharing, it was understood that religious content was mostly shared during religious time periods (religious days, funeral, candlemas...), however, it was also understood that posts could also be made when encountering a content that was liked and liked without being tied to a specific time. When the purpose of the posts with religious content is examined, it is seen that such posts are mostly made as a requirement of the responsibilities towards the family and the environment in general, with the feeling of religious notification and for the sake of God, as well as to give religious information to children (minors), to give advice (advice), to provide spiritual support, to inform (remind) on current issues, to raise awareness, to draw attention to the meaning and importance of the day, etc. It was possible to mention such purposes. Participants stated that they interacted around the shared content, mostly face-to-face and sometimes by using online symbols. Finally, it was observed that the majority of the participants at older ages thought that the religious content shared in social media and family groups had many positive effects, while the few participants who thought that there was no positive effect were mostly children in the family.

**Key words:** Religious Education, Family, Social Media, WhatsApp

# ODE AND POEM AS ONE OF THE GENRES OF CLASSICAL LITERATURE
# QƏSIDƏ VƏ QITƏ KLASSIK ƏDƏBIYYATIN JANRLARINDAN BIRI KIMI

**Ulduz QƏHRƏMANOVA,**

**filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universiteti, "Ədəbiyyat" kafedrasında baş müəllim Orcid İD: 0009-0003-4418-9319**

## Abstrakt

Azərbaycan ədəbiyyatında qəsidə janrı təxminən X əsrdə saraylarda yaranıb və inkişaf etməyə başlayıb. Azərbaycan fars dilli poeziyasında ilk böyük qəsidəni XI əsr şairi Qətran Təbrizi yazmışdır. Şərq ədəbiyyatında fəlsəfi qəsidənin ilk böyük banisi Əfzələddin Xaqani olmuşdur. Ə.Xaqani qəsidə janrı sahəsində yeni ənənələr yaradan filosof şair idi. Azərbaycan ədəbiyyatında ilk dəfə M.Füzuli yaradıcılığında qəsidə qəzəl səviyyəsinə qalxdı. Çünki Füzuli qəsidəni həm forma, həm də məzmun baxımından təkmilləşdirdi. Belə ki Füzuli qəsidəni həm mədhiyyəçilik, həm də mərsiyəçilik janrından uzaqlaşdırıb sırf fəlsəfi-ictimai janra çevirdi. Rus və Avropa ədəbiyyatında qəsidə janrına oda deyilir. Odalar əvvəlcə nəğmə şəklində meydana çıxmışdır. Qitə ərəb sözü olub mənası parça, hissə deməkdir. Çox yığcam parça şəklində olur. 1 beyt, 2 beyt, 3 beyt ...Qitə də qəsidədə olduğu kimi məhəbbət mövzusunda ola bilməz. Əsasən, fəlsəfi, ictimai-siyasi mövzuda olmalıdır. Qitə əsasən fəlsəfi mahiyyət daşıyır. Özü də çox yığcam olmalıdır. Qitənin qafiyə sistemi I beyt: ab, II beyt: vb, III beyt:cb... Sanki qəzəlin ilk beyti atılır, növbəti beytlərdəki qafiyə sistemi yerində qalır. Qitə formal cəhətdən ilk beyti atılan qəzələ bənzəyir. Qitə müstəqil kiçik şeir parçasıdır. Qitədə də müəllif öz təxəllüsünü vermir. (Yığcam parça olduğu üçün)

**Açar sözlər:** qitə, qəsidə, janr, şeir, klassik ədəbiyyat

## Abstract

The genre of odes in Azerbaijani literature originated in the palaces in the tenth century and began to develop. The first great ode in Azerbaijani Persian language poetry was written by Qatran Tabrizi, a poet of the 11th century. Afzaleddin Khagani was the first great founder of the philosophical ode in Eastern literature. A. Khagani was a philosopher poet who created new traditions in the field of ode genre. For the first time in Azerbaijani literature, the ode rose to the level of a ghazal in the works of M. Fuzuli. Because Fuzuli improved the ode both in terms of form and content. Thus, Fuzuli removed the ode from both eulogy and lament genre and turned it into a purely philosophical-social genre. In Russian and European literature, the ode genre is called ode. Odas first appeared in the form of songs. Qita is an Arabic word and means part. It is in the form of a very compact piece. 1 stanza, 2 stanzas, 3 stanzas ... The poem cannot be about love as in the ode. Basically, it should be on a philosophical, socio-political topic. The poem is mainly philosophical in nature. It should be very compact. The rhyme system of the stanza is I stanza: ab, II stanza: vb, III stanza: cb... It is as if the first stanza of the ghazal is discarded, the rhyme system of the following stanzas remains in place. The verse is formally similar to a ghazal with the first verse omitted. A stanza is an independent small piece of poetry. In the continent, the author does not give his pseudonym. (Because it's a compact fabric)

**Key words:** continent, ode, genre, poetry, classical literature

Qitə ərəb sözü olub mənası parça, hissə deməkdir. Çox yığcam parça şəklində olur. 1 beyt, 2 beyt, 3 beyt ...Qitə də qəsidədə olduğu kimi məhəbbət mövzusunda ola bilməz. Əsasən, fəlsəfi, ictimai-siyasi mövzuda olmalıdır. Qitə əsasən fəlsəfi mahiyyət daşıyır. Özü də çox yığcam olmalıdır. Qitənin qafiyə sistemi I beyt: ab, II beyt: vb, III beyt:cb... Sanki qəzəlin ilk beyti atılır, növbəti beytlərdəki qafiyə sistemi yerində qalır. Qitə formal cəhətdən ilk beyti atılan qəzələ bənzəyir. Qitə müstəqil kiçik şeir parçasıdır. Qitədə də müəllif öz təxəllüsünü vermir. (Yığcam parça olduğu üçün) Azərbaycan ədəbiyyatında həcm etibarı ilə ən iri qitə Füzulinin "Padişahi-mülk" qitəsidir. Elə qitələr də var ki, cəmi 2 beytdən ibarətdir: Məsələn: M.Füzulinin "Şikayətnamə" nəsrindən verilmiş qitə.

Mən ona fitnə, ol mənə afət,............................a

Mütənəffir mən ondan, ol məndən................. b

Mən ona qüssə, ol mənə möhnət,...................... v

Mütənəkkir mən ondan, ol məndən................ b

Azərbaycan klassik ədəbiyyatında qəsidə janrı çox yayılmışdır. Qəsidə ən çox rəsmi dairədə, yəni saray ədəbiyyatı, saray poeziyasının lirik nümunəsidir. Qəsidə mənşəcə ərəb sözü olub "qəsədə" kökündəndir. Mənası "məqsəd, qəsd etmək, yönəltmək" deməkdir. Qəsidə Şərqin 3 böyük dilində yazılmışdır: ərəb, fars, türk dillərində. Qəsidə rəsmi-bədii janrdır, əsasən saray ədəbiyyatı nümunəsidir. Ərəb qəsidəsi süjetli xarakterə malik idi. Nəzəri ədəbiyyatşünaslıqda qəsidənin 3 məşhur 3.Qəsidə: Qəsidənin mənşəyi, yaranma tarixi islamiyyətdən əvvəlki "Cahiliyyə dövrü"nə təsadüf edir. "Cahiliyyə dövrü" poeziyasında 2 şeir formasının mövcudluğu qeyd olunur: 62

I.Rəcəz: Bu gün əruz vəzninin bir bəhri kimi bizə gəlib çatmışdır. Əslində rəcəz səhra ərəbinin döyüşə gedərkən özünü və öz nəslinin qəhrəmanlığını öyən, qəhrəmanlığa və döyüşə səsləyən, bədahətən söylənilən şeir tərzi idi. Yaranışdan etibarən həm rəcəz, həm də qəsidə təntənəli şeir forması olub.

tədqiqatçısı qeyd olunur:

1.Qüdamə ibn Cəfər 2.Şəmsəddin Qeys Razi 3.Rəşirəddin Vətvat

Qəsidə ərəb lirikasının janrıdır və aşağıdakı tərkib hissələrdən ibarətdir:

I.Giriş, yəni müqəddimə: Buna giriz, girizgah da deyirlər. Qəsidənin əsas hissəsi hesab edilir. Nəsib qəsidənin giriş hissəsinin təbiət təsvirindən ibarət olmasına deyilir. Fars qəsidələrinin nəsib hissəsi daha çox baharın təsviri və tərənnümü ilə başladığı üçün buna bahariyyələr deyilirdi. Təşbib qəsidənin giriş hissəsinin sevgi, məhəbbət mövzusunda olmasına deyilir.

II. Niyyətə keçid beyti: Giriş (müqəddimə) ilə əsas hissə arasında olan beytə deyilir.

III. Təcəzzül: Qəsidənin ortasında qəzəlin verilməsidir. Həmçinin belə bir fikir də mövcuddur ki, qəzəl öncə qəsidənin bətnində nəsib formasında yaranmış, sonra qəsidədən ayrılıb müstəqillik əldə etmişdir. Əksər ədəbiyyatşünaslara görə, qəzəl lirik bir janr kimi qəsidədən əvvəl mövcud olmuşdur.

IV. Tac beyt: Ərəb klassik qəsidələrində müəllifin təxəllüsünü verdiyi son beytdir.

Qəsidə ilə qəzəlin oxşar cəhəti:

1. Hər ikisi də əruz vəznə aid ikiliklərə daxil olan lirik nümunədir.

2. Qəsidənin də qafiyə quruluşu qəzəlin qafiyə quruluşu ilə eynidir. Yəni: aa, ba, ca, da...

Qəsidə ilə qəzəlin fərqli xüsusiyyətləri:

I.Qəsidə həcmcə qəzəldən böyük olur. Ədəbiyyatşünaslar arasında qəsidələrdə misraların sayının 33-99 yaxud 15-120 beyt arasında olması ilə bağlı müxtəlif fikirlər də vardır.

II.Qəsidənin aşağıdakı növləri vardır:

1.Tövhid: Allahın birliyinin, təkliyinin tərifidir.

2. Minacat: Allaha yalvarış, duadır.

3.Nət: Peyğəmbərin tərifidir.

4. Meracnamə: Peyğəmbərin Allahla bəndələr arasındakı elçiliyidir.

5.Mədhiyyə: Hakimiyyət başında olan hökmdarların, böyük vəzifə sahiblərinin tərifidir.

6. Fəxriyyə: Sənətkarın öz-özünü öyməsidir.

6. Mərsiyyə: M.Rəfiliyə əsasən, mərsiyyə növhə, sinəzən, dini xarakter daşıyan lirik janrdır. Və aşağıdakı şəkildə özünü göstərir:

- Kiminsə ölümü münasibətilə yazılır. Şifahi xalq ədəbiyyatında kiminsə ölümü münasibəti ilə yazılan şeirə ağı deyilir. Mərsiyələr, əsasən, vəfat etmiş dəyərli şəxsiyyətlərə, şairin dünyasını dəyişmiş əzizlərinə, vaxtsız həyatdan köçən gənclərin faciəsinə həsr olunur.
- Ayrı-ayrı tanınmış və müqəddəs dini şəxsiyyətlərin ölümünə, yəni İmam Hüseynə, Kərbəla müsibətlərinə, imamların faciəsinə həsr olunmuş əsərlərə məqtəllə deyilir. Məqtəllə qətl sözündəndir. Füzulinin "Hədiqətüs-süəda" adlı nəsr əsəri məqtəllər silsiləsində fəxri yer tutur. Qeyd edək ki, Füzulinin bu əsəri həm Azərbaycan türkcəsində yazılmışdır, həm də özünün nəsr əsərləri içərisində həcmcə ən böyük olanıdır.
- Mərsiyə həm də təziyə adlanır. Təziyə ölmüş görkəmli şəxslər, şairin yaxın adamlarının vəfatı münasibətilə yazdığı müsibətnaməsidir. Qəsidənin mərsiyə (təziyə) növü Sovet dövründə tədqiqatdan tamamilə kənarda qalmışdır. Halbuki Qumru, Raci, Dəxil kimi qüvvətli mərsiyə şairləri dəyərli əsərlər yaratmışlar. Əslində mərsiyə böyük dini ədəbiyyatdır.
- Bəzən mərsiyəni Avropa ədəbiyyatında elegiya janrı ilə eyniləşdirirlər. Qeyd edək ki, mərsiyə elegiya deyil, çünki mərsiyyə dini xarakter daşıdığı halda, elegiya kədər, hüzn ifadə edən bir şeir növüdür. "Elegiya" yunanca şikayət deməkdir. Elegiya həyatdan küskünlük, həyatdan şikayət motivli bir şeir janrıdır. Elegiyanın hər hansı ölüm münasibəti ilə yazılması şərt deyil. Elegiya fəlsəfi, aşiqanə, siyasi, əxlaqi bir xarakter də daşıya bilər.

7. Həcviyyə: Kiminsə tənqidi münasibəti ilə yazılır.

8. Peyzaj məzmunlu qəsidələr: Təbiətin əsrarəngiz gözəlliyinin tərifi və tərənnümüdür.

9. İctimai-fəlsəfi məzmunlu qəsidələr: Cəmiyyətdəki ictimai-fəlsəfi mövzulara həsr edilən qəsidələrdir.

III. Qəzəl əsasən məhəbbət mövzusunda olur, qəsidə isə məhəbbət mövzusunda ola bilməz. Əsasən ictimai mövzuda olur.

IV. Qəsidənin son beytində əsasən müəllifin təxəllüsü verilmir. Əgər müəllifin təxəllüsü verilərsə, onda buna tac beyt deyilir.

Azərbaycan ədəbiyyatında qəsidə janrı təxminən X əsrdə saraylarda yaranıb və inkişaf etməyə başlayıb. Azərbaycan fars dilli poeziyasında ilk böyük qəsidəni XI əsr şairi Qətran Təbrizi

yazmışdır. Şərq ədəbiyyatında fəlsəfi qəsidənin ilk böyük banisi Əfzələddin Xaqani olmuşdur. Ə.Xaqani qəsidə janrı sahəsində yeni ənənələr yaradan filosof şair idi. Azərbaycan ədəbiyyatında ilk dəfə M.Füzuli yaradıcılığında qəsidə qəzəl səviyyəsinə qalxdı. Çünki Füzuli qəsidəni həm forma, həm də məzmun baxımından təkmilləşdirdi. Belə ki Füzuli qəsidəni həm mədhiyyəçilik, həm də mərsiyəçilik janrından uzaqlaşdırıb sırf fəlsəfi-ictimai janra çevirdi. Rus və Avropa ədəbiyyatında qəsidə janrına oda deyilir. Odalar əvvəlcə nəğmə şəklində meydana çıxmışdır.

**ƏDƏBİYYAT:**

1.Xalid Əlimirzəyev, ( 2008) “Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları”, Bakı

2. Mir Cəlal, Pənah Xəlilov,( 2005) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı, Çaşıoğlu

3. Məmməd Əliyev, (2000) “Ədəbiyyat nəzəriyyəsinin əsasları”, Bakı

9. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı

4.Nizaməddin Şəmsizadə, (2012) “Ədəbiyyat nəzəriyyəsi”, Bakı

5. Rafiq Yusifoğlu, (2001) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı

# AS A FOLLOWER OF MIRZA ALAKBAR SABIR FUZULI LITERARY SCHOOL
# MİRZƏ ƏLƏKBƏR SABİR FÜZULİ ƏDƏBİ MƏKTƏBİNİN DAVAMÇISI KİMİ

**Ulduz QƏHRƏMANOVA,**

**filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universiteti, "Ədəbiyyat" kafedrasında baş müəllim Orcid İD: 0009-0003-4418-9319**

**Xülasə**

Sabirin klassik irsdən bəhrələnmə üsullarından biri lirik qəhrəmana müəllif münasibəti, daha doğrusu, müəllifin məsləhət və tövsiyəsidir. Ancaq bu "məsləhət"in mahiyyəti və məzmunu tamamilə başqa forma və məzmunda üzə çıxır. Məsələn, klassik ədəbiyyatda məşuqun sitəmlərindən, aşiqə çəkdirdiyi cövr-cəfadan gileylə, məşuqun vəfasızlığı ilə bağlı ona düşdüyü sevdadan əl çəkmək tövsiyyə edilməsi halı geniş yayılmışdır. M.Ə.Sabir M.Füzulinin lirik əsərinin ancaq ifadə tərzini və vəznini götürmüş və əvəzində tamamilə yeni məzmunda, biçimdə və ideya istiqamətində orijinal bir əsər yazmışdır. Klassik irsdən bu bəhrələnmə üsulundan, yəni yeniliyə, tərəqqiyə, mədəniyyət və tərbiyəyə əks mövqedə duran, bütün bu keyfiyyətləri isə ancaq çürük və zamana, əxlaqa, adi insanlığa zidd olan adətlərdə görən satirik qəhrəmanın ondan fərqli və mütərəqqi mövqedə duran tərəfə, guya doğru yol göstərmək iddiası ilə öyüd-nəsihət verilməsinə şairin digər əsərlərində də rast gəlirik.



**Açar sözlər:** Füzuli , M.Ə.Sabir, poeziya, nəzirə, təqlid, ənənə, novatorluq

**Summary:** One of Sabir's methods of benefiting from the classical heritage is the author's attitude to the lyrical hero, or rather, the author's advice and recommendation. However, the essence and content of this "advice" is revealed in a completely different form and content. For example, in classical literature, it is widely recommended to give up the lover's insults, complaining about the cruelty he inflicted on the lover, and giving up the love he fell on the lover due to his infidelity. M.A. Sabir took only the style of expression and weight of M. Fuzuli's lyrical work and instead wrote an original work in a completely new content, form and direction of ideas. The claim of the satirical hero, who is opposed to innovation, progress, culture and education, and sees all these qualities only in customs that are rotten and contrary to time, morality, and ordinary humanity, to show the way to a side that is different and progressive We also find admonitions in other works of the poet.

**Keywords:** Fuzuli, M.A. Sabir, poetry, vow, imitation, tradition, innovation

Sabirin klassik irsdən bəhrələnmə üsullarından biri lirik qəhrəmana müəllif münasibəti, daha doğrusu, müəllifin məsləhət və tövsiyəsidir. Ancaq bu "məsləhət"in mahiyyəti və məzmunu tamamilə başqa forma və məzmunda üzə çıxır. Məsələn, klassik ədəbiyyatda məşuqun sitəmlərindən, aşiqə çəkdirdiyi cövr-cəfadan gileylə, məşuqun vəfasızlığı ilə bağlı ona düşdüyü sevdadan əl çəkmək tövsiyyə edilməsi halı geniş yayılmışdır. Belə ki, M.Füzuli üzünü sanki aşiqə tutub ona belə məsləhət verir.

Can vermə ğəmi-eşqə ki, eşq afəti-candır,

Eşq afəti-can olduğu məşhuri-cahandır! (Sabir M. Ə. 2004; 333).

Şairin məşhur "Leyli və Məcnun" poemasında Məcnunun (Qeysini) atasının dilindən söylənən bu qəzəldə oğul düşdüyü sevdadan əl çəkməyə çağrılır. Bildirilir ki, eşq sevdası heç kəsə dinclik və rahatlıq gətirməyib. Gözəllər isə can alan afətdirlər. Sabirin satirik qəhrəmanı isə öz oğlunu təhsildən, elmdən, düşdüyü bu oxuyub-yazmaq sevdasından uzaq olmağa çağırır:

Təhsili-ülum etmə ki, elm afəti-candır,

Həm əqlə ziyandır;

Elm afəti-can olduğu məşhuri-cahandır,

Mərufi-zəmandır (Sabir M. Ə. 2004; 54).

M.Ə.Sabirdən gətirilən bu nümunədə verilən öyüd-nəsihət, göründüyü kimi, ictimai xarakter daşıyır. Yəni ata öz oğlunun layiqli vətəndaş kimi yetişmək istəyinə, bu yoldakı cəhdlərinə qarşı çıxır. Onu köhnə düşüncə və adətə uyğun yaşamağa dəvət edir. Çünki görür ki, elm, təhsil edənlərə əksəriyyət pis baxır. Onu hər kəs lənətləyir, kafir adlandırır. Ata da həmin köhnəfikirlərin, xalqın savadsız və avam olmasında maraqlı kəslərin təsirindən çıxa bilmir. Eyni zamanda o, məktəbin, kitab, dəftərin, çernil, qələmin, guya, şirin cana vurduğu ziyanı, onun ağlını əlindən alacağı, sirrini açacağı, dilə-dişə salacağı təhlükəsi haqda oğluna xəbərdarlıq edir. Oğluna belə bildirir :

Məktəb sənə xoş gəlməsin, ol cayi-xətərnak,

Girmə ona çalak;

Məktəb dediyin qeydi-dilü bəndü-zəbandır.

Qarətgəri-candır.

Çernil nədir? Ol qəlbi qara haqqeyi-dilxun,

Olma ona məftun!

Ağ günlərini etmə qara, Allah, amandır!

Bu rəng yamandır... (Sabir M. Ə. 2004; 54).

Bütün bu nəsihətlərdən sonra ona oxumağa münasibətdə digər mövqedə olanların fikirlərindən də xəbərdar olduğunu nümayiş etdirir. Ancaq onlarla həmrəng olmadığını, həmin fikrə şübhə ilə yanaşdığını da bildirir:

Derlər oxumuşlar: oxumaq yaxşıdır, əmma

Var bunda müəmma...

Yaxşı nəzər etdikcə sərəncamı yamandır,

Hər addımı qandır;.. (Sabir M. Ə. 2004; 55).

Beləliklə, burada da qəhrəman özünün ictimai mövqeyini öz dili ilə açıb göstərir. Lakin fəhlənin azadlıq mübarizəsinə qarşı çıxan sahibkardan fərqli olaraq, ata oğluna qayğı və nəvazişlə yanaşır. Çalışır ki, başqa oxumuşlar kimi, onun oğlu da qınaq, küfr hədəfinə çevrilməsin. O, öz fikrini yox, başqalarının, daha çox da xalqın geriliyində maraqlı olan xurafat tərəfdarlarının mövqeyini ifadə edir. Bu ata qaragurunçuların təsiri altından çıxa bilmədiyi üçün, öz düşüncəsinə görə, oğlunun gələcəyindən narahatdır. Düşünür ki, bu cür nəsihətləri ilə oğlunu gələcək təhlükələrdən xilas edəcəkdir. Professor Əkrəm Cəfər bu əsərlərlə bağlı olaraq bildirir: "Özlüyündə yüksək bir sənət əsəri olan Füzulinin qəzəli məzmunca gözəllik və eşq, gözəllərin vəfasızlığı, eşqin insan başına bəla olduğu motivləri ilə tamamlanır. Sabirin bu əsərinin məzmununa gəldikdə, onda ictimai həyatımızın müəyyən bir dövründə, Azərbaycanda

elm ilə cəhalətin qızğın mübarizəsi, cahillərin, fanatiklərin elmə, mədəniyyətə hücumları və bu səhnələrin qarşısında böyük şairin (M.Ə.Sabirin – U.Q) acı-acı qəhqəhələri ifadə olunur" (Sabir M. Ə. haqqında tədqiqlər 2012, 153).

Göründüyü kimi, M.Ə.Sabir M.Füzulinin lirik əsərinin ancaq ifadə tərzini və vəznini götürmüş və əvəzində tamamilə yeni məzmunda, biçimdə və ideya istiqamətində orijinal bir əsər yazmışdır. Sabir satirasının Füzuli qəzəlinə heç şəkilcə də bənzəmədiyi haqda Ə.Cəfər öz müşahidələrini belə ümumiləşdirmişdir: "Bu şeir ("Təhsili-ülum" satirası – U.Q.) Füzulinin "Leyli və Məcnun" poemasında olan iyirmi iki qəzəlindən birinə:

Can vermə ğəmi-eşqə ki, eşq afəti-candır,

Eşq afəti-can olduğu məşhuri-cahandır (Sabir M. Ə. 2004; 333).

beyti ilə başlayan qəzələ bənzətmə sayıla bilər. Lakin bu bənzəyiş yalnız birinci beyt ilə bitir. Əgər bu birinci beyt olmasaydı və bu beytdən Sabir bir neçə söz iqtibas etməsəydi, bu əsərin Füzuliyə bənzətmə olduğu heç kimin ağlına da gəlməzdi. Bu iki əsərin arasında birinci beyt çıxarılmaqla, nə şəkilcə, nə mənaca heç bir rabitə yoxdur. Füzulinin əsəri forması da, məzmunu da bəlli olan qəzəl, həm də "Leyli-Məcnun" qəzəlidir. Sabirin əsəri isə hər şeydən əvvəl birmisralı müstəzad şəklində, həm də yeddi ayaqlı bir şeirdir. Belə şeir şəkli Füzulinin heç bir zaman xəyalına gəlməmişdir" (Cəfər Ə. 2012; 153). Bütün bunlar bir daha göstərir ki, Sabir heç zaman tapdanmış yolla getməmişdir. O, hər hansı mənbəyə yaradıcılıqla yanaşmışdır.

Klassik irsdən bu bəhrələnmə üsulundan, yəni yeniliyə, tərəqqiyə, mədəniyyət və tərbiyəyə əks mövqedə duran, bütün bu keyfiyyətləri isə ancaq çürük və zamana, əxlaqa, adi insanlığa zidd olan adətlərdə görən satirik qəhrəmanın ondan fərqli və mütərəqqi mövqedə duran tərəfə, guya doğru yol göstərmək iddiası ilə öyüd-nəsihət verilməsinə şairin digər əsərlərində də rast gəlirik. Məsələn, "Ata nəsihəti", "Bəxtəvər", "Uşaqdır" və digər satiralarda valideyn qarşı tərəfin başına ağıl qoymağa, ona düzgün tərbiyə üsulu və ya yaşam tərzi öyrətməyə çalışır. Bu iddia ilə də qarşı tərəfdən hər cəhətdən üstün olduğunu zənn edir. Nəticədə, tamamilə başqa bir mənzərə yaranır. "Ata nəsihəti" satirasında olduğu kimi ata elm öyrənməyə çalışan oğlunu, düşdüyü yaman yoldan çəkindirməyə çalışır. Bu məqsədlə ona belə "öyüd" və "ağıl" verir: 

Bəsdir, ey oğul, boş yerə bu elmə çalışma,

Qanın tələf oldu!

Gündüz, gecə səy eyləyibən dərsə alışma,

Canın tələf oldu!

Bu şəhrdə çoxdur, görürəm, elm oxuyanlar,

Onlar nə tapıblar?

Divanədilər malını bu yolda qoyanlar,

Guya ki, yatıblar... (Sabir M. Ə. 2004; 56).

"Nəsihət" bu ruhda davam edir. Ata oxuyanların aləmi qarışdırıb həm özlərini, həm də ətrafı incitdiklərini əsas gətirir. Bununla, öz mövqeyinin doğruluğunu sübut etməyə çalışır. O, pislədiyi, bəyənməyib zərərli hesab etdiyi yolun əvəzinə oğluna belə bir yolu "məsləhət" görür:

Bundan sora qıl tövbə dəxi, məktəbə getmə,

Bircə usan, oğlum!

Ta baxma müəllim sözünə, ta əməl etmə,

Axır utan, oğlum!

Çıx dağa, daşa, yol kəsibən qarətə başla,

Axırda qaçaq ol;

Sal bir beşatan boynuna, bu adətə başla;

Həmmali-yaraq ol,

Xəlqə dadanaq ol,

Hər işdə sayaq ol,

Var cana ziyanı

Qeyrətdən uzaq ol!... (Sabir M. Ə. 2004; 57).

Başqa bir satirada isə ata oğlunu yenə dilə tutur ki, oxumaq sevdasından əl çəksin. Əvəzində dövrə görə daha "vacib", "gərəkli", "adama şan-şöhrət gətirən" işlərlə məşğul olsun. Ata, ana, kim-kimsənə də onunla fəxr etsin. Bu satira "Leyli və Məcnun" adlanır. Əvvəlki satirada ("Ata nəsihəti") olduğu kimi, burada da ata oğlunu dərsdən, məktəbdən çəkindirməyə çalışır. Həmin satira M.Füzulinin məşhur "Leyli və Məcnun" poemasında atasının Məcnuna nəsihətindən bəhrələnməklə yazılmışdır. Professor M.Məmmədov həmin satira ilə bağlı "Hophopnamə"nin (Sabir M. Ə. 2004; 350) "İzah və şərh"lərində yazır: "Bu şeir Füzulinin "Leyli və Məcnun" poemasında Məcnuna atası tərəfindən edilən nəsihətə bənzətmədir. Nəsihət belə başlayır:

Ey cövhəri-canımın həvası,

Vey dideyi-bəxtimin ziyası!

Derdim olasan mənim pənahım,

Fəxrim, şərəfim, ümidgahım! (Sabir M. Ə. 2004; 350).



Bu müraciətdən görünür ki, ata, onun təsəvvürünə görə, ümidsiz, yəni axırı, nəticəsi olmayacaq bir dərdə düşən oğlunu həmin sevdadan uzaqlaşdırmağa çalışır. Çünki Leylinin atası öz qızını Qeysə (Məcnuna) verməkdən qəti surətdə imtina etmişdir. Qız atasının bu səbəb üçün gətirdiyi dəlillər isə dövrə, o zamanın məişət və əxlaq normalarına görə elə əsaslıdır ki, hər iki gəncin – Leyli ilə Məcnunun izdivaclarının yolunu birdəfəlik kəsmişdir. Ona görə Məcnunun atası oğlunun bir davamçı, ata ocağının gələcək başçısı kimi onun dövrə və vəziyyətə uyğun olan normal yaşayış tərzinə qayıtmasını istəyir. O, ümid edir ki, bununla Məcnun öz valideyinlərinin arzusunu, övladlarına bəslədikləri inamı doğruldacaqdır. Bütün bunlar normaldır. Yəni hər bir ata-ananın övladın işıqlı, rahat gələcəyi üçün öz məsuliyyətini dərk edib öhdəsinə düşən vəzifəni yerinə yetirməyə çalışması təqdir olunmalıdır. Məcnunun atası da bir valideyin kimi, oğlunu sonu qaranlıq görünən bir yoldan çəkindirməyə çalışır.

M.Füzulinin qəhrəmanı kimi, M.Ə.Sabirin qəhrəmanı da aşiqdir. Ancaq bunların aralarında bir fərq vardır; əgər M.Füzulinin qəhrəmanı bir qıza vurulubsa, Sabirin qəhrəmanı elmə, maarifə, oxumağa aşiqdir. Atası isə onu elm, maarif, bilik dalınca getməkdən çəkindirməyə çalışır. Bu niyyətlə oğluna belə müraciət edir:

Ey dövlətimin zəvalı oğlum!

Ey başı ağır bəlalı oğlum!

Ey məktəbü dərsin aşinası!

Ey rişteyi-elm mübtəlası!

Şad oldum o gün ki sən doğuldun,

Min şükr elədim ki, oğlum oldun.

Derdim ki, gözəl xələf olarsan,

Bir ailəyə şərəf olarsan.

Şüğlü hünərimi yad edərsən,

Atanı, ananı şad edərsən;

Dünyadən olursa irtihalım,

Ancaq sənə tərk olur mənlım (Sabir M. Ə. 2004; 110).

Bütün bunlar bir ata kimi təbii arzu və istəklərdir. Hər bir ata istəyir ki, oğlu onun yolunu davam etdirsin, valideyni qocalıb öləndə də onun mal-mülkünə əsl sahib çıxsın. Ancaq satiranın sonrakı misraları göstərir ki, belə getsə, ata öz oğluna bəslədiyi ümidlərin puça çıxacağından narahat olmağa başlamışdır. Çünki oğlunun tutduğu yol, həyatda izlədiyi məqsəd atanın təsəvvürlərinə uyğun gəlmir. Həmin uyğunsuzluq haqda oxuyuruq:

Bilməzdim olursan elmə şeyda,

Şuridə edər səni bu sevda.

Bəzi oxumuş rəfiqi-bədxah

Tədbirimi çaşdırıbmış, ey vah!

Uydum olara, səni oxutdum,

Səd heyf ki, əqlimi unutdum!

Kəsdim öz əlimlə öz ayağım,

Xamuş elədim mən öz çırağım! (Sabir M. Ə. 2004; 110).

Bu sətirlərdən görünür ki, oğlunu məktəbə öz atası qoymuşdur. Ancaq indi peşimandır. Çünki o zaman indi "bəzi oxumuş rəfiqi-bədxah" hesab etdiyi adamların təbliğat və məsləhətinə uymuşdur. Bir növ dəb xatirinə, qonşudan geriyə qalmasın deyə o da öz oğlunu mollaxanaya yox, məktəbə qoymuşdur. O zamankı hərəkətinin belə nəticələnəcəyini gözləmirdi. Elə bilirdi ki, oğlu bir qədər oxumaq və yazmaq öyrənib başqalarından xeyli üstün olacaq. Bundan da ata-anası qürurlanacaq. Ancaq nəticə atanın gözlədiyi kimi olmayıb. Oğul elmə, məktəbə Məcnun kimi aşiq olmuşdur. M.Füzuli qəhrəmanı ilə M.Ə.Sabir qəhrəmanının fərqi elə bundadır; biri bir qıza qovuşmaq, digəri isə elmi biliklərə yiyələnmək həsrətindədir. Hər ikisi də öz sevdasının aludəsi, məcnunudur. Oğulun elm, bilik məcnunu olması isə atanın xərclərini getdikcə artırır. Ona görə gileylənir, darılır. Atanın nədən dilxor olduğu aşağıdakı misralardan aydın olur:

Pul qalmadı, baxmışam hesabə,

Getdi qələmə, kağız, kitabə.

Jurnalü kitab yüz-yüz olmaz,

Bu xərc ticarətə düz olmaz.

Dəftərsə beş-altı cild bəsdir.

Ey naxələfim, bu nə həvəsdir?!

Çernil, qrafil, pero, qarandaş

İcad edəni olaydı şil, kaş!

Bihudə işə nə xərc edirsən,

Bu könlümü hərcü mərc edirsən!

Xərcin tükənib kəsilmir ardı,

Billah, dəxi pullarım qutardı! (Sabir M. Ə. 2004; 111).

Göründüyü kimi, atanı tutduğu işdən peşiman edən, yəni oğlunu dərsə, məktəbə qoyduğuna görə onun peşmançılığına səbəb olan cəhət uşağın məktəb xərclərinin "bitməz-tükənməz"liyidir. Çünki oğlu oxumaq həvəsindən əl götürmür. Təhsilini axıradək davam etdirmək üçünsə yeni-yeni kitablar, əlavə olaraq kağız, qələm, mürəkkəb və s. almaq lazım gəlir. Bütün bunlar isə atanın "pullarının qurtarmasına" səbəb olur. Atanın düşüncəsinə görə, elm, təhsil yolunda oğlunun çəkdiyi bütün zəhmətlər də, özünün çəkdiyi xərclər də boşuna gedir. Bütün bunlardan heç bir xeyir-bərəkət yoxdur. Bütün bunlar azmış kimi, başqalarının oğlanları gəzməkdə, əyləncələrdə, ovda, xəlvəti qumar oynayır, içki içir, eyş-işrətlə məşğul olduğu halda onun oğlu ancaq oxuyub-yazmağa həvəs göstərir:

Nə var yeyib-içməyin, nə xabın,

Təhsilədir ancaq irtikabın.

Nə seyrü-səfanı xoşlayırsan,

Nə dərsü-kitabı boşlayırsan.

Mırt-mırt oxuyub mırıldanırsan,

Qarğa kimi hey qırıldayırsan! (Sabir M. Ə. 2004; 111).



Ona görə də oğlanın canı üzülmüşdür. Ata onun dərdinə bir çarə edə biləcək adam axtarır. Atanın düşüncəsinə görə, oğlunun eyş-işrətlə, xəlvəti qumar oynamaq, içki içmək və s. kimi əməllərlə məşğul olan tay-tuşlarının hərəsi bir əməldə ad çıxarıb öz "əbəveynini", yəni valideynini, ata-anasını sevindirir. Ata da bu cür hissləri yaşamaq, duymaq istəyir:

Bəzisi olub qumarə məşğul,

Bəzisi şərabə, yarə məşğul.

Hər bir nəfəri bir işdə çolak,

Hər digəri bir əməldə bibak.

Hər gün əbəveyni şad edirlər,

Hörmətlərin izdiyad edirlər.

Xoş ol əbəveynə kim, bu minval

Hər daim olur cahanda xoşhal!... (Sabir M. Ə. 2004;112).

Göründüyü kimi, M.Füzulinin qəhrəmanı kimi, M.Ə.Sabirin qəhrəmanı da öz övladlarının xoş gününü, üz ağardan əməllərini görmək istəyir. Bu, onların atalıq haqlarıdır. Ancaq hər bir atanın dərdinin mahiyyəti və tutduğu ictimai mövqe fərqlidir. Professor Mir Cəlal Paşayev bucəhətləri nəzərdə tutaraq yazmışdır: "Onun (Məcnunun atasının – U.Q.) dərdi bir növ ailə faciəsidir, oğlunun sevgi yolunda düşdüyü fəlakətdir. "Oğlum" ("Leyli və Məcnun" nəzərdə tutulur – U.Q.) satirasında böyük bir ictimai faciə, müasir fanatiklərin gəncləri nə qədər uçurumlu yollara dəvət etdiyi göstərilir və bu faciədə də bir tərəfdən müsəlman fanatizminin, ikinci tərəfdən

müasir mülkədar-burjua münəvvərlərinin daxili boşluğu və parazit həyatı bədii şəkildə göstərilir" (Cəlal M. (1961, № 12), 163).

Doğrudan da, ata gələcəyi gördüyü üçün deyil, şöhrətə, dəbə uyduğu üçün "bəzi oxumuş rəfiqi-bədxah"ın sözü ilə oğlunu məktəbə qoymuşdur. Ancaq dünya görüşünə görə məktəbin, oxumağın ictimai dəyərini dərk etmir. Şan-şöhrəti, əsl kişiliyi, cavanlığı, ictimai mövqeyi gəzməkdə, əyləncələrdə, ov etməkdə, qumar oynamaq, içki içmək və digər əməllərdə görür. Bu isə, söz yox ki, cəmiyyətin gələcəyini təhlükəyə salır.

Göründüyü kimi, M.Ə.Sabir klassik sənətkarın – M.Füzulinin əsərinin forma və vəznini saxlasa da, orada təsvir edilən ictimai-mədəni mövqelərini dəyişdirmiş, nəticədə tamamilə orijinal ideya və üsluba malik bir əsərin yaradılmasına nail olmuşdur. Professor Mirzağa Quluzadə M.Ə.Sabirin klassik irsdən həmin bəhrələnmə üsulunun orijinallığını belə dəyərləndirmişdir: "Sabir satirik parodiya yaratmaq üçün Füzuli qəzəlinin yalnız forması deyil, bəzən məzmunu ilə də paralellər düzəltməyə fikir vermişdir. Məsələn, Füzulidə Məcnunun atası öz oğlunu "eşq bəlası"ndan uzaqlaşdırmaq üçün ona nəsihət verir. Sabirdə isə cahil ata oğlunu elmdən, təhsildən uzaqlaşdırmağa çalışır. Bu analogiya özü də satirik surət yaratmağa və gülüş, istehza doğurmağa xidmət üçündür" (Sabir Məqalələr məcmuəsi, 1962; 171).

Şair bu üsuldan "Oxutmuram, əl çəkin!", "Bu boyda!", "Vah!...bu imiş dərsi-üsuli-cədid?!", "Şikayət!...", "Uşaqdır" və digər satiralarında da istifadə etmişdir. Ancaq həmin satiraların hər birinin ideya istiqamətinə və tənqid hədəfinə uyğun olaraq fərqli və özünəməxsus cəhətləri vardır. Bu da Sabir realizmindən, onun sənətkarlıq keyfiyyətlərindən irəli gəlir.

**Ədəbiyyat:**

1.Cəfər Ə. (2012) Sabirin yaradıcılığında təhzil, nəzirə və bənzətmələr // M.Ə.Sabir haqqında tədqiqlər. Bakı: "CBS", s.130-208

2. Cəlal M. (1961, № 12), Sabir yaradıcılığında bədii sənətkarlıq // Azərbaycan jurnalı, s.154-165.

3. Qəhrəmanova Ulduz (2015), M.Ə.Sabir və klassik irs, f.ü.f.d. dərəcəsi almaq üşün təqdim edilən dissertasiya, Bakı

4. Sabir (Məqalələr məcmuəsi). (1962), Bakı: Az SSR EA, s. 264.

5. Sabir M. Ə. haqqında tədqiqlər (elmi məqalələr toplusu). (2012), Toplayıb tərtib edən, ön sözün müəllifi və redaktoru Alxan Bayramoğlu (Məmmədov) Bakı: "CBS", 456 s.

6. Sabir M. Ə. (2004), Hophopnamə. Tərtib edən, müqəddimə və şərhlərin müəllifi Məmməd Məmmədov. I c., Bakı: Şərq-Qərb, 478 s.

# PROSE OF JALIL MAMMADGULUZADE IN THE SCIENTIFIC AND THEORETICAL RESEARCH OF M. IBRAHIMOV

# CƏLİL MƏMMƏDQULUZADƏNİN BƏDİİ NƏSRİ M.İBRAHİMOVUN ELMİ-NƏZƏRİ ARAŞDIRMALARINDA

**Dr. ULKER BAHSIYEVA**

**ADPU-nun Filoloji fakültesinin Edebiyatın tedrisi teknolojisi bölümünün baş öğretim üyesi, ORCID İD 0000-0002-5994-2356**

## GİRİŞ

M.İbrahİmovun araşdirmalarinda C.Məmmədquluzadənin nəsri ilə bağlı təhlil “Poçt qutusu”, “Xanın təsbehi”, “Qurbanəli bəy”, “İranda hüriyyət” və “Usta Zeynal” hekayələrini əhatə edir. Bu bölümdə “Danabaş kəndinin əhvalatları” və “Quzu” əsərlərinin adları çəkilsə də bu əsərlər təhlil olunmamış, ümumi yaradıcılıq xarakteristikasında münasibət bir-iki cümlə ilə yekunlaşmışdır. Lakin yuxarıda adları sadalanan hekayələr üslub, süjet, mövzu, ideya və s. baxımdan təhlil olunmuşdur. M.İbrahimov C.Məmmədquluzadənin hekayələrini ədəbiyyatşünaslıqda bu gün üçün də əhəmiyyət kəsb edən məsələlər daxilində təhlilə cəlb edir. İlk növbədə bu təhlillərdə biz C.Məmmədquluzadənin kiçik hekayələr ustası kimi təqdim olunduğunun şahidi oluruq. Bu təqdimatda C.Məmmədquluzadənin portret (“Poçt qutusu”, “Usta Zeynal”, “Qurbanəli bəy”) və psixoloji (“Xanın təsbehi”, “Qurbanəli bəy”) hekayələr müəllifi kimi insan həyatı, Şərq ətaləti, xan-bəy zülmü, milli əsarət məşəqqətləri və s. cəhətlərin hansı ustalıqla təsvir etməsi açıqlanır. M.İbrahimov haqlı olaraq yazır ki, C.Məmmədquluzadənin sadə təsvirləri çox inandırıcı və təbiidir. “Çünki ədib heç bir şeyi uydurmamış, yalandan düzəltməmişdir. Hamısı həyati olmaqla bərabər, canlı hissiyyatla doludur. Yazıçı heç zaman öz müvazinətini, təmkin və sakitliyini itirmir. Bu, onun təsvirlərinin bədii qüvvəsini artıran bir xüsusiyyətdir. Lakin bu heç də o demək deyildir ki, C.Məmmədquluzadənin hekayələri daxili hərarət və həyəcandan məhrumdur. Əksinə, bu hekayələr insanda çox dərin həyəcan və hisslər oyadır. Sənətkar ümumiyyətlə süni boyalardan qaçdığı üçün onun hekayələrindəki lirika sağlam və dərindir. Onun gülüşü də, lirika və kədəri də təsirlidir, insanı yüksəldir, köhnə,durğun həyatı dəyişməyə çağırır(7, 153).M.İbrahimov məhz bu prizmadan onun Novruzəlisini də (“Poçt qutusu”), Nəzərəlisini də (“Xanın təsbehi”), Qurbanəli bəyini də (“Qurbanəli bəy”), Kərbəlayi Məmmədəlisini də (“İranda hürriyyət”) təhlil edir, onlara həyatımızın reallıqları, milli varlığımızın bir parçası kimi yanaşır.

## YÖNTEM

Bu səbəbdən M.İbrahimov C.Məmmədquluzadə hekayələrində hər bir obrazın xarakterində şişirtmə və ifratın olmadığını kəşf edir. Məsələn, M.İbrahimov Usta Zeynal obrazını təhlil edərkən, onun həyatında hər şeyin mənasının “təvəkküldən” ibarət olduğunu önə çəkir. Ona görə də Usta Zeynalın hər şeyə biganə olmasının, dünya işlərinə maraqsız yanaşmasının səbəbini doğru olaraq bununla bağlayır. “Qurbanəli bəy” hekayəsinə M.İbrahimov daha çox dövrün ictimai və siyasi mənzərəsini əks etdirən əsər kimi qiymət verir. Qurbanəli bəyin “spasibo” deyimini gülüş vasitəsi kimi təhlil etməklə ona ictimai məna verir. Mütləqiyyət və işğal məmurlarına yerli satqınların “sədaqət və nəvazişlərinin” faciəsi kimi baxır. Buradakı faciə dinamizmin alt qatda cərəyan etdiyini bildirir. M.İbrahimov C.Məmmədquluzadə hekayələrindən danışarkən mühüm bir cəhət kimi onun hekayə yaradıcılığının sonrakı

mərhələsində göz yaşı və faciənin azalmasını qeyd edir. Bunun səbəbini xalq kütlələrinin ictimai mübarizəyə qoşulması, öz haqlarını dərk etməsi ilə bağlayır. M.İbrahimov göstərir ki, müəyyən mərhələdən sonra C.Məmmədquluzadənin Usta Zeynalı və Novruzəlisi əvvəlki Usta Zeynal və Novruzəli deyildir. Buna misal olaraq M.İbrahimov yazıçının “Quzu” əsərini misal gətirir. “Quzu” hekayəsindəki Məmmədhəsən açıqgöz, ayıq, bacarıqlı, yeri gələndə isə hiyləgər təsiri bağışlayır. Artıq bu obraz ictimai aktivlik qazanan obrazlar sırasında tam fərqli təsir bağışlayır. M.İbrahimov bu halı C.Məmmədquluzadə yaradıcılığı üçün yeni mərhələnin əlaməti kimi xarakterizə edir.

**BULGULAR**

M.İbrahimov “Böyük demokrat” adlı tədqiqat əsərinin səkkizinci bölməsini C.Məmmədquluzadənin sovet dövrü yaradıcılığına həsr edir. C.Məmmədquluzadə bu hissədə sovet yazıçısı və jurnalisti kimi təqdim edilir. Burada müəyyən tərcümeyi-hal faktları, C.Məmmədquluzadənin Təbrizdəki jurnalistik fəaliyyəti, “Molla Nəsrəddin” jurnalını çap etdirməsi, 1921-ci ildə Azərbaycan Respublikası rəhbərliyinin dəvəti ilə Bakıya çağırılması və s. məsələlər epizodik şəkildə nəzərə çatdırılır. Bildiyimiz kimi, C.Məmmədquluzadə sovet Azərbaycanı hökumətinin dəvətindən sonra Bakıya gəlmiş və ömrünün sonuna qədər (1932) bu şəhərdə yaşayıb yaradıcılıq fəaliyyətini davam etdirmişdir. Böyük ümid və sevinclə Bakıya gələn və sovet hakimiyyətinin qələbəsindən öz xalqı üçün çox şeylər gözləyən C.Məmmədquluzadənin ümidləri bir neçə ildən sonra puça çıxmışdır. Ona görə də C.Məmmədquluzadənin Bakı həyatının təxminən ilk yarısı ümidlərlə bağlı olduğu üçün yazıçının əsərlərində bu dövrü təqdir edən nümunələrə rast gəlmək mümkündür. Sonrakı mərhələdə isə sovet quruluşunu təqdir edən yazılara ya rast gəlinmir,ya da dövrü tərif edən bu yazılarda məcburiyyət hissi və könülsüzlük açıq-aydın hiss olunur. Bu halı düzgün qiymətləndirən akademik İsa Həbibbəyli belə yazırdı: “Ədib illər uzunu uğrunda çarpışdığı amallara heç olmasa sovet dövründə çatmağa can atmışdır. Lakin... ictimai-ədəbi mühitdə biganəliyin, laqeydliyin, tənhalığın burulğanına düşmüşdür” (5, 359).



**SONUÇ**

M.İbrahimov isə C.Məmmədquluzadənin sovet dövrü ictimai və ədəbi-bədii fəaliyyətinə yüksək qiymət verir, ictimai fəaliyyət və sənətini şüurlu surətdə “zəhmətkeş xalqa, əməkçi bəşəriyyətə verdiyini” nəzərə çatdırır. Göründüyü kimi, M.İbrahimov C.Məmmədquluzadə yaradıcılığının və ictimai fəaliyyətinin sovet dövrünü təhlil edərkən bu dövrün ideoloji qadağaları şəraitində “məsələləri bütün açıqlığı ilə təhlildən keçirə bilməmişdir” (5, 359).Lakin bütün bunlara baxmayaraq C.Məmmədquluzadənin yazıçı və jurnalist kimi möhtəşəm obrazını canlandıra bilmişdir.

“Böyük demokrat”ın doqquzuncu bölməsi “C.Məmmədquluzadənin yaradıcılıq xüsusiyyətləri haqqında” və onuncu bölməsi isə “Bəzi yekunlar” adlanır. Hər iki bölümdə C.Məmmədquluzadəyə məxsus o keyfiyyətlərdən danışılır ki, bu məsələlər bu və ya digər dərəcədə əvvəlki səkkiz bölümdə təhlil olunmuşdur. Ancaq həmin məsələlər bu hissələrdə təkrar yox, ümumiləşmə səciyyəsindədir. Məsələn, C.Məmmədquluzadənin yaradıcılıq xüsusiyyətlərindən danışarkən varlığa realist münasibət, xəlqilik, sənətdə realizmin təzahürü, dil, millilik və bu kimi digər məsələlər ümumiləşdirilərək təhlil süzgəcindən keçirilir. “Bəzi yekunlar” bölümündə isə M.İbrahimov C.Məmmədquluzadə yaradıcılığı ilə əlaqədar gəldiyi nəticələri sadalayır. Dörd hissədən ibarət olan bu bölmədə isə C.Məmmədquluzadə böyük yazıçı, ölməz jurnalist, ictimai xadim, müəllim, alovlu vətənpərvər kimi dəyərləndirilir.

**KAYNAKLAR**

1. İbrahimov M. Əsərləri, 10 cilddə, I cild, Bakı: Yazıçı, 1978, 512 s.

2. İbrahimov M. Əsərləri, 10 cilddə, II cild, Bakı: Yazıçı, 1978, 504 s.
3. İbrahimov M. Əsərləri, 10 cilddə, III cild, Bakı: Yazıçı, 1979, 592 s.
4. İbrahimov M. Əsərləri , 10 cilddə, IV cild, Bakı: Yazıçı, 1979, 596 s.
5. İbrahimov M. Əsərləri, 10 cilddə, V cild, Bakı: Yazıçı, 1980, 339 s.
6. İbrahimov M. Əsərləri, 10 cilddə, VI cild, Bakı: Yazıçı, 1981, 376 s.
7. İbrahimov M. Əsərləri, 10 cilddə, VII cild, Bakı: Yazıçı, 1981, 332 s.
8. İbrahimov M. Əsərləri, 10 cilddə, VIII cild, Bakı: Yazıçı, 1981, 303 s.
9. İbrahimov M. Əsərləri, 10 cilddə, IX cild, Bakı: Yazıçı, 1982, 664 s.
10. İbrahimov M. Əsərləri, 10 cilddə, X cild Bakı: Yazıçı, 1983, 507 s.
11. İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən. Bakı: Yazıçı, 1985, 552 s.

# ANALYSIS OF SOUTH AZERBAIJAN LITERATURE IN THE CONTEXT OF THE ENTIRE IDEA OF AZERBAIJAN LITERATURE (BASED ON M. IBRAHIMOV'S RESEARCH)

# CƏNUBI AZƏRBAYCAN ƏDƏBIYYATININ BÜTÖV AZƏRBAYCAN ƏDƏBIYYATI IDEYASI KONTEKSTINDƏ TƏHLILI

# (M.İBRAHİMOVUN ARAŞDIRMALARINA ƏSASƏN)

**Dr. ULKER BAHSIYEVA**

**ADPU-nun Filoloji fakültesinin Edebiyatın tedrisi teknolojisi bölümünün baş öğretim üyesi, ORCID İD 0000-0002-5994-2356**

## ÖZET

Mirzə İbrahimov Cənubi Azərbaycan ədəbiyyatını böyük tarixi hadisələr fonunda yaranmış və inkişaf etmiş ədəbiyyat kimi dəyərləndirir. Onun XIX və XX əsrlər Cənubi Azərbaycan ədəbiyyatının ayrı-ayrı nümayəndələri haqqında araşdırmaları həm elmi, həm də milli-mənəvi baxımdan əhəmiyyət kəsb edir. İşin əhəmiyyəti ondadır ki, M.İbrahimov bu ədəbiyyata ərazisi iki yerə parçalanan, lakin dili, ruhu, mədəniyyəti, ürəyi parçalanmayan bir xalqın ədəbiyyatı, geniş mənada isə böyük Azərbaycanın ədəbiyyatı kimi baxır. Ona görə də M.İbrahimovun Cənubi Azərbaycan ədəbiyyatı ilə bağlı elə bir tədqiqi yoxdur ki, Şimal və Cənub ədəbi proseslərindəki əlaqədən danışılmasın. M.İbrahimov XIX əsr Cənubi Azərbaycan ədəbiyyatına Şimali Azərbaycan ədəbi və ictimai proseslərinin təsirini önə çəkir.

**Anahtar kelimeler:** M.İbrahimov, Cənubi Azərbaycan ədəbiyyatı, vətən, ana, birlik

## ABSTRACT

Mirza Ibrahimov evaluates the literature of South Azerbaijan as a literature that arose and developed against the background of great historical events. His research on individual representatives of South Azerbaijani literature of the 19th and 20th centuries is important both from a scientific and national-spiritual point of view. The importance of the matter is that M.Ibrahimov views this literature as the literature of a people whose territory is divided into two parts, but whose language, soul, culture, and heart are not divided, and in a broad sense, the literature of great Azerbaijan. Therefore, M.Ibrahimov does not have such a study of the literature of South Azerbaijan that does not mention the connection between the literary processes of the North and the South. M.Ibrahimov highlights the influence of the literary and social processes of North Azerbaijan on the literature of South Azerbaijan in the 19th century.

**Key words:** M.Ibrahimov, South Azerbaijani literature, homeland, mother, unity

## GİRİŞ

Cənubi Azərbaycan ədəbiyyatı problemlərinin öyrənilməsi M.İbrahimovun elmi araşdırmaları içərisində vacib yerlərdən birini tutur. Cənubi Azərbaycan ədəbiyyatının 200 illik (XIX-XX əsrlər) dövrünü əhatə edən bu tədqiqlər ayrı-ayrı sənətkarların yaradıcılıqlarını öyrənmək və bütöv ədəbiyyatımız haqqında elmi təəssüratları genişləndirmək baxımından əhəmiyyətlidir.

Qeyd edək ki, ədəbiyyatımızın, mədəniyyətimizin bir çox dövrləri və bu dövrlərdə yaşayıb-yaratmış yüzlərlə sənət adamının həyat və yaradıcılığı barədə akademik M.İbrahimov

araşdırmalar aparmış, ciddi monoqrafiya və elmi məqalələr çap etdirmişdir. Bütün bunlar akademik M.İbrahimovun Azərbaycan ədəbiyyatı və mədəniyyəti problemlərinin həllində yaxından iştirak etdiyini və bu sahədə əhəmiyyətli xidmətlər göstərdiyini təsdiqləyir. Cənubi Azərbaycan ədəbiyyatı məsələlərinin öyrənilməsi akademik M.İbrahimovun ümumazərbaycan ədəbiyyatı problemlərinin araşdırılması ilə bağlı göstərdiyi xidmətlərin tərkib hissəsidir. Əlbəttə, M.İbrahimovun bu sahə ilə əlaqədar apardığı tədqiqatlar təsadüfi xarakter daşımır. Əvvəla, M.İbrahimov Cənubi Azərbaycan ədəbiyyatı istiqamətini öz elmi fəaliyyətinə daxil etməklə Azərbaycan ədəbiyyatı tarixini bütövlükdə öyrənməyə çalışmışdır. İkincisi, M.İbrahimov bütöv Azərbaycanın Cənubi Azərbaycan qolunda yaranan son iki yüzillik ədəbiyyatın nümayəndələri və ümumi xarakteristikası haqqında zəngin məlumata malik idi.

M.İbrahimovun 12 yanvar 1982-ci ildə Təbrizdəki Azərbaycan Yazıçılar Cəmiyyətinə ünvanladığı məktubda bu fikir öz təsdiqini tapır: "Qardaşlar! Bədii ədəbiyyat sizinlə bizim vahid mənəvi vətənimizdir və bu vətəni qorumaq, onun parlaması, çiçəklənməsi üçün səmimi-qəlbdən əlindən gələni etmək hər birimizin müqəddəs borcudur... Cənubi Azərbaycanda bizim qədim mədəniyyət mərkəzlərimiz Təbrizdə, Ərdəbildə, Marağada, Urmiyada və İran məmləkətinin paytaxtı Tehranda, habelə başqa yerlərdə yaşayan Azərbaycan şair və yazıçıları gözəl sənət əsərləri yaratmışlar" (3, 160). Üçüncüsü, M.İbrahimov istər Cənub, istərsə də Şimalda yaranan son iki yüzillik ədəbiyyatın müxtəlif ictimai-siyasi şərait və hətta müxtəlif dillərdə yaranmasına baxmayaraq, hər iki ədəbiyyatın "Azərbaycan xalqının dil, mədəniyyət, ədəbiyyat, adət-ənənə, mənəvi, ruhi yaxınlıq və birliyinə" (1, 6) xidmətini gözəl başa düşürdü. Onun 05 avqust 1982-ci ildə Cənubi Azərbaycan ədəbiyyatının aparıcı nümayəndəsi Rəhim Dəqiqə yazdığı məktubda bu cəhət ifadəsini belə tapır: "Bizim həm o taydan, həm də bu taydan çıxmış böyük adamlarımız – Mirzə Fətəli Axundov və Hacı Zeynalabdin Marağayi, Cəlil Məmmədquluzadə və Əbdürrəhim Talıbov, Nəriman Nərimanov və Səttar xan, Şeyx Məhəmməd Xiyabani, Sabir və Möcüz, Məhəmməd Hadi və Ləli və sair böyük yazıçılarımız, şairlərimiz, ictimai xadimlərimiz inqilabçılarımız hamısı bu fikirdə olublar ki, Azərbaycan adlı gözəl bir torpağın, Azərbaycan xalqı adlanan dünyanın ən istedadlı, ən əməksevər və qabil xalqlarından olan Azərbaycan xalqının övladlarıdırlar. Onlar "o tay, bu tay" bilməyiblər. Bütün əməl və fikirlərində Arazın hər iki sahilində yaşayan zəhmətkeş xalqın azadlığına, tərəqqisinə, səadətinə çalışıblar" (3, 162). Dördüncü, bu istiqamətdə aparılan araşdırmalar M.İbrahimovun ədəbiyyatşünaslıq fəaliyyətlərindəki Cənubi Azərbaycan ədəbiyyatı boşluğunu doldurmaq baxımından əlamətdar hesab edilə bilər. Onu da qeyd edək ki, Azərbaycanda "Cənubi Azərbaycan ədəbiyyatı"nın xüsusi elmi sahəyə çevrilməsi akademik M.İbrahimovun adı ilə bağlıdır. 1976-cı ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsi onun təşəbbüsü ilə yaradılmışdır. Bu şöbə elmi araşdırma mərkəzi kimi Cənubi Azərbaycanın zəngin ədəbi-mədəni tarixinin fundamental öyrənilməsində mühüm rol oynamağa başladı. 1981-1994-cü illər arasında dörd cildlik Cənubi Azərbaycan ədəbiyyatı antologiyalarının işıq üzü görməsi, çoxsaylı tədqiqat əsərlərinin çapı və s. işlər şöbənin ədəbiyyatımıza, mədəniyyətimizə və elmimizə verdiyi dəyərli töhfələrdəndir.



Mirzə İbrahimov Cənubi Azərbaycan ədəbiyyatını böyük tarixi hadisələr fonunda yaranmış və inkişaf etmiş ədəbiyyat kimi dəyərləndirir. Onun XIX və XX əsrlər Cənubi Azərbaycan ədəbiyyatının ayrı-ayrı nümayəndələri haqqında araşdırmaları həm elmi, həm də milli-mənəvi baxımdan əhəmiyyət kəsb edir. İşin əhəmiyyəti ondadır ki, M.İbrahimov bu ədəbiyyata ərazisi iki yerə parçalanan, lakin dili, ruhu, mədəniyyəti, ürəyi parçalanmayan bir xalqın ədəbiyyatı, geniş mənada isə böyük Azərbaycanın ədəbiyyatı kimi baxır. Ona görə də M.İbrahimovun Cənubi Azərbaycan ədəbiyyatı ilə bağlı elə bir tədqiqi yoxdur ki, Şimal və Cənub ədəbi proseslərindəki əlaqədən danışılmasın. M.İbrahimov XIX əsr Cənubi Azərbaycan ədəbiyyatına Şimali Azərbaycan ədəbi və ictimai proseslərinin təsirini önə çəkir. "Şimali Azərbaycanda

yaranan ədəbiyyata xalqın mənəvi, mədəni, həyatına yeni ruh gətirən küləklər elə ilk başlandığı gündən Araz və Astara çaylarını, Muğan düzünü və Talış dağlarını aşıb Cənuba da yayıldı" (2, 15). İ.Qutqaşınlı, A.Bakıxanov, Q.Zakir, M.Ş.Vazeh, M.F.Axundov, S.Ə.Şirvani, o cümlədən dövrü mətbuat sırasında "Əkinçi" ideyalarının Cənubi Azərbaycanın ədəbiyyatına birbaşa təsirini M.İbrahimov sadəcə təsdiqləmir, ayrı-ayrı şairlərin yaradıcılıq nümunələri əsasında bu təsirin səviyyəsini müəyyənləşdirir.

Əndəlib Qaracadağı, Heyran xanım, Zikri Ərdəbili, Seyid Əbülqasim Nəbati, Məhəmməd Bağır Xalxali, Hacı Mehdi Şükuhi, Əbülhəsən Raci, Mirzə Əlixan Ləli, Məhəmməd Hidəçi, Hacı Sərraf Rza, Mirzə Əbdürrəhim Talıbov, Zeynalabdin Marağayi, Mirzə Ağa Təbrizi kimi yeni ruhlu şair, yazıçı və dramaturqların simasında Cənubi Azərbaycan ədəbiyyatının estetik tələbləri ödəməsini, xalqın arzu və istəklərini əks etdirməsini qeyd edir.

Ümumiyyətlə, M.İbrahimovun Cənubi Azərbaycan ədəbiyyatı ilə bağlı tədqiqləri 4 cildlik "Cənubi Azərbaycan ədəbiyyatı" antologiyasına yazdığı ön söz və bir sıra məqalələrində əksini tapmışdır. Lakin M.İbrahimovun Cənub ədəbi prosesinə həsr edilən kiçik məqalələri ədəbiyyatşünaslığımız üçün böyük hadisə hesab olunub. Digər baxımdan M.İbrahimovun ayrı-ayrı məqalələrdə irəli sürdüyü fikir Cənubi Azərbaycan ədəbiyyatı problemlərinə həsr olunmuş iri tədqiqat əsərlərindəki fikirlərlə üst-üstə düşür.

Onun 1945-ci ildə XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaşamış Heyran xanımın yaradıcılığının təhlilinə həsr edilən "Şairə Heyran xanım" məqaləsi bu sırada önəmli yerlərdən birini tutur. M.İbrahimov Azərbaycan və fars dillərində 4500 beytdən ibarət divanı olan Heyran xanımın sənətini klassik Azərbaycan ədəbiyyatı ənənələrinə, o cümlədən Füzuli ruhuna uyğun yazılmış sənət hesab edir. Heyran xanımın qəzəlləri ilə yanaşı tərcibənd, məsnəvi və müxəmməslərini təhlil edərkən M.İbrahimov həm onun yaradıcılığının janr genişliyindən, həm də poeziyasının yüksək sənətkarlıq keyfiyyətlərindən söhbət açır. Heyran xanıma həsr edilən məqalədə onun şərq şeir ənənələrinə bağlılığı əksini tapsa da, Vaqif üslubuna yaxınlığı barədə də fikirlər yer alır. M.İbrahimov bu cür bağlılığı Heyran xanımın qəzəllərinin mövzu baxımından əski, ruh və ifadə baxımından yeni olması ilə əlaqələndirir. "Bu qəzəllərdə həyat və təbiət, gözəllik və incəliyə qarşı sağlam və təbii zövqi əlaqə vardır. Onların hər sətrində insan ürəyinin canlı duyğuları hakimdir"(7, 216).



M.İbrahimov XIX əsr Cənubi Azərbaycan ədəbiyyatından danışarkən bu ədəbiyyatın realist-demokratik ruhuna daha çox diqqət ayırırdı. Bu yolda M.F.Axundovun Cənubi Azərbaycan ədəbiyyatına təsirini xüsusi qiymətləndirirdi. M.İbrahimov yazır ki, Heyran xanım, Nəbati, Əndəlib Qaracadaği, Hacı Mehdi Şükuhi, Raci, Ləli, Dilsuz və s. şairlərin yaradıcılığında ənənəyə güclü sədaqət olsa da, sənətlərindəki mahiyyət dünyəvi hisslər, realist yanaşma yolu ilə çatdırılır.

Görkəmli alim Cənubi Azərbaycan ədəbiyyatının xalqın tərəqqisi, gələcək arzuları naminə mübarizəsini, eyni zamanda onun tənqidi-realist mövqeyini M.F.Axundovla yanaşı, A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, C.Məmmədquluzadə və s. sənətkarların təsiri ilə də bağlayır. Maraqlıdır ki, M.İbrahimov Cənubi Azərbaycan ədəbiyyatı üçün bu təsiri nəzəri bir aspektdən irəli sürsə də, bütün sənətkarlarda mütləq mənada onun təzahürünü axtarmağa səy göstərmir. Bu cür yanaşma elmiliyə və obyektivliyə tam uyğundur. Çünki Şimali Azərbaycan ədəbiyyat ideyalarının Cənubi Azərbaycan ədəbiyyatına təsiri heç də o demək deyil ki, Ləli, Raci Hidəçi, Dilsuz və digər sənətkarlar bu təsir nəticəsində başqa istiqamətdə formalaşan realist ədəbiyyat nümayəndələrinə çevrilmişlər. Bu mənada Hacı Mehdi Şükuhi, Əbülhəsən Raci, Məhəmməd Əmin Dilsuz, Ləli, Hidəçi, Rza Sərraf yaradıcılıqlarını mövzu, ideya və forma xüsusiyyətləri baxımından təhlil edən M.İbrahimov onların yaradıcılığına məxsus yeni cəhətləri göstərsə də, bu şairlər daha çox klassik ədəbiyyatın nümayəndələri təsiri bağışlayır.

M.İbrahimov Cənubi Azərbaycan ədəbiyyatının bu qrup şairlərindən danışarkən haqlı olaraq onların əsərlərində “insan həyatının, din və dünya məsələlərinin, təbiət hadisələrinin, müxtəlif təriqətlərin, inam və əqidələrin şərhində, gündəlik həyatda, insan münasibətlərində rast gəldiyi ziddiyyətlər barədə fəlsəfi düşüncələr, onları dərk etmək ehtirası və s.” (7, 651)əks olunduğunu qeyd edir.

M. İbrahimov cəmiyyətə qarşı etiraz motivli şeirləri təhlil edərkən ilk növbədə Mahmud Qənizadənin, Seyid Əşrəf Gilaninin, Siqqətülislamın, Şəms Kəsmainin, Xazin Təbrizinin yaradıcılığına müraciət etmiş, İran üçün xarakterik olan siyasi ab-havanın doğurduğu çətinlikləri diqqətə çatdırmışdır.

**KAYNAKLAR**

12. İbrahimov M. Əsərləri, 10 cilddə, I cild, Bakı: Yazıçı, 1978, 512 s.

13. İbrahimov M. Əsərləri, 10 cilddə, II cild, Bakı: Yazıçı, 1978, 504 s.

14. İbrahimov M. Əsərləri, 10 cilddə, III cild, Bakı: Yazıçı, 1979, 592 s.

15. İbrahimov M. Əsərləri , 10 cilddə, IV cild, Bakı: Yazıçı, 1979, 596 s.

16. İbrahimov M. Əsərləri, 10 cilddə, V cild, Bakı: Yazıçı, 1980, 339 s.

17. İbrahimov M. Əsərləri, 10 cilddə, VI cild, Bakı: Yazıçı, 1981, 376 s.

18. İbrahimov M. Əsərləri, 10 cilddə, VII cild, Bakı: Yazıçı, 1981, 332 s.

19. İbrahimov M. Əsərləri, 10 cilddə, VIII cild, Bakı: Yazıçı, 1981, 303 s.

20. İbrahimov M. Əsərləri, 10 cilddə, IX cild, Bakı: Yazıçı, 1982, 664 s.

21. İbrahimov M. Əsərləri, 10 cilddə, X cild Bakı: Yazıçı, 1983, 507 s.

22. İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən. Bakı: Yazıçı, 1985, 552 s.

23. İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. Bakı: Azərnəşr, 1961, 524 s.

24. İbrahimov M. Ana dili – hikmət xəzinəsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991, 136 s.

# ARTISTIC CREATION OF ALEKSEI NIKOLAYEVICH TOLSTOY IN THE HISTORY OF WORLD CHILDREN'S LITERATURE

# DÜNYA UŞAQ ƏDƏBİYYATI TARİXİNDƏ ALEKSEY NİKOLAYEVİÇ TOLSTOYUN BƏDİİ YARADICILIĞI

**Aygun Ahmadova Shukur kızı**

**Azerbaycan Devlet Pedagoji Üniversitesi (Ü. Hacıbeyov-68), 0000-0002-2464-2513**

**Aygün Ahmadova, Edebiyat Öğretim Teknolojileri Bölümü Doçenti**

***ÖZET***

Rus-Sovyet yazar ve halk figürü Alexei Nikolayevich Tolstoy, çok sayıda tarihi ve bilim kurgu romanı, kısa öykü ve hikayenin yazarıdır. Alexey Tolstoy, Sovyet edebiyatının kurucularından biridir. 1883'te Nikolayevsk'te (şimdi Pugachev) doğdu. A.Tolstoy'un eserinin okuyucuları iki şiir kitabı, kırktan fazla oyun ve birkaç roman biliyor. Yazar aynı zamanda ilginç eserleriyle çocuk edebiyatı tarihine de imza atmıştır. "Altın Anahtar veya Buratino'nun Maceraları" masalının yazarıdır. Yaratıcılığında İtalyan halk masallarına ilgi duymuş, daha sonra özgün fikirlerini tercih ederek "Altın Anahtar veya Buratino'nun Maceraları" konulu bir anlatı yazmıştır. Rus edebiyatı tarihinde bilim kurgu türünün kurucularından biri büyük Sovyet yazarı, şairi ve oyun yazarı Alexei Tolstoy'dur. 1922 yılında yazdığı "Aelita" romanıyla Sovyet edebiyatının temellerini attı. Bilim kurgu eserinin, yaratıldığı dönemin bilimsel bilgisi ve tarihi koşullarıyla ilgili olduğu bilinmektedir. Bu türün kendine has zorlukları var. Bunu ele alan yazarın, zamanının bilimsel bilgisini edinmesi, bilimsel keşif ve bulguların genel yönünü, teknik ilerlemeyi doğru anlaması ve ifade etmesi gerekiyordu.

Azerbaycanlı okurlar A. Tolstoy'un eserlerini çok iyi biliyorlar. 1930'lu yıllardan itibaren eserleri Azerice'ye çevrilerek yayımlandı. Beydulla. Musayev, yazarın "Birinci Pyotr" (1936) adlı romanını yazdı, Muhtar Hacıyev "Aelita" (1956) romanını yazdı, A.Memmedkhanlı roman-epik "Azablı yolarla" (1961), Asad Zeynalov "Nikita'nın Çocukluğu"nu, Mikayil Rzaguluzade Tolstoy'un ünlü bilim kurgu romanı "Mühendis Gary'nin Hiperboloidi"ni tercüme etti.

Adib'in bilim kurgu romanı "Aelita" gençler tarafından en çok okunan eserler arasında yer alıyor. Yazarın gücü, fantastik olay örgüsünü gerçek hayatla çok doğal ve özgün bir şekilde bağlayabilmiş olmasıdır. Romandaki olaylar gezegenimize çok uzak olan Mars'ta geçmiştir. Ancak yazar, romantik efsanevi olay ve karakterlerin modern yaşamı, hayalleri ve idealleriyle güçlü bir bağ kurmuştur. Aelita, Los ve Gusev gibi karakterler okuyucuların dikkatini geleceğe yöneltti ve onları büyük idealler uğruna mücadeleye yöneltti.

Alexey Tolstoy, ünlü bilim adamı ve fantezici K.E.Siolkovsky'nin çalışmaları ve uzay alanındaki diğer yeniliklerle tanışmayı başardı. Bu nedenle fantezilerindeki gerçeklik, karakterdeki renk ve karakterlerin hareketliliği güçlüdür. Bu bakımdan tüm Avrupalı ve Amerikalı öncüllerinden ciddi biçimde farklıydı. Ve ayrıca seleflerinin yüzeysel eğlencelere fazla eğilimli olmaları genç okuyucularda daha fazla paniğe ve korkuya neden oldu. A.Tolstoy'da fantezi ve onun kanatlarında gelişen olaylar, iyiyle kötünün mücadelesine odaklanmış, aşkın kudretli gücüne hizmet etmiş, hakikatin ve adaletin kutsanmasına ve bunun sonucunda hepsinde adalet kazanılmıştır.

**Anahtar kelimeler:** *halk figürü, yoksul, mücadele, Buratino, masal, itiraf, görüş, burjuva aydınları*

***ABSTRACT***

Russian-Soviet writer and public figure Alexei Nikolayevich Tolstoy is the author of a number of historical and science fiction novels, short stories, and stories. Alexey Tolstoy is one of the founders of Soviet literature. He was born in 1883 in Nikolayevsk (now Pugachev). Two poetry books, more than forty plays, and several novels are known to readers of A.Tolstoy's work. At the same time, the writer left his signature in the history of children's literature with interesting works. He is the author of the fairy tale "The Golden Key or the Adventures of Buratino". In his creativity, he was interested in Italian folk tales, and later preferred his original ideas and wrote a narrative about "The Golden Key or the Adventures of Buratino". One of the founders of the science fiction genre in the history of Russian literature is the great Soviet writer, poet and playwright Alexei Tolstoy. He laid the foundation of Soviet fiction with his novel "Aelita" written in 1922. It is known that the science fiction work was related to the scientific knowledge and historical conditions of the time of its creation. This genre has its own challenges. The author who addressed it was required to acquire the scientific knowledge of his time, to correctly understand and express the general direction of scientific discoveries and findings, technical progress.

Azerbaijani readers are well acquainted with the works of A.Tolstoy. Starting from the 1930s, his works were translated into Azerbaijani and published. Beydulla. Musayev wrote the writer's novel "Pyotr the First" (1936), Mukhtar Hajiyev wrote the novel "Aelita" (1956), A.Mammadkhanli translated the novel-epic "Azabli yolarla" (1961), Asad Zeynalov translated "Nikita's Childhood", Mikayil Rzaguluzade translated Tolstoy's famous science fiction novel "The Hyperboloid of Engineer Gary" in 1964.

Adib's science fiction novel "Aelita" is one of the most read works by young people. The power of the writer is that he was able to connect the fantastic plot with real life in a very natural and original way. The events in the novel took place on Mars, which is far from our planet. However, the author created a strong connection with the modern life, dreams and ideals of the romantic legendary events and characters. Characters such as Aelita, Los, and Gusev directed readers' attention to the future and mobilized them to fight for great ideals.

Alexey Tolstoy was able to get acquainted with the works of the famous scientist and fantasist K.E.Siolkovsky and other innovations in the field of space. Therefore, the reality in his fantasies, the color in the character and activity of the characters is strong. In this respect, he was seriously different from all his European and American predecessors. And also because his predecessors were too inclined to superficial entertainments, and caused more panic and fear in young readers. In A.Tolstoy, fantasy and the events taking place in its wings were focused on the struggle of good and evil, served the mighty power of love, the celebration of truth and justice, and as a result, justice won in all of them.

**Keywords:** *public figure, poor, struggle, Buratino , fairy tale, confession, opinion, bourgeois intellectuals*



**Giriş**

Rus-sovet yazıçısı və ictimai xadim Aleksey Nikolayeviç Tolstoy bir sıra tarixi həmçinin elmi-fantastik roman, povest, hekayələrin müəllifidir. Aleksey Tolstoy sovet ədəbiyyatının yaradıcılarından biridir. O, 1883-cü ildə Nikolayevsk şəhərində (indiki Puqaçov şəhərində) anadan olmuşdur. A.Tolstoyun yaradıcılığında iki şeir kitabı, qırxdan artıq pyes, bir neçə roman

oxucularına məlumdur. Eyni zamanda yazıçı, uşaq ədəbiyyatı tarixinə maraqlı əsərlərlə imzasını qoymuşdur. “Qızıl açar və ya Buratinonun sərgüzəştləri” nağılının müəllifidir. Yaradıcılığında italyan xalq nağıllarına maraq göstərmiş, sonradan öz, original ideyalarına üstünlük vermiş və “Qızıl açar və ya Buratinonun sərgüzəştləri” haqda rəvayət yazmışdır.

Əsərin əsas süjetini Buratino və onun dostlarının Karabas Barabas, Duremar, tülkü Alisa və pişik Bazilio ilə mübarizəsi təşkil edir. Qızıl açarı ələ keçirmək üçün gərgin mübarizə aparırlar. Bu açar Karabas Barabas üçün var-dövlət, onun yoxsullar üzərində hakimiyyəti deməkdir. Buratino, Karlo ata, pudel Artemon, Pyero və Malvina üçün isə azadlıq hər şeydən üstündür. Əsər xeyrin şər üzərində qələbəsi ilə sona çatır. Beləliklə kiçik oxucuların uzun zaman maraq dairəsində olan Buratina obrazı indinin özündədə oxunur və sevilir.

A.Tolstoy XIX əsr rus ədəbiyyatı ənənələrindən geniş bəhrələnmişdi. Onun yaradıcılıq yoluna çox sevdiyi yazıçı Qoqolun əhəmiyyətli dərəcədə təsiri olmuşdur. “Rastyoginin macərası”, “Portret” və başqa əsərlərin süjetlərinin quruluşunda Qoqol ənənələrini görmək mümkündür.

A.Tolstoy özünə qarşı çox tələbkar olmuş, əsərləri üzərində dönə-dönə işləmişdir. “Axmaqlar” romanının yalnız üçüncü redaktəsi müəllifi qane edə bilmişdir. “Nikitanın uşaqlığı” adlı avtobioqrafik əsərində müəllif, 1917-ci ildə Avropada mühacirət illərini qələmə almışdır. Yazıçı bu illəri ömrünün ən ağır dövrü adlandırmışdır. Mühacirət illərindən sonra A.Tolstoy daha böyük mövzular, problemlər üzərində işləmişdir. Uzun yaradıcılıqdan sonra müəllif, “Çörək” romanını yazmış, “Əzablı yollarla” trilogiyasının son iki hissəsini tamamlamışdır. 1929-cu ildə yenidən “Birinci Pyotr” mövzusuna qayıtmış və ömrünün axırına qədər bu əsər üzərində işləmişdir.

“Əzablı yollarla” tarixin ölümə məhkum etdiyi burjua dünyasına qarşı duran obrazlar silsiləsi – Katya və Daşa, Telegin və Roşin surətləri epik lövhələrlə verilmiş, müəllifin əsas düşüncəsi və qənaətlərinin düzgün ifadəsi qələmə alınmışdır. Ədib inqilabı boğmağa can atan əksinqilabçı cəbhənin və azadlıq axtaran burjua ziyalılarının ölümə məhkum olduğunu bədii lövhələrdə əks etdirmişdir. Beləliklə, yazıçı “Əzablı yollarla” trilogiyasında həyatın istiqamətverici və tərbiyəvi rolunu xalqla sıx əlaqədə, vəhdətdə təsvir etdiyi qəhrəmanlarının simasını ümumiləşdirə bilmişdir.



A.Tolstoy özünün nəzəri fikirlərindən birində etiraf etmiş ki, ədəbiyyatın indiki dövrdə mühüm vəzifəsi dövrümüzə layiq böyük insan obrazı yaratmaqdır. Yazıçı bu ədəbi-estetik tezisinə axıradək sadiq qalmışdır. Yaradıcılığının zirvəsi hesab olunan “Birinci Pyotr” tarixi romanı buna ən gözəl sübutdur. Romanda təsvir olunan Pyotr adamları əsil-nəcabətlərinə görə deyil, istedad və qabiliyyətlərinə görə qiymətləndirilmişdir. O, Avropanın mədəni ölkələri ilə əlaqə yaratmış, gəmi inşaatını, dənizçiliyi, ümumiyyətlə, elmləri inkişaf etdirmişdir. Müəllif göstərir ki, bu tərəqqini, əlbəttə, təkcə Pyotrun adı ilə məhdudlaşdırmaq düzgün olmaz. Bu yüksəliş, eyni zamanda, Rusiyanın tarixi inkişaf qanunauyğunluqları ilə bağlı olan bir proses idi. Pyotrun tarixi və mədəni islahatları, Sofyanın hakimiyyəti, knyaz Qolitsının Krıma yürüşü, Azov yürüşləri, Pyotrun Avropaya səfərləri, İsveçlə müharibə, Narva yaxınlığındakı qələbə və s. hadisələr romanın əsas mahiyyətini təşkil etmişdir. Baş qəhrəmanın həyatı, ictimai fəaliyyəti əsərdə Rusiyanın tarixi ilə sıx əlaqədə təsvir olunmuşdur.

Beləliklə, “Birinci Pyotr” tarixi romanında A.Tolstoy Pyotrun hakimiyyəti dövrünün bədii salnaməsini sənətkarlıqla yarada bilmişdir. Maksim. Qorkinin fikriilə desək, bu roman realizmin görkəmli nümunəsi, “uzun ömürlü kitab” kimi qiymətlidir. Rus xalqının böyük vətənpərvəri olan A.Tolstoy Azərbaycan oxucuları üçün də doğmadır. Onun zəngin ədəbi irsinə 30-cu illərdən başlayaraq böyük maraq yaranmışdır. 1936-cı ildə ədibin məşhur “Birinci Pyotr”

romanı Beydulla Musayevin tərcüməsində çapdan çıxmış və mətbuatda mühüm ədəbi hadisə kimi qiymətləndirilmişdir.

Rus ədəbiyyatı tarixində elmi-fantastik janrın yaradıcılarından biri böyük sovet yazıçısı, şair və dramaturq Aleksey Tolstoydur. O, 1922-ci ildə yazdığı "Aelita" romanı ilə sovet fantastikasının əsasını qoymuşdur. Məlumdur ki, elmi-fantastik əsər öz yarandığı dövrün elmi bilikləri və tarixi şəraitilə bağlı olmuşdur. Bu janrın özünəməxsus çətinlikləri vardır. Buna müraciət edən müəllifdən zəmanəsinin elmi biliklərinə yiyələnmək, elmi kəşflərin və tapıntıların, texniki yüksəlişin ümumi istiqamətini düzgün dərk və ifadə etmək tələb olunurdu.

Azərbaycan oxucuları A.Tolstoyun əsərləri ilə yaxşı tanışdırlar. 1930-cu illərdən başlayaraq onun əsərləri Azərbaycan dilinə tərcümə edilmiş və çap olunmuşdur. Beydulla. Musayev yazıçının "Birinci Pyotr" romanını (1936), Muxtar Hacıyev "Aelita" romanını (1956), Ə.Məmmədxanlı "Əzablı yollarla" roman-epopeyasını (1961), Əsəd Zeynalov "Nikitanın uşaqlığı" əsərini, Mikayıl Rzaquluzadə Tolstoyun məşhur "Mühəndis Qarinin hiperboloidi" elmi-fantastik romanını 1964-cü ildə tərcümə etmişdir.

Ədibin "Aelita" elmi-fantastik romanı da gəncliyin ən çox mütaliə etdiyi əsərlərdən biridir. Yazıçının qüdrəti bundadır ki, fantastik süjeti real həyatla çox təbii və orijinal şəkildə əlaqələndirə bilmişdir. Romandakı hadisələr planetimizdən çox uzaq olan Marsda cərəyan etmişdir. Lakin müəllif romantik əfsanəvi hadisə və xarakterləri insanların müasir həyatı, arzu və idealları ilə möhkəm bağlılıq yaratmışdır. Aelita, Los, Qusev kimi obrazlar oxucuların diqqətini gələcəyə yönəltmiş, böyük ideallar uğrunda mübarizələrə səfərbər etmişlər.

A.Tolstoyun sosialist platformasına yaxınlaşmasında mühüm rol oynamış M.Qorki "Aelita" əsərinin məzmunu ilə tanış olduqdan sonra yazırdı: "Tolstoyun Mars hadisələrindən bəhs edən əsəri "ehtiyacdan" yox, bu cür ədəbi romanlara maraq gücündən, sensasiyadan doğmuşdur. Bu saat Avropada bu məsələlərə çox maraq göstərirlər. Məişət təsvirindən, psixoloji məsələlərdən cana doymuşlar. Rus məişətinə isə başqa münasibət vardır, o, camaatı maraqlandırır. Bu böyük xalq – ruslar çox qeyri-adi yaşayırlar".



Aleksey Tolstoy məşhur alim və fantast K.E.Siolkovskinin əsərləri ilə və kosmos sahəsindəki digər yeniliklərlə yaxından tanış ola bilmişdi. Buna görə də onun fantaziyalarındakı reallıq, obrazların xarakter və fəaliyyətindəki kolorit güclüdür. Bu cəhətdən o, bütün Avropa və Amerika sələflərindən ciddi şəkildə fərqlənirdi. Həm də ona görə ki, onun sələfləri zahiri əyləncələrə çox meyil etmiş, gənc oxucularda daha çox vahimə, qorxu hissi oyatmışdılar. A.Tolstoyda isə fantaziya və onun qanadlarında baş verən hadisələr xeyir və şərin mübarizəsinə yönəldilmiş, məhəbbətin qadir gücünə, haqq və ədalətin təntənəsinə xidmət etmiş, nəticə etibarilə hamısında ədalət qələbə çalmışdır.

Avropa və Amerikanın fantastik yazıçıları qeyri-adi maşınları, mexanizmləri fövqəlbəşər, ondan istifadə edən insanları isə bir qədər anormal şəkildə təsvir etmişlər. A.Tolstoy bunların heç birini qəbul etməmişdir. O, mövcud ənənəni tamam vurub dağıtmış, əsas diqqət mərkəzinə qeyri-adi maşınları yox, onları yaradan insanın özünü çəkib gətirmiş, onları güclü, yenilməz, bütün maneələrə üstün gəlməyi bacaran, insan azadlığı üçün özünü fəda etməkdən qorxmayan, pul hərisliyinə, dünya ağalığına nifrət edən qəhrəman kimi təsvir etmişdir. Buna görə də "Aelita" əsərində fantastika təkcə süjet xəttini bəzəməyə yox, həm də gələcəyin ictimai-siyasi konsepsiyasını müəyyənləşdirməyə xidmət etmişdir.

Təsadüfi deyildir ki, romanın əsas ideyası, fəlsəfi mahiyyəti, bədii pafosu aydın zəkaya, humanist düşüncələrə malik olan yeni insanın təsdiqinə yönəldilmişdir. Ona görə də ilk sovet fantastik əsərinin baş qəhrəmanı sosialist inqilabının mübariz keşikçisi və müdafiəçisi, qızıl əsgər Aleksey İvanoviç Qusevdir. O, istismar zəncirini qırıb azadlığa çıxmış doğma xalqının

bütün xarakterik cəhətlərini özündə birləşdirmiş, milli koloritli bir inqilabçıdır. İnsanın insan tərəfindən istismarına o dözə bilməmiş, sosialist inqilabının əhəmiyyətini başa düşmüş və ona bütün varlığı ilə sədaqət göstərmişdir. Qusev qoçaq, səxavətli, demokratik əhvali-ruhiyyəli bir gənc idi. Uşaqlıqdan öz zəhməti ilə böyümüş, on səkkiz yaşından orduya xidmətə getmiş, inqilabçı əsgərlər tərəfindən çar hakimiyyətinə qarşı vuruşmuş, dörd sovet respublikasının təşkilində bilavasitə iştirak etmiş, polyakları Kiyevdən, ağqvardiyaçıları Krımdan qovub çıxartmışdır. Üstəlik savadlıdır, maşından başı çıxır, təyyarədə uçmuşdur. Döyüşdə yaralandığı üçün ehtiyata göndərilmiş, ata-anası öldüyünə, qardaşları həlak olduğuna görə kəndə qayıtmaq istəməmişdir. Eşidəndə ki, mühəndis Los, Marsa uçmaq üçün kosmik gəmi hazırlayıb, Qusev, Losla görüşmüş onunla birgə Marsa uçmağı təklif etmişdir. Bu təklifi qəbul edən Los, Qusevlə birgə Marsa uçmaq planını həyata keçirmişdir.

A.Tolstoy hadisələri Marsa aparıb çıxartsa da, yer üzündə onu narahat edən məsələlərdən danışmış, inqilab qəhrəmanlarının fəaliyyət dairəsini genişləndirmiş, xarakter cizgilərini bədii şəkildə əks etdirmişdir. Fantastik yol yazıçı üçün məqsədə yox, vasitəyə çevrilmişdir.

A.Tolstoy "Aelita" romanından sonra 1926-cı ildə "Mühəndis Qarinin Hiperboloidi" adlı ikinci fantastik romanını yazmışdır. Yazıçı bütün sonrakı on il ərzində əsərə dəfələrlə əl gəzdirmiş, əlavələr etmiş və təkmilləşdirilmiş son variantını 1939-cu ildə çap etdirmişdir. "Mühəndis Qarinin Hiperboloidi" romanı bu janrın tələb və prinsiplərinə layiqincə cavab vermişdir. Əsərdə mühüm hadisələr Qarinin ətrafında cərəyan etmiş, məhvedici şüasaçan aparat kəşf etməklə mühəndis Qarin hamının diqqətini özünə cəlb etmişdir. Bütövlükdə əsər hər cür vəhşiliyə, müharibəyə qarşı çevrilmişdir.

Sovet hakimiyyətinin ilk illərində Oktyabr sosialist inqilabının nəticələrindən narazı qalan keçmiş mühəndis Qarin məşhur alim Nikolay Xristoforoviç Mantsevin fikirlərini mənimsəmiş, layihəsini oğurlamış, Yerin helium qurşağına düşə biləcək şüa toplayan hiperboloid hazırlamışdır. O, elmin, zəkanın məhsulunu insanlığa, yeni cəmiyyət inkişafına sərf etmək əvəzinə dünya ağalığı iddiasına düşmüş, böyük faciələrə, insan təlafatlarına səbəb olmuşdur. "Aelita" da olduğu kimi, burada da elmi fantaziya sovet varlığı, sovet xalqının sülhsevər siyasəti və əmək rəşadəti ilə bağlı olmuşdur. Yazıçı macəra janrının tələblərinə uyğun olaraq qəhrəmanı macəralar burulğanında gəzdirsədə, real varlıqdan, müasir problemlərdən uzaqlaşmamış, faşizmə açıq eyhamlar etmişdir.



A.Tolstoy "Qızıl adası"nda Qarinin səltənətini faşist diktaturası adlandırmışdır. Çünki dünyanın hər yerindən bura zorla altı min adam gətirilmiş və ağır işə məcbur edilmişdir. Qarinin özünə köməkçi təyin etdiyi Çermak on beş nəfərdən ibarət cəllad dəstəsi düzəldərək insanlara ağır işgəncələr vermişdir. Keçmiş Vrangel zabitləri də bura cəlb olunmuşdu. Fiziki cəza, kötək zərbəsi, dəhşətli istismar baş alıb getmişdi. Ona görə də "Qızıl adası"nı "Yaramazlar adası" adlandırmışdılar. Hadisələrin bütün inkişafı prosesində sovet adamı, sovet xarakteri, proletar məfkurəsi hiss edilmiş, sinfi şüur, sinfi mübarizə özünü aydın şəkildə büruzə vermişdir. Roman indi də özünün bəşəri mahiyyətini, siyasi kəskinliyini itirməmiş, dünyanı qan dənizində boğmaq istəyənlərə, kütləvi qırğın silahına əl atanlara ibrət dərsi kimi səslənmişdir.

Ədibin II Dünya müharibəsi dövründə yazdığı bir çox elmi-publisist oçerkləri, siyasi pamfletləri özünün humanizmi, beynəlmiləlçilik ruhu ilə Azərbaycan oxucularının da diqqətini cəlb etmişdir. Bu illərdə Azərbaycan mətbuatında ədibin "Biz nəyi müdafiə edirik", "Düşmən Moskvanı hədələyir", "Nə üçün Hitler məğlub olmalıdır?", "Hitler kimdir və nə istəyir?", "Hitler ordusunun qara günləri" və s. yazıları dərc olunmuşdur.

Rus xalqının unudulmaz yazıçısı 3 dəfə Stalin mükafatı laureatı (1941, 1943, 1946) olaraq represiya qurbanlarından olmamışdır. Aleksey Tolstoy xalq həyatından gələn koloritli bir dillə,

sadə, dolğun dialoqlarla, rus uşaqlarının taleyindən bəhs edən dinamik əsərlər müəllifi olaraq, böyük bir yaradıcılıq yolu keçmişdir.

Lakin 1945-ci ildə ağır xəstəliyin verdiyi əzablardan sonra Moskva şəhərində vəfat etmişdir.

**ƏDƏBİYYAT**

1. Aleksey Tolstoy, "Aelita Roman".  Bakı- Uşaqgəncnəşr, 1956. -202 s

2. Aleksey Tolstoy, " Əzablı yollarla"  trilogiya. I və II kitab. Bakı-Azərbaycan Dövlət Nəşriyyatı, 1961. -694 s.

3. Aleksey Tolstoy, "Mühəndis Qarinin hiperboloidi. Aelita" Roman-orta və yuxarı yaşlı məktəblilər üçün. Bakı- Gənclik, 1988. -369 s.

# THE HISTORICAL ROLE OF SULTAN MAJID GANIZADE IN THE NEW PHASE OF AZERBAIJAN EDUCATION (1890-1930)

# AZƏRBAYCAN TƏHSİLİNİN YENİ MƏRHƏLƏSİNDƏ SULTAN MƏCİD QƏNIZADƏNİN TARİXİ ROLU (1890-1930)

**Aygun Ahmadova Shukur kızı**

**Azerbaycan Devlet Pedagoji Üniversitesi (Ü. Hacıbeyov-68), 0000-0002-2464-2513**

**Aygün Ahmadova, Edebiyat Öğretim Teknolojileri Bölümü Doçenti**

***ÖZET***

Azerbaycan çocuk edebiyatının oluşum ve oluşum tarihi son iki yüzyılı kapsasa da ona gösterilen ilgi ve ilgi her zaman ön planda olmuş, edebiyatımızın tüm dönemlerini kapsamış, hem edebiyatta hem de edebiyatta ilginç sayfalarla anılmıştır. büyük edebiyatı ve çocuk edebiyatında. Sultan Mecid Ganizade, 19. yüzyılın sonu ve 20. yüzyılın başında Azerbaycan'da ilerici pedagojik hareketin ana temsilcilerinden biriydi. Eğitimde "modern-modern" hareket olan yeni ideolojik öğretmen neslinin liderlerinden biri olarak kabul edildi.

Sultan Mecid Ganizade, Nisan 1866'da Şamahı'da doğdu. Kendisine Rus dilini öğrenme hedefini koyarak, Rus halkının tarihini ve Rus yazarların yaratıcı yolunu takip ederek mükemmel bilgi edindi. 1883 yılında Sultan Majid Ganizade, Tiflis'teki Aleksandrovsky Öğretmenler Enstitüsü'ne girdi. Bu enstitü 50 yıldır çevre illerdeki şehir okullarına öğretmen yetiştiriyor. Yakın arkadaşı Habibbey Mahmudbeyov ile birlikte 1887 yılında Bakü'ye gelerek "Rus-Azerbaycan okulunu" kurdular. Azerbaycan eğitiminin yeni bir aşaması sayılan bu başarılı faaliyet, yeni eğitim kurumlarının oluşmasına yol açtı.

Sultan Mecid Ganizade'nin ilk oyunu "Gonça Hanım"dır. Ancak çalışmayla ilgili herhangi bir bilgi bulunmuyor. Sultan Mecid, Rus yazarlardan yaptığı çevirilerin yanı sıra halk masallarından yola çıkarak çocuklara yönelik manzum hikâyeler de yazmıştır. En meşhur eseri "Maktubati-Şeyda Bey Şirvani"dir. Aslında biyografik bir çalışma. Romanın tüm içeriği eserin başkarakteri Şeyda Mesihzade'nin günlüklerinden oluşmaktadır. Araştırmacılara göre Şeyda Bey, Ganizade'nin kendisidir. Bu çalışma "Öğretmenlerin Gururu" ve “Gelinler” romanlarından oluşmaktadır. Azerbaycan edebiyatı tarihinde ilk diyalog sayılan bu eser bir nevi didaktik eserdir. Aynı zamanda 1893 yılında ilk mizahi manzum çocuk hikâyesi olan “Tilki ile Çağcağbey” ve masal şiiri olan “Zalımam hay, zalımam” (1921) adlı şiirin yazarıdır. Yazar her iki eserin konusunu da folklordan almıştır. Bu eserlerin her ikisi de çocuklarda nezaketi, bilgi arzusunu ve diğer duyguları geliştirir. Çocuk psikolojisi, algılama ve anlama özellikleri konusunda iyi bir bilgi birikimine sahip olan yazar, eserin çocukların kolay anlaması için çift tekerlemelerden yoğun bir şekilde yararlanarak gerçek hayattan sahneler oluşturmuştur.

Sultan Majid Ganizadeh büyük bir eğitimci, söz, fikir ve eylem adamı, dilbilimci, Metodist bilim adamı, 19. yüzyılın sonları ve 20. yüzyılın başlarındaki tanınmış edebi ve sosyal-politik şahsiyetti. Hak âlemine katılmasının üzerinden uzun yıllar geçmesine rağmen o, eserleriyle, yaptıklarıyla ve parlak fikirleriyle bugün hâlâ yaşamaktadır. Azerbaycan'da modern mektep

hareketinin kurucusu, eşsiz bir müjdeci, büyük bir eğitimci olan Sultan Mecid Ganizade'nin adı ve eserleri her zaman yaşayacaktır.

S.M. Ganizade 1937 baskılarının kurbanıydı.

**Anahtar kelimeler:** *ilköğretim, eğitim, ilerleme, yöntem, yetişme, entelektüel, genç, fikir*

***ABSTRACT***

Although the history of the formation and formation of Azerbaijani children's literature covers the last two centuries, the attention and interest shown to it has always been at the forefront, covering all periods of our literature, and it has been remembered with interesting pages, both in its great literature and in children's literature. Sultan Majid Ganizadeh was one of the main representatives of the progressive pedagogical movement in Azerbaijan at the end of the 19th and the beginning of the 20th century. He was considered one of the leaders of the generation of new ideological teachers, the "modern-modern" movement in education.

Sultan Majid Ganizade was born in April 1866 in Shamakhi. Having set himself the goal of learning the Russian language, following the history of the Russian people and the creative path of Russian writers, he acquired excellent knowledge. In 1883, Sultan Majid Ganizade entered the Alexandrovsky Institute of Teachers in Tbilisi. For 50 years, this institute has trained teachers for urban schools in nearby provinces. Together with his close friend Habibbey Mahmudbeyov, they came to Baku and founded the "Russian-Azerbaijani school" in 1887. This successful activity, considered a new stage of Azerbaijani education, led to the creation of new educational institutions.

Sultan Majid Ganizade's first play is "Goncha Khanum". However, there is no information about the work. Along with his translations from Russian writers, Sultan Majid also wrote verse stories for children based on folk tales. His most famous artistic work is called "Maktubati-Sheyda Bey Shirvani". In fact, it is a biographical work. The entire content of the novel consists of the diaries of the main character of the work, Sheyda Mesihzade. According to the researchers, Sheyda Bey is Ganizade himself. This work consists of the novels "Teachers' Pride" and "Bridesmaids". This work, considered the first dialogue in the history of Azerbaijani literature, is a kind of didactic work. At the same time, he was the author of the first humorous verse children's story "Fox and Chagjagbey" in 1893 and the fairy tale poem "Zalımam hay, zalımam" (1921). The author took the subject of both works from folklore. Both of these works cultivate kindness, desire for knowledge and other feelings in children. The author, who has a good knowledge of children's psychology, his perception and understanding features, has created real life scenes by making extensive use of double rhymes for easy understanding of the work by children.

Sultan Majid Ganizadeh was a great educator, man of words, ideas and deeds, linguist, Methodist scientist, well-known literary and social-political figure of the late 19th-early 20th century. Although many years have passed since he joined the world of truth, he still lives today in his works, deeds and brilliant ideas. The name and deeds of Sultan Majid Ganizade, the founder of the modern school movement in Azerbaijan and an incomparable herald, a great educator, will always live on.

S.M. Ganizade was a victim of the repressions of 1937.

**Keywords:** *elementary, education, progress, method, upbringing, intellectual, young, idea*

*Sultan Məcid Qənizadənin əsərlərində zəmanənin nəbzi vururdu. O, həmişə zəruri problemlər irəli sürür və nəcib əxlaqi keyfiyyətlər təbliğ edirdi. Buna görə də əsərləri ədəbi ictimayyətin nəzərini cəlb edir, yaradıcılığı müasirləri tərəfindən yüksək qiymətləndirilirdi.*

***Xeyrulla Məmmədov***

Azərbaycan uşaq ədəbiyyatının təşəkkülü və formalaşması tarixi son iki əsri əhatə etsə də, ona göstərilən diqqət və maraq həmişə öndə olmuş, ədəbiyyatımızın bütün dövrlərini əhatə edərək, istər böyük ədəbiyyatında, istərsədə uşaq ədəbiyyatında maraqlı səhifələri ilə yadda qalmışdır. Sultan Məcid Qənizadə XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycandakı mütərəqqi pedaqoji hərəkatın əsas nümayəndələrindən biri idi. Yeni məfkurəli müəllimlər nəslinin, təhsildəki «üsuli-cədid» hərəkatının öndə gedənlərindən biri sayılırdı.

Sultan Məcid Qənizadə 1866-cı ilin aprel ayında Şamaxıda anadan olub. Rus dilini öyrənməyi qarşısına məqsəd qoyaraq, rus xalqının tarixini və rus ədiblərinin yaradıcılıq yolunu izləyərək, mükəmməl biliyə sahib olmuşdur. Sultan Məcid Qənizadə 1883-cü ildə Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutuna daxil olmuşdur. Bu institut 50 il müddətində yaxın vilayətlərin şəhər məktəbləri üçün müəllim kadrları hazırlamışdır. Yaxın dostu olan Həbibbəy Mahmudbəyovla birlikdə Bakıya gələrək 1887-ci ildə "Rus-Azərbaycan məktəbi" adlı ibtidai təhsil ocağının yaradıcısı oldular. Azərbaycan maarifinin yeni mərhələsi sayılan bu uğurlu fəaliyyət yeni təhsil ocaqlarının yaradılmasına səbəb oldu.

Sultan Məcid Qənizadənin ilk pyesİ “Qönçə xanım” əsəridir. Lakin əsər haqqında məlumat yoxdur. Rus ədiblərindən etdiyi tərcümələrlə yanaşı, Sultan Məcid xalq nağılları əsasında uşaqlar üçün mənzum hekayələr də yazmışdır. Ən sanballı bədii əsəri isə “Məktubati-Şeyda bəy Şirvani” adlanır. Əslində bu, bioqrafik bir əsərdir. Romanın bütün məzmunu əsərin baş qəhrəmanı Şeyda Məsihzadənin gündəliklərindən ibarətdir. Tədqiqatçıların fikriycə Şeyda bəy elə Qənizadənin özüdür. Bu əsər «Müəllimlər iftixarı» və «Gəlinlər həmayili» romanlarından ibarətdir. Azərbaycan ədəbiyyatı tarixində ilk dilogiya sayılan bu əsər bir növ didaktik əsərdir. Eyni zamanda ədib, 1893-cü ildə “Tülkü və Çaqcaqbəy” adlı ilk yumoristik mənzum uşaq hekayəsinin və «Zalımam hay, zalımam» (1921) adlı nağıl-şeirinin müəllifidir. Müəllif hər iki əsərin mövzusunu xalq folklorundan almışdır. Bu əsərlərin hər ikisi uşaqlarda xeyirxahlıq, biliyə həvəs və sair hisslər tərbiyə edir. Uşaq psixologiyasını, onun qavrama, dərk etmə xüsusiyyətlərini gözəl bilən müəllif, uşaqların əsəri asan qavraması üçün qoşa qafiyələrdən geniş istifadə edərək real həyat səhnələri yaratmışdır.

Sultan Məcid Qənizadə, 1894-cü ildə böyük rus yazıçısı Lev Tolstoyun “Əvvəlinci şərabçı” pyesini tərcümə etmiş, həmin ilin may ayında Bakıda tamaşaya qoymuşdur. Bu da Azərbaycan teatrı tarixinə rus dramaturgiyasının ilk tamaşası kimi daxil olmuşdur.

S.M.Qənizadə məktəb və təhsil islahatının irəliləyişi naminə böyük işlər görmüşdür. Avropa tipli təlim metodlarını və tərbiyə vasitələrini ilk dəfə Azərbaycanın məktəb həyatına tətbiq edənlərdən birincisi oldu. Məktəblilər üçün dəyərli, müasir mündəricəli dərsliklər yazaraq, həm məktəblər üçün, həm də oxucu kütləsi üçün lüğətlər, rusca-azərbaycanca danışıq kitabları tərtib edən maarifçi ziyalı idi. Yalnız məktəbdə deyil, teatr, qiraətxana-kitabxana yaratmaqla, həmçinin mətbuat vasitəsilə böyüməkdə olan gənc nəslin tərbiyəsi qayğısına qalırdı. Uşaqlar üçün dəyərli əsərlər yazaraq, mütaliə kitabları çap etdirdi. Bir inspektor kimi Qafqaz müsəlmanlarına aid məktəblərdə maarifin yüksəlməsi, uşaqların daha səmərəli təhsil alması üçün, təlimin məzmunca təkmilləşdirilməsi və yeniləşməsi uğrunda mübarizə aparan ziyalılarımızdan olmuşdur. Proqramların, dərs vəsaitlərinin, metodiki tövsiyələrin hazırlanmasında, təcrübə dərslərinin keçilməsində məsləhətçi kimi fəaliyyəti danılmazdır.

S.M.Qənizadə Azərbaycan xalqının məktəb və təhsilinə əvəzsiz xidmətlər göstərmiş savadlı vətəndaşların yetişməsində heç kəslə müqayisə oluna bilməyəcək qədər səmərəli işlər görmüşdür. Təhsilimizidə olan yeniliklərin və onun bünövrəsini qoyanlardan biri olan S.M.Qənizadə fəaliyyətini qiymətləndirməmək mümkün deyil.

Ədibin fəaliyyəti XX əsrin əvvəllərində Azərbaycanda məktəb təhsilinin və pedaqoji fıkrin inkişafı tarixi təşkil edir. Yaradlcılığında təhsil-tərbiyə məsələləri dövri mətbuatın maraq dairəsində idi. Azərbaycan maarifçilər nəslinin nümayəndəsi olan bu şəxsiyyət xalqın savadlanması, dövrün mütərəqqi ideyaları ilə tanış olmaları üçün mətbu orqanın imkanlarını alqışlayırdı.

Maarifçi ziyalının dərsliklərindən biri də həmkarı, o dövrün mədəni pedaqoji mühitində nüfuzlu bir müəllim kimi yaxşı tanınan Əliskəndər Cəfərzadə ilə birlikdə tərtib etdiyi «Kilidi-ədəbiyyat» məcmuəsidir. Müntəxabat tipli bu təlim kitabın ərsəyə gəlməsi təsadüfi deyildi. Kitab, "rus-müsəlman" məktəblərində tədris olunan "fars dili" fənninin öyrədilməsinə yaranan ehtiyacla bağlı meydana gəlmişdi. "Kilidi-ədəbiyyat" Azərbaycanda meydana gəlmiş və işıq üzü görmüş müasir məzmunlu ilk fars dili dərsliyi idi. «Kilidi-ədəbiyyat» peşəkar müəllimlər tərəfindən hazırlandığından bir müntəxabat-dərslik kimi pedaqoji və metodiki cəhətdən lazımi tələblərə uyğunlaşdırılmışdı. Onun tərtibi zamanı aşağıdakı zəruri cəhətlər nəzərə alınmışdı:

1. materialların seçimində onların müasir şagird üçün faydalı olub olmaması, məzmun, ideya, tərbiyəvi fikir, təlim baxımından nə qədər dəyər kəsb etməsi;

2. seçilən materialların həcmi;

3. şagirdlərin yaş və bilik səviyyəsinə uyğunluğu;

4. fars dilini öyrənmək mənasında dil və üslub baxımından faydalı olması.



Kitab ibtidai məktəb şagirdləri üçün nəzərdə tutulduğundan əsərlərin həcm baxımından yığcamlığına, fikrin aydınlığına, məktəblilərin maraq dairəsinə uyğunluğuna diqqət yetirilmişdi. Məqsəd həm şagirdlərə fars dilini öyrətmək, həm də onları şərq və Azərbaycan ədəbiyyatının bəzi klassikləri, folklor və yazılı ədəbiyyat nümunələri ilə tanış etmək, nəhayət, böyüməkdə olan nəslin müsbət mənəvi-əxlaqi ruhda, tərbiyəvi xarakterdə böyüməsinə yardım göstərmək idi.

Dərslikdə göstərilən pedaqoji və metodiki mətləblər maraqlı şəkildə şərh olinmuşdur. Müntəxabata daxil edilən materiallar, əsasən, kiçik həcmli bədii əsərlərdən, nəsr və poeziya nümunələrindən ibarətdir. Bununla belə bəzi şərq mütəfəkkirlərinin həyatı barədə də qısa məlumatlar verilir. Dərslik nəsr və poeziya hissədən ibarətdir. Dərslikdə, əvvəlcə nəsr, sonra şeir nümunələri verilir. Nəsr hissəsində kiçik həcmli lətifələr, hekayətlər, rəvayətlər, təmsillər və s. yer alır. Bunlar Azərbaycan və şərq xalqlarının folklor və yazılı ədəbiyyatından, ayrı-ayrı görkəmli tarixi şəxsiyyətlərin həyatından alınmış ibrətamiz, tərbiyəvi ruhlu örnəklərdir. Şeir nümunələri isə Firdovsi, Nizami, Sədi, Hafiz, Cəlaləddin Rumi və s. şərq şairlərinin yaradıcılığından götürülmüşdür.

Uşaqların yaş və anlam səviyyəsinə müvafiq seçilmiş əsərlərdə cəhalət, elmsizlik, maarifsizlik, nadanlıq, vəfasızlıq, düşüncəsizlik, bədxahlıq, acgözlük, tənbəllik, nəzakətsizlik, ədalətsizlik, qəddarlıq və s. qeyri-insani sifətlər pislənilir. Elmin, maaarif və məktəbin əhəmiyyəti aydınlaşdırılır. Xeyirxahlıq, sədaqət, böyüyə və valideynlərə hörmət, ədalət, səxavət, diribaşlıq, zirəklik, hazırcavablıq, əməksevərlik, düzlük, halallıq, Tanrı hikmətinə inam, etiqadlı olmaq və s. mənəvi-əxlaqi keyfiyyətlər təbliğ edilir. Ümumiyyətlə, tərbiyəvi-didaktik fikir dərslikdəki əsərlərin əsas ideyasıdır.

S.M.Qənizadənin pedaqoji irsinə daxil olan təlim kitablarından biri də "Əlifbayi-mütəhərrikə" ("Kəsmə əlifba", "Hərəkət edən əlifba") adlı əlifba dərsliyi olmuşdur. Bu ənənəvi əlifba kitablarından fərqli olaraq müəllifin özü tərəfindən düşünülmüş, taxta kəsimlərdən ibarət hazırlanmış həriflər və rəqəmlər əyani vəsait kimi, dərs zamanı uşaqların qavram səviyyəsində çox rolu olmuşdur. Bu əyani vəsaitlər, məktəbə yenicə gedən uşaqların ərəb əlifbasını tez və asan öyrənməsi üçün nəzərdə tutulmuşdu. Beləliklə, S.M.Qənizadənin "İstilahi Azərbaycan", "Rus dilinin dilmancı", "Rus dilinin müəllimi", "Kilidi-ədəbiyyat", "Lüğəti-türki və rusi", "Lüğəti rusi və türki", "Əlifbayi-mütəhərrikə" kimi pedaqoji əsərləri məktəb və təhsil tariximizdə böyük dəyərə malikdir. Azərbaycan ziyalılarının bütöv bir nəsli müxtəlif zamanlarda bu kitablardan faydalanmışlar.

S.M.Qənizadənin yaradıcılığında "tərbiyə məsələləri" xüsusi mövzu olaraq seçilir. Azərbaycanın maarif və pedaqoji fikir tarixində müəllim və onun şəxsiyyəti barədə geniş söz açan, ona xüsusi dəyər verən ziyalılarımızdan biri də S.M.Qənizadə olmuşdur. O, bir müəllim kimi bu sənətin ağırlığını, çətinliyini, bir maarifçi kimi şərəfini, bir ziyalı kimi səmərəsini, uzaqgörən bir vətəndaş və millət xadimi kimi xalqın gələcəyi yolundakı faydasını aydın surətdə dərk edirdi. Bunu onun istər bir peşə sahibi kimi pedaqoji fəaliyyəti, istərsə də əsərlərindəki nəzəri mülahizələr baxışları sübut edirdi. S.M.Qənizadənin həm "Məktubati-Şeyda bəy Şirvani" adlı əsərində, xüsusilə də onun "Müəllimlər iftixarı" adlanan birinci hissəsində, həm də publisistik məqalələrində müəllim və onun şəxsiyyəti ilə bağlı kifayət qədər aydın, əhatəli fikir və qənaətlər vardır. Həqiqətən də, «Müəllimlər iftixarı» əslində S.M.Qənizadənin pedaqoji həyat yoludur. Burada maarifpərvər ədibin cəhalətə qarşı mübarizədə xalqın maariflənməsi yolunda müəllimin və məktəbin rolu, mühitin, ailənin uşaq tərbiyəsinə təsiri, gənc nəslin düzgün tərbiyəsi məsələləri haqqındakı fikirləri verilmişdir». Müəllifin fikrincə, müəllimin ilk keyfiyyəti mərifət sahibi olmaqdır. Bu Allah tərəfindən insana verilən ali bir nemətdir və mərifət sahibi olmadan əsl müəllim olmaq mümkün deyil.



S.M.Qənizadəyə görə əsl müəllim daim öz şagirdlərinin qayğıları, dərdi, problemləri ilə yaşamalıdır. Onun beyninə həkk olunan səs məktəb zəngi kimi həmişə onu qəflətdən oyatmalı, dərsə, öz şagirdlərinə elm öyrətməyə təşviq etməlidir. Belə bir müəllim nümunəsi olan Şeyda bəy öz əməlləri və düşüncələri ilə daim şagirdləri ilə birlikdədir. Hətta o, yatanda da sinif otaqlarını, otaqdakı şagirdlərini düşünür. Səfərə çıxdığı üçün müvəqqəti olaraq məktəbdən uzaqlaşan Şeyda bəy hər gün dərs başladığı vaxt, yəni səhər saat 8-də yuxudan oyanır. Bu hal onda bir vərdiş halına çevrilmişdir. Bir «sədayi-batini» ona deyir: "… nə yatıbsan, ayıl! Saat səkkizdir, iki yüz şagird dərs otaqlarında müntəzir dayanıb səni gözləyirlər!..." .

S.M.Qənizadə müəllimlik peşəsini bağbanın işi ilə müqayisə edir. Göstərir ki, bağ bağbanın qulluğuna möhtac olub qulluqsuz bar-bəhrə, gül-çiçək vermədiyi kimi müəllimsiz də «aləm evi» viranəyə bənzəyər, bəşəriyyət tərəqqi, fəzilət və elm tapa bilməz. Ona görə də müəllimlik bütün məşğuliyyətlərdən, hətta insana milyonlarla pul, sərvət gətirən fəaliyyət növlərinin, peşələrin hamısından uca və şərəflidir. Pedaqoqun fikrincə: "Müəllimin evi məktəbxanadır, müəllimin təvabe və ətabiri cocuq-şagirdlərdir. Müəllimin istirahəti dəftərlər və kitablarıdır. Müəllimin mal və mətaı dərs və təlimdir. Müəllimin kəsb və icrəti öz millətinin məhəbbət və iradətidir». Şeyda bəy müəllimlik sənəti ilə fəxr edir, onu hər cür mal-dövlətdən, pul və sərvətdən üstün sayır. Onun qənaətinə görə hər kəs öz mal və dövlətindən zəkat verər. "Əhli-maarif zümrəsindən» olan müəllimin zəkat verəcəyi hədiyyəsi də kitab ola bilər. Kamil, mənəviyyatlı insanın nəzərində bundan böyük hədiyyə ola bilməz. S.M.Qənizadə Şeyda bəyin dili ilə müəllim barədə öz baxışlarını belə ifadə edir: "Mənim rəy və təsəvvürümə görə müəllim dediyimiz zat mərifət kütləsinin dərbanı və nicat yolunun rəhbəridir. Elə rəhbər ki, məktəbxana astanasında hidayət məşələsi sancıb əbərayi-ruzigar xidmətinə gecə və gündüz amadə dayanarkən hər bir təvəllayə gələn körpə üçün səngin təlim qapısını iradət zoru ilə açıb nicat

yolunu nişan verir". Müəllif tərbiyə və təhsil arzusu ilə məktəbə qədəm qoyan şagirdləri cəhalət yolunda ayaqlarına çöp, tikan batıb yaralayan şikəstlərə bənzədir. Onları bu yolda sağaldacaq, yolun tikanını, çöpünü təmizləyəcək yeganə varlıq müəllimdir. Müəllim isə bu cəhalət tikanlarını ancaq elm, səbr və sabitqədəmlik yolu ilə təmizləyə bilər. Bir sözlə, müəllim cəhalətdən qurtuluşun, elm və mərifət sahibi olmağın yer üzündəki yeganə vasitəçisi, təlim isə insan balalarını qeyb edəcək "qabili-feyz", "əşrəfi-məxluqatı" kamal və fəzilətə çatdıracaq yeganə vasitədir. S.M.Qənizadə müəllimliyi, başqalarına elm və savad öyrətməyi bu yolun yolçusu üçün bir "din borcu", "şəni uca" vəzifə hesab etsə də, onun çətinlik və məşəqqətlərindən də söz açır. Qeyd edir ki, "Müəllimlik hər bir əsrdə ağır olubsa, bu əsrimizdə dahaca ağırraqdır!".

"Mənəvi-əxlaqi tərbiyə haqqında" adlı ikinci məqaləsində, S.M.Qənizadənin tərbiyə nəzəriyyəsində şəxsiyyətin mənəvi-əxlaqi cəhətdən kamilləşməsi, yetkin əxlaqa, saf mənəviyyata yiyələnməsi başlıca yer tutur. Maarifçi sənətkar məktəbə yalnız böyüməkdə olan nəslə savad, elm və bilik öyrədən bir təhsil ocağı kimi deyil, həm də tərbiyə məbədi kimi baxır. S.M.Qənizadənin "Məktubati-Şeyda bəy Şirvani" əsərinin qəhrəmanı Şeyda bəy də mənəvi-əxlaqi cəhətdən yetkin və nümunəvi müəllimdir. O, mənəviyyatca saf, pak əqidəyə, təmiz qəlbə, işıqlı niyyətə malik pedaqoqların timsalıdır. Xeyirxah və alicənabdır. Xalqını, vətənini sevdiyi kimi bütün insanlara səmimi, qayğıkeş, xeyirxah münasibət bəsləyir. O, namuslu və vicdanlıdır. Davranışlarında ədəbli, danışığında nəcib, əməllərində xeyirxahdır. Ümumiyyətlə, bu görkəmli maarif xadiminin pedaqoji irsində insan tərbiyəsinin mənəvi tərəflərinin islahı, yüksək mənəvi-əxlaqi keyfiyyətlərin aşılanması əsas məsələdir.

O, insan əxlaqının naqis tərəflərinin düzəlməsinə ümid bəsləməyən, onu qeyri-mümkün hesab edənlərin əksinə olaraq həmişə ən pis mühitdə tərbiyələnən adamın tərbiyəsinin də həmin mühitdən uzaqlaşdıqdan və normal mühitə düşdükdən sonra təkmilləşməsinin mümkün olduğunu söyləyir. Ədib insan tərbiyəsinin mənfi, naqis cəhətləri barədə mühakimə yürüdərkən bu cəhətlərin yaranmasını cəhalətdə, maarifsizlikdə görür. Belə hesab edir ki, kütlə arasında maarif geniş yayılsa, insanlar mənəvi cəhətdən saf, əxlaqi cəhətdən dürüst yetişər. Oğurluq, quldurluq, fitnə, hiylə, nadanlıq bədxahlıq, yalançılıq və s. kimi pis əməllər ortadan qalxar. S.M.Qənizadə dərsliklərinin tərtibində də uşaqların yalnız təhsil almasını, elm və maarif kəsb etməsini deyil, tərbiyəsini, mənəvi-əxlaqi cəhətdən kamilləşməsini də diqqət mərkəzində saxlayır. 

S.M.Qənizadənin uşaq əsərləri də əxlaqi-tərbiyəvi məzmun və ideyaya malikdir. "Tülkü və Çaqçaq bəy", "Nağıl" adlı mənzum əsərlər, "Allah xofu", "Qurban bayramı" kimi uşaq hekayələri bu qəbildəndir. Pedaqoqun "Dəbistan" jurnalında çap olunan "Allah xofu" hekayəsi ilahi xof və inam insanın mənəvi-əxlaqi cəhətdən kamilləşməsinin əsas amillərindən biri kimi oxucusuna təqdim olunmuşdur. Ədibin "Allah divanı", "Nabəkar qonşu" hekayələrinin də əsas ana xəttini mənəvi-əxlaqi təmizlik və kamillik təşkil edir.

"Fiziki tərbiyə haqqında" adlı üçüncü məqaləsində S.M.Qənizadənin fiziki tərbiyə ilə bağlı fikirləri sistemləşdirilir. "Körpə uşaqlar tərbiyəsi" adlı iri həcmli elmi-pedaqoji məqaləsi maraqlı bir şəkildə müəllif tərəfindən oxucu kütləsinə təqdim olunur. Fiziki tərbiyənin vəzifəsini pedaqoq belə izah edir: "Cism tərbiyəsi cismisəhhət, lakin müraat edərək balanın əza və zahiri hisslərin səhhət üzrə kamala yetirməyi öyrədir".

"Vətənpərvərlik və əmək tərbiyəsi haqqında" adlı dördüncü məqaləsində S.M.Qənizadənin vətənpərvərlik tərbiyəsi ilə bağlı ideyaları ərz olunur. Müəllifin bu mövzuda qələmə alınmış «Janna d'Ark və yaxud üzərayi-Orlean» məqaləsi sırf vətənpərvərlik tərbiyəsi ilə bağlıdır. 1921-ci ildə "Maarif" jurnalında çap olunmuş bu maraqlı əsər oxuculara vətən və onun müdafiəsi yolunda mübarizə hissi aşılayır. Müəllifin fransız qəhrəmanı, öz canını vətəninin

azadlığı, düşməndən xilası yolunda qurban vermiş, Janna d'Arkı Azərbaycan oxucularına təqdim etməsi təsadüfi deyildi. Burada oxucuları məhz bu yöndə səfərbər etmək, vətənpərvərliyin, doğma yurdun müdafiəsi uğrunda mübarizənin nə olduğunu onlara başa salmaq məqsədi izlənilir. S.M.Qənizadə doğma yurda sevgidə bir fədakarlıq, cəsarət timsalı olan bu gənc qızı əsl tərbiyə nümunəsi kimi təqdir edir.

S.M.Qənizadənin pedaqoji görüşlərində əmək tərbiyəsi probleminə də diqqət yetirilir. Onun əsərlərində böyüməkdə olan nəsli əməyə məhəbbət ruhunda böyütmək, onlara əmək təlimi vermək tərbiyə və təlimdə başlıca amillərdən hesab olunur. Maarifçi müəllimin fikrincə ən yüksək mənəvi keyfiyyətlər, nəcib sifətlər, halallıq, əxlaq, duyğular, işgüzarlıq və zəhmətkeşliyə bağlıdır. Pis, iyrənc, müftəxor təbiətlər avaralığın, işsizliyin nəticəsində baş verdiyini oxucusuna başa salır.

Sultan Məcid Qənizadənin öz yaradıcılıq taleyi, içtimai-pedaqoji fəaliyyəti ilə müasiri olan yazıçıların bir çoxundan fərqlənirdi. Onun yaradıcılığında, içtimai-pedaqoji görüşlərində bir sıra ziddiyyətlər vardır. Belə ki, S.Qənizadə yaradıcılığında və pedaqoji fəaliyyətində yorulmadan dünyəvi elmləri təbliğ etməsinə baxmayaraq, bəzən elmlə şəriəti eyniləşdirməyə meyl göstərirdi.

Sultan Məcid Qənizadə XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan xalqının yetirdiyi böyük maarifçi, söz, fikir və əməl adamı, dilçi, metodist alim, tanınmış ədib və ictimai-siyasi xadim idi. Haqq dünyasına qovuşmasından uzun illər keçsə də o, əsərlərində, əməllərində və parlaq ideyalarında bu gün də yaşayır. Azərbaycanda müasir məktəb hərəkatının banisi və misilsiz carçısı, böyük maarifçi Sultan Məcid Qənizadənin adı və əməlləri hər zaman yaşayacaq.

S.M.Qənizadə 1937-ci il repressiyalarının qurbanı olmuşdur.



***Ədəbiyyat***

1. S.M.Qənizadə. Müəllim və onun şəxsiyyəti haqqında. Müəllimtələbə münasibətləri: pedaqoji və psixoloji aspektlər mövzusunda Respublika elmi konfransının materialları. Sumqayıt, 27-28 oktyabr 2016, s.205-206

2. S.M.Qənizadə. Gənc nəslin əxlaqi-mənəvi tərbiyəsi haqqında. Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2016, s.247-250

3. S.M.Qənizadə irsində təhsil-tərbiyə məsələləri. Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 25 noyabr 2016, s.179-180

4. S.M.Qənizadə gənc nəslin milli tərbiyəsi haqqında Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları. II cild. Bakı, 2013, s.394-397

5. S.M.Qənizadə. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2006. 200 s.

6. S. M. Qənizadə. "Məktubati-Şeyda bəy Şirvani" Azərbaycan nəsri antologiyası. 5 cilddə. Bakı: Şərq-Qərb, 2006. - C.1. – s.221-308.

7. Məmmədov X. Sultan Məcid Qənizadə. Bakı: Yazıçı, 1983. 212 s.

# LYRICS BY YAHYA KAMAL BAYATLI
# YƏHYA KAMAL BAYATLININ LİRİKASI

**Prof. Dr. Elman Quliyev**

**Azərbaycan, Bakı Azərbaycan Dövlət Pedaqoji Universiteti Türkoloji mərkəzin Türk ədəbiyyatı bölməsinin müdiri Orcid: 0000-0001-5413-9479**

## ÖZET

Yəhya Kamal poeziyası çoxəsrlik türk şeir ənənələrinə sadiq qala- raq vətənə sədaqət hissini ön plana çıxarır. Bu keyfiyyət həm də fərdin problemə şəxsi yanaşma və münasibətindən doğur. Lakin Yəhya Kamal yaradıcılığında vətən məfhumu birtərəfli formada götürülmür, o, "ta- rixi, coğrafi, ictimai bilgi və həqiqətlərə dayanan, yüksək və realist bir vətən anlayışına" çevrilir. Yəhya Kamalın vətənə münasibəti həm də konkretdir, mücərrədçilikdən uzaqdır: "Vətən heç bir zaman nəzəriy- yə deyil, bir torpaqdır. Torpaq cədlərin məzarıdır. Camilərin qurulduğu yerdir. Vətəndaşları vətən vücuda gətirmişdir Vətən nə bir filosofun

fikridir, nə bir şairin duyğusu. Vətən həqiqi və gerçək bir yerdir."

**Anahtar kelimeler:** Y.Kamal, şeir, lirika, vətən, poeziya

## Summary

Yahya Kamal's poetry brings to the fore the sense of loyalty to the motherland, adhering to centuries-old Turkish poetry traditions. This quality also arises from the individual's personal approach and attitude to the problem. However, in Yahya Kemal's work, the concept of homeland is not taken in a one-sided form, it becomes "a high and realistic concept of homeland based on historical, geographical, social knowledge and truths". Yahya Kemal's attitude towards the homeland is concrete and far from abstract: "The homeland is never a theory, but a land. The earth is the grave of the ancestors. It is the place where mosques are built. Citizens were born by the motherland. What a philosopher the motherland is

is his opinion, what a poet's feeling. Motherland is a true and real place."



**Key words:** Y. Kamal, poetry, lyrics, homeland, poetry

## GİRİŞ

Yəhya Kamal XX əsr türk şeiri və nəsrinin inkişafında böyük xid- məti olan sənətkardır. Bir sıra nəsr və publisistik əsərlər yazmasına bax- mayaraq, sənət aləmində qüdrətli şair kimi tanınmışdır. O, öz şerlərilə türk şeir dilinin saflaşdırılmasına, bu dilin poetik imkanlarının geniş- ləndirilməsinə müvəffəq olmuşdur. Yəhya Kamal poeziyaya lap erkən yaşlarından gəlmişdir. O, 5 yaşında olarkən Rədifə adlı bir qıza aşiq ol- muş, qəribə də olsa bu sevgi onun qəlbində uzun müddət yaşamış və 12 yaşında ikən həmin qızın şərəfinə ilk sevgi şerini yazmışdır. Lakin bu şeir çap olunmadığından əsərlərinə daxil olmamışdır. Şairin əldə olunan ilk şeiri isə Balkan müharibəsinə həsr olunmuş qitə hesab olunur. Ma- raqlıdır ki, bu şeiri o, əruz vəznində yazmış, şeirin ahənginə xoşu gəldi- yi üçün Yəhya Kamalın əruza meyli artmışdır. Yəhya Kamalın ilk çap olunan şeiri isə İstanbulun şərəfinə yazdığı "Xatirə" şeiridir. Maraqlıdır ki, şair bu şeiri İstanbulu görmədən yazsa da, qarşısına qoyduğu məqsə- də çatmış və şeir müəllifə böyük şöhrət gətirmişdir. Yəhya Kamalın poeziya aləmində özünəməxsus yer tutmasında tanınmış türk

şairləri Tofiq Fikrət və Şəhabəddinin böyük rolu olmuşdur. Yəhya Kamal bu şəxslərlə İstanbula gəldikdən sonra tanış olmuşdur. Bu şəhərdə olarkən onun digər "Sərvəti-fünun''çularla da əlaqəsi genişlənir. Lakin "Sərvə- ti-fünun''çulardan fərqli olaraq Yəhya Kamal türk dili ilə avropasayağı şeirlər yazmamışdır. O, türk dili ilə şeirin öz milli dəyərlərinə meydan vermişdir. Buna görə də o, digər şairlərdən daha çox qabağa gedərək milli dil, milli şeir vəhdəti və sintezini yaratmışdır.

Şairin yaradıcılığında doğma dil istəyi xüsusi yer tutur. YəhyaKa- mal bu dilin bütün ifadələrini "ağzımda anamın südüdür" formasında yüksək qiymətləndirir.

Yəhya Kamal poeziyası çoxəsrlik türk şeir ənənələrinə sadiq qala- raq vətənə sədaqət hissini ön plana çıxarır. Bu keyfiyyət həm də fərdin problemə şəxsi yanaşma və münasibətindən doğur. Lakin Yəhya Kamal yaradıcılığında vətən məfhumu birtərəfli formada götürülmür, o, "ta- rixi, coğrafi, ictimai bilgi və həqiqətlərə dayanan, yüksək və realist bir vətən anlayışına" çevrilir. Yəhya Kamalın vətənə münasibəti həm də konkretdir, mücərrədçilikdən uzaqdır: "Vətən heç bir zaman nəzəriy- yə deyil, bir torpaqdır. Torpaq cədlərin məzarıdır. Camilərin qurulduğu yerdir. Vətəndaşları vətən vücuda gətirmişdir    Vətən nə bir filosofun

fikridir, nə bir şairin duyğusu. Vətən həqiqi və gerçək bir yerdir." Yəhya Kamalın vətən düşüncələri həm də məna baxımından o qə-

dər genişdir ki, bu genişlikdə bütün fikirlər özünə yer tapır. Şair vətə- ninin hər qarışını sevir, onu müqəddəs hesab edir. O, heç bir fərq qoy- madan İstanbulu da, Ankaranı da, Bursanı da, Üsküpü də, Trabzonu da sevir, hətta bir qarış adsız torpağını da vətən adı ilə bağrına basır. Şairin vətəni cahanın kiçik bir parçası olsa da, vətənə olan sevgi, ona müqəddəs baxış Yəhya Kamalı "cahan vətəndən ibarətdir etiqadımca" fikrini deməyə sövq edir. Onun şeirlərində vətənin bir çox şəhərlərinin mədhinə yer verilsə də, bu hal konkret münasibətlə yanaşı, ümumi sə- ciyyə də bildirir. Daha doğrusu, əgər söhbət İstanbuldan gedirsə İstan- bul gözəllikləri timsalında həm də ümumi vətən duyulur.



Yəhya Kamal İstanbulu Türkiyənin gözəli hesab edir. Bu şəhəri milli memarlıq sənətinin şah əsəri adlandırır. "İstanbul fəthi" şeirində İstanbulun fəth olunması tarixi gün və hadisə kimi sevinclə qarşılanır.

İndi beş yüz sene keçmiş o böyük xatirədən, Əlli üç gündə o həngamə görülmüş buradan.

Canlanır levhası halə, bəşər etdikcə xəyal, O zaman ortada, hər saniyə gerçək bir hal.

"Süleymaniyədə bayram sabahı" şeirində vətən və millət sevgisi, bu sevginin tarixi aspektdə verilməsi, şair düşüncələrinin romantik tərz- də özünə yer alması diqqət mərkəzindədir. Şeir bir növ tarixi səyahət və mövcud vəziyyəti əks etdirmək baxımından xarakterikdir. Yəhya Ka- mal bu əsərdə Türkiyə uğrunda ölənlərin ruhlarına hörmətlə yanaşır. Onların vətən qarşısında haqlarının böyük olduğunu qeyd edir:

Vətənin həm yaşayan varisi, həm sahibi o, Görünür xalqa bu günlərdə təsəlli kimi o,

Həm bu torpaqda bu gün, bizdə qalan hər yerdə, Həm də çoxdan bəri kayb etdiyimiz yerlərdə.

Yəhya Kamal vətənin bayram dolu bugünündə və sabahında şəhid ruhlarını ən uca məqamda saxlayır, onları keçirilən bayramın layiqli iştirakçısı kimi təqdim edir:

Ulu məbəddə qarışdım vətənin birliyinə,

Çox şükür tanrıya, gördüm, bu saatlarda yenə, Yaşayanlarla bərabər bulunan ərvahı.

Doludur könlüm işıqlarla bu bayram sabahı.

Yəhya Kamal şeirləri sadə dil vahidləri ilə zəngindir. Yəhya Ka- mal klassik formada yazdığı şeirlərində belə digər dil tərkiblərindən bacardıqca az istifadə etmişdir. Türk ədəbiyyatı tarixlərində deyildiyi kimi, onun ən böyük xidməti "türkcə duyuşu türkcə deyiş halına qaldır- masıdır." Məsələn, şairin "Məhluqə Sultan" şeirində biz sadəliyin, sadə ifadə və deyimlərin şahidi oluruq:

Bu həzin yolçuların ən kiçiyi, Bir zaman baxdı o viran quyuya.

Və, nədən sonra, gümüş bir üzüyü, Barmağından sıyırıb atdı suya.

Qeyd etmək lazımdır ki, bu hal şairin əksər şeirlərində özünü göstərən keyfiyyətlərdəndir. "Mahac türküsü'', "Ox'', "Akınçılar'', "Səssiz gəmi'', "Rindlərin axşamı'', "Rindlərin ölümü'', "Üfüqlər'', "Səs" və s. şeirlərində sadəliyin hesabına daxili ahəng və musiqilik üs- tünlük təşkil edir. Onu da qeyd edək ki, Yəhya Kamal şeirlərinin böyük əksəriyyəti İstanbul ləhcəsi ilə yazılmışdır.

Yəhya Kamal şeirlərində mənsub olduğu xalqın qəhrəmanlıq sal- naməsini yazmaq, onun bədii tərənnümünü vermək bacarığını daim nü- mayiş etdirmişdir. Türklərin Malazgird, Çanaqqala, Səlcuq və s. zəfər- ləri onun yaradıcılığında özünün layiqli yerini tutur. Bu cür şeirlərdə əsl türk qəhrəmanlığı, türk əsgəri zəfəri milli qürur hadisəsinə çevrilir:

Ta Malazgird ovasından yüyürən Türkoğlu, Bu nəfərmiydi? Dərin gözləri yaşlarla dolu, Üzü dünyada igid üzlərinin ən gözəli,

Çox böyük bir işi görməklə yorulmuş beli.

Həm böyük yurdu quran, həm qoruyan qüdrətimiz, Hər zaman varlığımız, həm qanımız, həm ətimiz.



Yəhya Kamal klassik şeir ölçülərinin bir çoxundan istifadə etmiş və gözəl nümunələr yaratmışdır. Klassik şeir vəzni olan rübailərin Yəh- ya Kamal yaradıcılığında özünəməxsus yeri vardır. Dörd misralıq kiçik şeirləri ilə o, ictimai-fəlsəfi fikrin bədii tərənnümünə nail olmuş, janrın tələblərinə cavab vermişdir. Yəhya Kamalın rübailərinin mərkəzində Şərq və Qərb təsəvvüf görüşlərinin sintezi dayanır. Rübai janrı üçün Xəyyamanə tərz hakim olsa da, Yəhya Kamalda Xəyyam kimi tək və sistemli bir inanca bağlılıq yoxdur. Belə demək mümkünsə, şairin rüba- iləri dəyişik fəlsəfi fikirlər daxilində formalaşır.

Çepçevrə bahar içində bir yer gördük, Fərhad ilə Şirini bərabər gördük.

Baxdı gecədən fəcrə qədər, əllərdə Ulduzlara yüksələn qədəhlər gördük.

Və ya:

Bir mərhələdən günəşlə dərya görünür, Bir mərhələdən hər iki dünya görünür,

Son mərhələdə bir fəsli xəzandır ki, sürər, Keçmiş gələcək cümləsi röya görünür.

Yəhya Kamal yaradıcılığında nəsr əsərləri az, lakin əhəmiyyətli yer tutur. Onun nəsr əsərləri janr baxımından müxtəlifdir. Roman, hekayə, xatirə, məktub və s. şəklində formalaşan nəsr əsərlərində ictimai-siyasi problemlər üstünlük təşkil edir. Yəhya Kamal öz xatirələrində qeyd edir ki, mən roman yazmaq istəsəm də, bundan yan keçmişəm. Şair ona görə bu işdən yan keçib ki, şeirdə qazandığı uğuru romanda qazana bilməyə- cəyini hiss etmiş, bu işin ona müvəffəqiyyətsizlik gətirəcəyini yəqin etmişdir. Lakin hekayə sahəsində o, bir sənətkar kimi sözünü demiş, yazdıqlarını "Siyasi hekayələr" adı ilə çap etdirmişdir. Müəllif bu əsər- ləri "Siyasi hekayələr" adı ilə çap etdirməkdə məqsədi oxucuların bu- rada əks etdirilən ictimai-siyasi motivə diqqətini yönəltmək olmuşdur.

**KAYNAKLAR**

1. Yəhya Kamal. Bitməmiş şeirlər, İstanbul, 1976.

2. Yəhya Kamal. Öz göy qübbəmiz, İstanbul, 1961.Yəhya Kamal. Əziz İstanbul, İstanbul, 1964.

3. Yəhya Kamal. Siyasi hekayələr, İstanbul, 1968.

# THE POETRY OF NAZIM HIKMAT

# NAZİM HİKMƏTİN POEZİYA YARADICILIĞI

**Prof. Dr. Elman Quliyev**

**Azərbaycan, Bakı Azərbaycan Dövlət Pedaqoji Universiteti Türkoloji mərkəzin Türk ədəbiyyatı bölməsinin müdiri Orcid: 0000-0001-5413-9479**

## ÖZET

Türk ədəbiyyatının ən tanınan sənətkarlarından biri Nazim Hikmətdir. Nazim Hikmət yaradıcılığı istər mövzu, istərsə də forma baxımından zəngindir. Şairin lirik yaradıcılığı milli dəyərləri əks etdirmək, vətənpərvərlik, ictimai, məhəbbət və s. mövzuların tərənnümü baxımından özünəməxsus yerə malikdir.N.Hikmət yaradıcılığında vətən mövzusu olduqca böyükdür. Onun sənətində vətən möhtəşəm bir obrazdır. Bu obraz bütün hallarda konk retdir. Yəni vətəndaşı olduğu Türkiyənin dənizi, gölü, çayı, şəhər və kəndləri, meşələri və s. bütövlükdə Vətən obrazının atributları şəklində məhəbbətlə tərənnüm olunur. N.Hikmət romantik şairdir. Onun romantikası N.Hikmətə xas olan hiss və duyğuların izharında yeni keyfıyyət qazanır. Sevgi və həsrətin lirik-psixoloji mahiyyəti N.Hikmət romantikasında yeni bir poetik göstəriciyə çevrilmişdir.

**Anahtar kelimeler:** Nazim Hikmət, şeir, vətən, sevgi, romantika



## ABSTRACT

One of the most famous artists of Turkish literature is Nazim Hikmet. Nazim Hikmat's creativity is rich both in terms of subject and form. The lyrical creativity of the poet reflects national values, patriotism, social, love, etc. it has a unique place in terms of singing themes. The theme of the homeland is very important in N. Hikmet's works. The homeland is a magnificent image in his art. This image is concrete in all cases. That is, the sea, lake, river, cities and villages, forests, etc. of Turkey, of which he is a citizen. it is sung with love in the form of attributes of the image of the Motherland as a whole. N. Hikmet is a romantic poet. His romance acquires a new quality in the expression of feelings and emotions characteristic of N. Hikmat. The lyrical-psychological essence of love and longing has become a new poetic indicator in N. Hikmet's romance.

**Key words:** Nazim Hikmet, poetry, motherland, love, romance

## GİRİŞ

Nazim Hikmət XX əsr Türkiyə türk ədəbiyyatında ölməz sənət əsərləri yaratmış şair, nasir, dramaturq kimi tanınmışdır. Lakin poezi- ya Nazim Hikmət yaradıcılığının ana xəttini təşkil edir. Nazim Hikmət şair kimi ilk misralarını uşaq yaşlarında yazmışdır. Həmin misraların yazılması ilə bağlı N.Hikmətin xalası Sara xanım öz xatirələrində belə yazır: "İstanbuldakı böyük bir yanğını hündürdən seyr edərkən Nazim birdən-birə coşmuş, nərdivandan aşağı-yuxarı qışqıraraq bu misranı çı- ğıra-çığıra təkrarlamışdır: Yanıyor!.. Yanıyor!... Müthiş tarrakalar...". 1918-ci ildə "Yeni məcmuə" jurnalında dərc olunan "Sərviliklərdə"

adlı şeir onun poeziya sahəsində ikinci qələm təcrübəsidir:

Bir inilti duydum serviliklerde Dedim burada da ağlıyan varmı? Yoksa tek başına bu kuytu yerde Eski bir sevgili anan rüzgarmı? Sözlere inerken siyah örtüler Umardım ki, artık ölenler güler. Yoksa hayatında sevmiş ölüler Hala servilerde ağlıyorlarmı?

Yaradıcılığının ilk mərhələsində Yəhya Kamal, Faruk Nafiz, Yusif Ziya, Orxan Seyfi kimi tanınmış şairlərlə sıx əlaqədə olmuşdur. 1920-ci ildə "Alemdar" qəzetinin təşkil etdiyi müsabiqədə birinci yeri tutması onun şeir yazmaq həvəsini daha da artırmışdır. N.Hikmət poeziyada yenilik tərəfdarı olmuş və bir şair kimi üzərinə düşən işin öhdəsindən layiqincə gəlmişdir. Hər şeydən əvvəl o, vəzn və qafıyə sərhədlərini aşaraq sərbəst şeirin ən gözəl nümunələrini yarada bilmişdir. O, sənətdə ənənəni həmişə yüksək qiymətləndirmişdir. Lakin N.Hikmət sınanmış, təcrübədən çıxmış yolun eyni ilə təkrar edilməsinin əleyhinə olmuş, fərdi və fərqli üslublara üstünlük vermişdir. Onun fikrincə mütəmadi olaraq yeni "cığırlar", yeni "yollar" kəşf etmədən poeziyanı irəli apar- maq, onu zənginləşdirmək qeyri-mümkündür. Vaxtilə,Nazim Hikmətin Cümhuriyyət dövrünün böyük şairi Nəcib Fazil Qısakürəkə (1905-1983) ünvanladığı fikirlərdə bu məntiqin təsdiqini görmək çətin deyil: "Sən köhnəsən, amma köhnənin yaxşısısan, mən yeniyəm, amma ye- ninin yamanıyam. Bunu bil ki, mən yeninin yamanı olmağı köhnənin yaxşısı olmaqdan qat-qat üstün tuturam".

N.Hikmət Şərq klassikasını gözəl bilmiş və ona hörmətlə yanaş- mışdır. Ancaq maraqlıdır ki, N.Hikmət divan şeiri barəsində babasının söylədiyi fikirlərə nisbətən, fransız inqilabçıları haqqında anasından eşitdiklərinə və Lamartinin şeirlərinə daha çox diqqət yetirmişdir. Gö- rünür, şairin lirikasında Qərb mahiyyətinin üstünlük təşkil etməsinin bir səbəbi də bununla bağlıdır. Bu fıkir bir daha öz təsdiqini Nazim Hikmətin ilk şeirlərini "Sərvəti-fünun"çuların, o cümlədən Tofiq Fik- rətin təsiri ilə yazmasında da tapır. N.Hikmət poeziyası özünəməxsus keyfiyyətləri ilə seçilən möhtəşəm yaradıcılıq yoludur. N.Hikmətin fik- rincə, şair öz xalqının səsi olmalıdır. Onun sənəti ilə tanışlıq bu fikrin həqiqiliyini tam mənada təsdiqləmiş olur. Maraqlıdır ki, şair öz poezi- yasını kökü yurd torpaqlarının dərinliklərinə, budaqları ucsuz-bucaq- sız dünyaya uzanan nəhəng ağaca bənzətmişdir. Gerçəkliyin təsvir, tərənnüm və təzahürünün mahiyyətdə dayanmaq tələbi N.Hikmət sənə- ti üçün vacib cəhətlərdən biridir. İstanbul ədəbi jurnallarından birinə verdiyi müsahibələrində şair demişdir: "Mən poeziyada realizmə can atıram. Realizm təfərrüatı ilə keçmişin hərəkətini bu günə, bu günkünü gələcəyə ötürə bilir". Amma şair bu məsələdə özünə tənqidi yanaşmış, bir çox əsərlərində realizmin birtərəfli olduğunu və bunun sayəsində hadisələri hay-küylü təbliğat daxilində təsvir etdiyini diqqətə çatdır- mışdır. Bütün bunlara rəğmən 1951-ci ildə Pablo Neruda N.Hikmət haqqında deyəcək: "Onun poeziyası böyükdür, iri axarlı çaylara bən- zəyir. Amma bu polad bir axın kimi mübarizələrə tələsir". Əslində, N. Hikmət poeziyasında mübarizə bu günə və gələcəyə münasibətdə şair baxışlarında yaranan (Qərb ədəbi yanaşma anlamında utopiya) yeni is- tiqamət – romantik üslubdur. Yeni forma və mövzuya yeni münasibət N.Hikmət poeziyasının səciyyəvi xüsusiyyətlərindən biridir. Şair hansı mövzuda yazmasından, hansı məsələyə toxunmasından asılı olmayaraq ilk növbədə insan-vətəndaş mövqeyindən çıxış edir. İstər ictimai-siyasi, istər məhəbbət, istər təbiət təsvirli, istərsə də fəlsəfi və s. şeirlərində bu mövqe dəyişmir, özünəməxsus şair müdaxilə və münasibətlərində qey- ri-adi poetik ifadə heyranlıq doğurur.

N.Hikmət ruhunun təməlində tarixə, keçmişə, mənəvi dəyərlərə bağlılıq, diqqət və hörmət dayanır.

Çox uzaqlardan gəlirik, çox uzaqlardan, Qulaqlarımızda hələ

İldırımlı səsi var sapan daşlarının. Meşələrində vəhşi atlar kişnəyən dağ başlarının

qanlı heyvan sümüklərilə dövrələnmiş sərhədləri Gəldiyimiz yolun ucudur...

O, keçmişi "müqəddəs xarabalıqları" qürurumuzun, şərəfimizin salnaməsi hesab etməkdə yanılmır.

Yolçu, Şərqə isə yolun, onda sən Hər daşı müqəddəs xərabəyə bax! O yerdə son damla qanını tökən Yaralı igidlər vuruşur qoçaq.

Nazim Hikmət xarakter etibarilə mübariz insan olmuşdur. O, azad- lığı, həqiqəti, bərabərliyi sadəcə olaraq sevməyib, əlində silaha, məşələ çevirib, bayraq kimi dalğalandırıb və təbliğ edib, ən böyük meydanlar- da haqq sözünü deməkdən çəkinməyib. Bu mənada N.Hikmətin inqi- lab şairi adını daşımağa haqqı böyükdür.O, 1930-cu ildə yazdığı "On doqquz yaşım" adlı şeirində belə deyir:

Mən

Yenə söyləyirəm eyni nəğmələri... Döndərmədi küləklər məni havada yarpağa Mən qatdım qabağıma küləkləri...

Lakin N.Hikmət "bir gül ilə bahar olmaz" ideyasını yaxşı başa dü- şür, bütün insanların mübarizəyə qoşulmalarını arzulayırdı. O, anlayırdı ki, azadlıq hamının haqqıdırsa, mübarizə də hamının borcudur. N.Hik- mət "dərdi çox, həmdərdi az dünyada" hamını mübarizəyə səsləyirdi.

Mən yanmasam, sən yanmasan, biz yanmasaq, necə

çıxar qaranlıqlar aydınlığa...

("Kərəm kimi", 1930)

Nazim Hikmətin mübarizələrdə keçən ömür tarixi onu deməyə əsas verir ki, heç bir sürgün, təqib, həbsxana həyatı, işgəncə və s. onu də- yişdirə bilməyib. Əksinə bu cür gərginliklər onu daha da mətnləşdirib, qətiyyətini artırıb.



"Günəşi içənlərin mahnısı" (1928) şeirində şairin lirik-fəlsəfi, si- yasi düşüncələrinin əksi diqqəti cəlb edir. Burada həyatı dəyişmək istəyən, mübarizə yolundan başqa yol tanımayan, ölümün üzünə dik baxan insanların pafoslu çağırışları haqq səsi kimi səslənir. Bu insanlar adi insan deyildir. Onlar "ürəyinin sürətini torpaqlarından alan", "ildı- rım küləklərə minən", dünyanı kökündən dəyişdirmək iqtidarında olan əsl qəhrəmanlardır.

Axın var, Günəşə axın!

Günəşi zəbt edəcəyik, Günəşin zəbti yaxın Düşməsin bizimlə yola evində ağlayanların göz yaşlarını

boynunda ağır bir zəncir kimi daşıyanlar!

Gəlməsin dalımızca

öz qəlbinin qabığında yaşayanlar!

N.Hikmətin "Orada tanış olduqlarım" (1928) şeirində maraqlı məqam diqqəti cəlb edir. İnqilab və mübarizə şairi adlandırılan N.Hik- mət qəfəsdəki sarı bülbülün dili ilə öz arzularını tam fərqli mövqedən bəyan edir:

İstərdim ki, əl-ələ tutub

uşaq bağçalarından geri dönəndə Uşaqlarımız

mənim nəğmələrimi söyləsinlər... İstərdim ki, şüşələri günəş kimi bir kitab evində

kitab keşikçisi olaydım...

Lakin bu romantik duyğu şairin yaradıcılığındakı inqilab pafosuna təsir göstərə bilməmişdir. N.Hikmət cəmi bir il sonra, yəni 1929-cu ildə yazdığı "Yer üzündə bir insan" şeirində belə deyirdi:

Bilmiş olun mənim üçün daha heyrətli daha qeyrətli

daha əsrarlı və böyükdür.

Yolu üstündə durulan Ayağına zəncir vurulan İnsan!

İnsanların yeni dünya arzularına çatmasını mübarizədə görən şair bir sıra şeirlərində "köhnə dünya" adlandırdığı istismarçı cəmiyyəti tənqid edir və onun məhvə məhkum olacağına əminliyini bildirir:

Köhnə dünya, yeni dünya önündə əyil! Aramızdan neçə yoldaş ayırmaq deyil Hər nə etsən yetəcəyik əməlimizə.

("On beşlər", 1922)

N.Hikmət kommunist partiyasının üzvü və təbliğatçısı olmuşdur. O, daim Türkiyə, Sovet İttifaqı və beynəlxalq kommunist hərəkatı nü- mayəndələri ilə həmrəy olmuş və birgə fəaliyyət göstərmişdir. Buna görə o, vətəni Türkiyədə təqiblərə məruz qalmış və vətən xaini səviyyə-sində ittiham olunmuşdur. İstər sağlığında, istərsə də ölümündən sonra,təxminən 2001-ci ilə qədər bu ittihamlar Türkiyədə N.Hikmətin həm yaradıcılığına, həm də şəxsiyyətinə müəyyən kölgələr salmışdır. La- kin N.Hikmətin kommunist hərəkatına bağlılığı heç zaman anti-milli xarakter daşımamışdır. N.Hikmətdə Türkiyə sevgisi, milli ruh və milli qürur duyğusu olduqca yüksək olmuşdur. Şair şeirlərinin birində Tür- kiyə haqqında belə yazır:

Məmləkətlər içində bir şirin məmləkətdir Türkiyə, bizim məmləkət.



("Məmədə son məktubum", 1954)

Bu mənada N.Hikmətin "dünyanın ən gözəl insanlarından olan türk xalqını və dünyanın gözəl dillərindən biri və bəlkə də ən başda gələnlərindən olan Türk dilinin yabançı diyarlarda tanınmasına vəsilə ola bilmək, ömrümün ən böyük sevinci və şərəfi olur" deməsi təsadüfi səslənmir. N.Hikmətin ölkəsinin azad, millətinin xoşbəxt gələcəyi barə- sində düşüncələri ilə beynəlxalq kommunist hərəkatının dünya xalqla- rını xoşbəxtliyə çıxaracaq vədləri arasında uyğunluq onda kommunist olmaq meylini artırmışdır. Onun kommunist siyasi əqidəsi sanki dini əqidə rolunu oynayırdı. O, bu əqidənin fanatı olaraq ölkəsinin, xalqı- nın nicatını yalnız bu yolda görürdü. Ona görə N.Hikmətin istismar, zülm dünyasına qarşı barışmazlıq, mübarizə çağırışının "internasional" səs ahəngində təqdimi olduqca təbii görünür. Biz şairi çox zaman barı- şa bilmədiyi cəmiyyəti dağıtmaq üçün mübarizəyə toplaşan insanların önündə görürük. Doğrudan da bu tip şeirlərində N.Hikmətin öz idealına inam və sədaqətinin hər an şahidinə çevrilirik:

Yenə biz kölələrik, ağamız, bəyimiz var! Yenə hər məlun daşı yosunlaşmış bir divar... Ağalar hey işlədir, əsir işləyir yenə

Yenə də ağaların gümüşlü süfrəsindən Ağappaq çörəyindən, şərab dolu tasından. Qırıntı, artıq belə düşməyir işləyənə!

Əfəndilər, ağalar, övliyalar, keşişlər Əbədi qaranlığın boğulsun qollarında!

Artıq təmiz ruhların işıqlı yollarında

Sadə bir din, bir qanun, bir haqq: işləyən dişlər!

("Meşin cildli kitab", 1921)

Maraqlıdır ki, bu inam şairdə ömrünün sonuna qədər davam etmiş, yaradıcılığında xüsusi izlər buraxmışdır. "Komsomol" (1920), "La- hutinin "Kreml" kitabına müqəddimə" (1923), "1923-cü il Almaniya inqilabını gözlərkən" (1923), "Şərqli və SSRİ" (1925), "Pol Robsona" (1949), "Kommunistlərə bir-iki söz" (1956), "Lenin ilə" (1960), "Le- nin haqqında Vladimir İliçlə söhbət" (1960) və s. şeirlərində N.Hikmət siyasi görüşlərini əks etdirməklə yanaşı, bu görüşlər daxilində özünün milli-bəşəri arzu və ideallarını da dilə gətirmişdir.

N.Hikmət yaradıcılığında vətən mövzusu olduqca böyükdür. Onun sənətində vətən möhtəşəm bir obrazdır. Bu obraz bütün hallarda konk- retdir. Yəni vətəndaşı olduğu Türkiyənin dənizi, gölü, çayı, şəhər və kəndləri, meşələri və s. bütövlükdə Vətən obrazının atributları şəklində məhəbbətlə tərənnüm olunur:

Namuslu, çalışqan, fağır insanların şəhəri, doğma İstanbulum.

Sevgilim, sənin məkanın olan haraya sürgün edilsəm,

hansı dustaqxanada yatsam.

kürəyimdə, torbamın içində götürdüyüm və övlad həsrəti kimi ürəyimdə

sənin xəyalın kimi gözlərimdə daşıdığım şəhər...

("Məktub", 1945)

Şeirdə İstanbul namuslu, çalışqan insanların şəhəri kimi mədh olu- nur. Şair azadlıqda, sürgündə və ya həbsxanada olmasından asılı olma- yaraq qəlbdəki sevgisini İstanbuldan əsirgəmir, onun xəyalı ilə yaşayır, görüşünə can atır. Şeirdə İstanbul sevgisinin mahiyyətində vətən da- yanır. Çünki İstanbula sevgi və məhəbbət o dərəcədə böyükdür ki, bu sevgi İstanbula sığmır, İstanbulun hüdudlarını aşan bu sevgidən vətənin digər məkanlarına da pay düşür.



"Dəvət" (1947) şeirində göz önündə sanki türk ellərinin xəritəsi canlandırılır və Asiyadan Ağ dənizə qədər uzanan bu torpaqları ipək xalıya, xəritə görüntüsünü isə ata bənzədən şair öz məmləkətinin bu gününə sahib durduğu kimi, onun keçmişinə də sahib durur. Keçmişdən bu günə uzanan tarixi, onun keşməkeşlərini, uğur və səadətini öz taleyi hesab edir:

Çaparaq gəlib uşaq Asiyadan

Ağ dənizə bir madyan başı kimi uzanan Bu məmləkət bizimdir!

Biləklər qan içində, dişlər kilidli, ayaqlar çılpaq və ipək bir xalıya bənzəyən torpaq,

bu cəhənnəm, bu cənnət bizimdir!

N.Hikmət böyük ideallar şairidir. Arzusu böyük, ümidi sonsuz, sev- gisi coşğun olan şair "bəyaz yelkənli gəmilərdə aydın üfüqlərə" get- məyi insanlıq üçün vacib sayır. Çünki N.Hikmət həyatla (yaşamaqla) ölümün sərhəddində maneə görmür. Öz arzularının işığında şair həsrətə son qoyub ideala qovuşmağın romantik ifadəsini bu cür təqdim edir:

Dənizə dönmək istəyirəm Mavi aynasında suların

Boy verib görünmək istəyirəm

Mən sularda batan bir işıq kimi Sularda sönmək istəyirəm!

Dənizə dönmək istəyirəm Dənizə dönmək istəyirəm.

("Həsrət", 1927)

N.Hikmət romantik şairdir. Onun romantikası N.Hikmətə xas olan hiss və duyğuların izharında yeni keyfıyyət qazanır. Sevgi və həsrə- tin lirik-psixoloji mahiyyəti N.Hikmət romantikasında yeni bir poetik göstəriciyə çevrilir:

Mən bir ceviz ağacıyam Gülhanə parkında Yarpaqlarım suda balıq kimi qıvıl-qıvıl Yarpaqlarım ipək dəsmal kimi tıril-tıril Qopararaq, gülüm, gözlərinin yaşını sil.

Yarpaqlarım əllərimdir, düz yüz min əlim var

Yüz min əllə toxunuram sənə, İstanbula, Yarpaqlarım gözlərimdir, baxıram heyrətlə Yüz min gözlə seyr edirəm səni, İstanbulu, Yüz min ürək kimi çarpar-çarpar yarpaqlarım. Mən bir ceviz ağacıyam Gülhanə parkında,

Nə sən bunun fərqindəsən, nə də polis fərqində.

("Ceviz ağacı", 1957)

Şeirdə kökü torpağı qucan, budaqları buludlara çatan, Gülhanə par- kında əzəməti ilə seçilən, lakin heç kimin fərqində olmadığı qocaman Ceviz ağacı vətənpərvər insanın – şairin, İstanbul isə həsrətin, sevgi- nin, vətənin simvoludur. Şeir N.Hikmətin Türkiyə həsrətini ifadə etmək baxımından xarakterikdir, Şair 7 il əvvəl ayrıldığı, bir daha görə bil- məyəcəyi Vətəninə İstanbulun simasında tamaşa edir. Lakin şair burada ümumiləşdirmə apararaq özü ilə yanaşı, yüz minlərlə insanın həsrəti və sevgisini ifadə etmişdir. Şeirdə təsvir olunan ağac adi ağac deyildir. Bu ağac yarpaqlarının sayı qədər -yüz min əli, yüz min gözü, yüz min ürəyi olan ağacdır (insandır). Bu ağac (insan) yüz min əli ilə İstanbula toxunur, yüz min gözü ilə İstanbula tamaşa edir, yüz min ürəklə İstan- bul üçün döyünür. Bu yolla o,həsrət yaralarına məlhəm qoyur, vüsalına qovuşur, "sevgilisinin" göz yaşlarını silir, qollarını onun boynuna ke- çirir. Amma bunu elə sakit tərzdə icra edir ki, heç kim bunu hiss etmir, "fərqində ola bilmir". Çünki burada şair qalib obraz rolunda çıxış edir. Mövcud rejim onun arzuları qarsısında(reallaşma anlamında) sədlər çəksə də, şairin vətənlə bağlı sevgi hisslərini cilovlaya bilmir.



N.Hikmət yaradıcılığında məhəbbət tərənnümlü şeirlərin özünəməx-

sus yeri vardır. Onun poeziyasında məhəbbətin mahiyyəti bəşəriyyətə, insana, qadına, təbiətə və s. olan həssas duyğuların ifadəsində açılır. N.Hikmət "enini, uzununu santimetrinə qədər sevdiyi" dünyanın bütün xalqlarına məhəbbətlə yanaşır. N.Hikmət heç bir dini və irqi ayrı-seçki- liyə yol vermədən bəşər övladına qəlbinin hərarətindən pay ayıra bilir. "Dünya, dostlarım, düşmənlərim, sən və torpaq", "Asiya-Afrika yazıçı- larına", "İsveçrə dağları", "Praqada Bir may" və s. şeirlərində N.Hikmət dünyaya, bəşər övladına olan məhəbbətini nümayiş etdirir. Təbii olaraq şairin vətəninə olan məhəbbəti bu sırada xüsusi yer tutur. N.Hikmət qəlbində səngər qazıb müdafiə etdiyi, bağrından qoparıb ata bilmədiyi məmləkətinə sonsuz məhəbbət ifadə edir. Maraqlıdır ki, şairin doğma vətəni ilə bağlı yazdıqlarını ümumiləşdirsək, vətəni özünün taleyi, tər- cümeyi-halı, qüruru və s. hesab etdiyinin şahidi olarıq. Məmləkətini ömür yolu, saçlarının ağ rəngi, alnının qırışı, ürəyinin infarktı kimi sə- ciyyələndirərkən şairin sadəlik və səmimiliyi şübhə doğurmur:

Sən indi qalmısan ancaq Saçlarımın ağında, ürəyimin infarktında.

Alnımın qırışlarındasan, məmləkətim! Məmləkətim, məmləkətim!

N.Hikmətin şeirlərindəki sevdiyi qadınlara məhəbbəti şairin pak duyğularının, səmimi hiss və etiraflarının göstəricisidir. Bu şeirləri oxu- duqca insan gözləri önündə sanki dünyanın ən gözəl mənzərəsini görür, ən həzin musiqisini eşidir.

Sən ey, dildarım mənim, təmiz ürəkli, qızıl rəngli.

Gözləri baldan dadlı arım mənim.

(“Arvadıma məktub”, 1933)

Bu şeirin 1933-cü ildə Bursa həbsxanasında olarkən həyat yoldaşı- na yazıldığını nəzərə alsaq, şairin ən çətin şəraitdə, psixoloji gərginlik- də belə ruhunda gəzdirdiyi ecazkar sevgi duyğularının şahidi oluruq. “Sənsiz Paris” (1958) şeirində sənsizliyin doğurduğu assosiativ duy- ğuların maraqlı təsiri ilə üzləşirik. Cəmi 7 misradan ibarət olan şeirdə biz Parisi gəzən şairin keçirdiyi hisslərlə tanış oluruq. Şair üçün sevdiyi insan müqayisədə hamıdan gözəldir. Buna görə də gözəlliklər şəhəri Parisdə şairin diqqətini heç nə cəlb etmir. Əksinə, onu narahat edir, qəl- bində kədər hissi oyadır:

Sənsiz Paris, gülüm, Bir hava fişəngidir. bir quru gurultu

kədərli bir bulaq. Yaxdı, məhv etdi məni

Parisdə dayanıb, dincimi almadan Səni çağırmaq.

N.Hikmət lirikasında qeyri-adi poetik həssaslıq müşahidə olunur. Onun “mən”i daxilən narahatdır. Bu narahatçılığı doğuran səbəblər olduqca müxtəlifdir. “Qəlbim” (1948), “Dünyanın ən yazıq məxluqu” (1949), “Vəsiyyət” (1953), “Məmədə son məktubum” (1954), “Məməd” (1957), “Son avtobus” (1957), “Münəvvərə məktun yazdım, dedim ki:” (1957) və s. şeirlərində bu səbəblər oxucu üçün aydınlaşır. Oxucu onun şeirlərindəki emosional “yükün” mənbəyini müəyyənləşdirməkdə çə- tinlik çəkmir. N.Hikmət həyatda olduğu kimi şeirlərində də nə qədər narahatdırsa, idealına bir o qədər sədaqətlidir. “Röyalarının ölkəsində ölməyi” özünə şərəf bilən şairin aşağıdakı misralarında bu fikir öz təs- diqini belə tapır:

Mən məni bir daha ələ keçirsəm

...Mən bu xanəyə bir daha girsəm Yaşardım yenə belə qorxu, dəhşət içində.

(“Mən məni”, 1949)



N.Hikmətdə gerçəkliyi yeni poetik təfəkkürlə qavramaq imkanı bö- yükdür. Onun şeirlərində poetik görkəmi yeni olan obrazlar və assosia- siyalar çoxluq təşkil edir. Ona görə də N.Hikmətdə mənanın özünəməx- sus forma və söz-ifadə imkanlarında verilməsi ardıcıl səciyyə daşıyır:

Mən dostların gözündə özümü Olduğum kimi görürəm... (“Vida”, 1931)

Güldün,

Güllər açıldı pəncərəmin dəmirlərində, Ağladın,

Ovuclarıma töküldü incilər.

(“Xoş gəldin”, 1949)Və ya

Təpədəyəm

Uşaqlaşır ucsuz-bucaqsız ayrılıqda Bir sal kimi ürəyim.

Gedər xatirələrin gerisinə, Ulduzsuz, ağır dənizə qədər Zil qaranlıqda.

(“Gecə vaxtı Bakı”, 1960)

Nazim Hikmət harada yaşamasından asılı olmayaraq Azərbaycana böyük məhəbbət bəsləmiş, ona ürəkdən bağlı olmuşdur. Bu da səbəbsiz deyildir. Hər şeydən əvvəl Azərbaycan Nazim Hikmət üçün qədim türk yurdu və türk ruhunu qoruyan insanların yaşadığı müqəddəs bir məkan idi. Şair “Bakıya gedirəm” şeirində Azərbaycana səmimi duyğularını aşağıdakı kimi ifadə edir:

Bakıya gedirəm, ay balam, Bakı-Əsli, mən-Kərəm.

Bakı gəncliyim demək,

Dost əlinə əmanət etdiyim ürək.

Nazim Hikmətin “Neftə doğru” adlı şeirinin mövzusu da Azərbay- canla bağlıdır. Şeirdə bir sıra təbiət lövhələri ilə yanaşı, əsasən Bakı mənzərələri timsalında Bakının obrazı əksini tapmışdır:

Düşünen beyni Moskovaysa ülkemizin, Taze kan dağıtan kalbidir Bakü!..

İlık ve aydınlık bir güney gecesi... Havalarda iri taşlı billur avizeler yanıyor... Her tanesi içinden aydınlanan,

Şeffaf üzüm salkımları sallanıyor havalardan...

N.Hikmətin epik poeziyası daha çox ictimai-siyasi səciyyə daşıyır. “Cakonda və Si-ya-u”, “İnsan mənzərələri”, “Qurtuluş davası dastanın- dan”, “Moskva simfoniyası”, “Zoya” və s. poemalarda problemə obyektiv baxış və münasibət insanı hadisələrindən düzgün nəticə çıxar- mağa sövq edir, geniş poetik lövhələrdə həyatın ictimai-siyasi mənzərə- si əksini tapır.

KAYNAKLAR

4. Nazim Hikmət. Seçilmiş əsərləri, iki cilddə, I cild. Bakı, “Azər- nəşr”, 1961

5. Nazim Hikmət. Seçilmiş əsərləri, iki cilddə, II cild. Bakı, “Azər- nəşr”, 1961

6. Nihad Səmi Banarlı. Türk ədəbiyyatı tarixi, 2 cilddə, İstanbul, 1998.

# M. FUZULI'S GASIDAS (LYRICAL POEMS)
# M. FÜZULİNİN QƏSİDƏLƏRİ

**Babayev Yaqub Məhərrəm oğlu**

**filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan ORCİD: https://orcid.org/0000-0002-4738-9426**

**Xülasə**

Türk və dünya poeziyasının qüdrətli sənətkarlarından olan M.Füzulinin üç divanı vardır: türkcə (Azərbaycan türkcəsində) divan, farsca divan, qəsidələr divanı. Şairin qəsidələri çox olduğundan o, həmin qəsidələri ayrıca tərtib edərək bir divan şəklinə salmışdır. Bu barədə divanın girişində şair özü məlumat verir.

Sənətkarın qəsidələr divanına daxil olan şeirləri üç dildə qələmə alınmışdır: azərbaycan türkcəsində; fars dilində və ərəb dilində. Bu qəsidələr mövzu və ideya baxımından rəngarəngdir. Biz məqalədə Füzulinin qəsidələrinin mövzu, ideya-məzmun və sənətkarlıq xüsusiyyətlərindən söhbət açmağa çalışmışıq. Əlbəttə, bir məqalədə şairin çoxsaylı qəsidələrinin hamısının mövzu, ideya-məzmun və sənətkarlıq xüsusiyyətlərini şərh etmək mümkün deyil. Ona görə də məqalədə mümkün qədər ümumiləşdirmələr aparmağa, sənətkarın qəsidələrindən bəzilərinin üzərində dayanmağa çalışmışıq. Müasir oxucu üçün anlaşıqlı olsun deyə verilən şeir nümunələrinin bəzilərinin çağdaş dildə nəsrə çevrilmiş variantını da verməyi lazım bildik.



**Açar sözlər:** M.Füzuli, klassik poeziya, Azərbaycan ədəbiyyatı, qəsidə, divan ədəbiyyatı, əsərin mövzusu, əsərin ideyası

**Summary**

One of the powerful artists of the Turkish and world poetry M.Fuzuli has three divans (poem of poetry): Turkish (in Azerbaijani Turkish) divan, persian divan, gasida (lyrical poem). The poet has many gasidas (lyrical poems), he compiled those gasidas (lyrical poem) separately and made the divan (poem of poetry). The poet himself informs the entrance to this divan (poem of poetry).

The artist's poems included in the gasida (lyrical poem) were written in three languages: in Azerbaijani Turkish, in Persian and Arabic. These gasidas (lyrical poem) are colorful in terms of subject and ideas.

In the article, we have tried to talk about the subject, ideal and artistic features of the gasida of Fuzuli. Of course, in an article, it is impossible to comment on the subject, ideas and artistic properties of the gasidas.

Therefore, we have tried to maintain as many generalizations as possible in the article and to stand on some gasidas (lyrical poem). We found it necessary to give the prose version of some poem samples given in the modern language so that they would be understandable for the modern reader.

**Keywords:** M.Fuzuli, Classic Poetry, Azerbaijani literature, gasida (lyrical poem), divan literature, the subject of the work, the idea of the work

**Giriş**

Füzuli şərq poeziyasının işlək şeir şəkillərindən olan qəsidə janrında da qələmini sınamışdır. Həm də bu lirik nümunələr üç dildə – türk (şərqi oğuz türkcəsində), fars və ərəb dillərində yaradılmışdır.

Şairin qəsidələrinin kəmiyyətcə çoxluğu onun bu janra xüsusi diqqət yetirməsi ilə əlaqədardır. Sənətkar qəsidələr divanının dibaçəsində deyilən mətləbi bu şəkildə əsaslandırır:

Məsnəvi üsulu, qəzəl sənəti

Qazanmış olsa da aləmdə şöhrət,

Lakin bir eybi var: ifratla təfrit

Nə onda dad qoymuş, nə bunda ləzzət

Təkcə qəsidədir hər xeyir işdə,

Cilvələr saçaraq sayılır sənət.

Sənətkarın üç dildə olan qəsidələrinin sayı yüzdən artıqdır. Ərəbcə örnəklərin kəmiyyəti nisbətən azdır. Göründüyü kimi, müəllifin haqqında danışılan poetik janrda meydana gətirdiyi lirik əsərlərin miqdarı heç də az deyil. Elə buna görə də şair qəsidələrini türkcə və farsca divanlarına daxil etməmiş, hər üç dildə bu janrda olan şeirlərini toplayaraq ayrıca bir divan halında tərtib etməyi lazım bilmişdir. Həmin məsələni Füzuli «Qəsidələr divanı»na yazdığı dibaçədə belə izah edir: «…müxtəlif illərdə, həm də müxtəlif dillərdə bir neçə qəsidə: tövhid, nət, mənqəbət və padşahlara mədh yazmışdım. Allahın köməyi ilə bunların çoxu məşhur olmuşdu. Bir çoxu qayğısızlıq nəticəsində ortadan çıxmış və bəziləri isə namünasib olduqlarından gizlin pərdədə qalmışdı. Bu qəflətdən oyanıb belə məsləhət gördüm ki, pərişan olan bu dediklərimin qalanını bir yerə cəm edim. Bu dövrandan sitəm görmüşləri bir yerə toplayım ki, zaye olmaq təhlükəsindən qurtarıb məşhur və müəyyən olsunlar. Madam ki, qəsidə nəzmin yaxşı növüdür, heyifdir ki, fövt olub gələcək nəslə zövq verməsinlər». (6, 7)



Füzulinin qəsidələrini Tədqiqat

təxmini olaraq aşağıdakı mövzu qruplarına ayırmaq mümkündür: tövhid və münacatlar, nətlər, mənqəbətlər (ayrı-ayrı dini şəxsiyyətlərin tərifi), mədhiyyələr (müxtəlif dünyəvi şəxsiyyətlərin mədhi), ictimai-fəlsəfi şeirlər və s.

Şairin tövhidlərindən biri və qəsidələr divanındakı ilk şeir «Həva ərayi-si-gülzarə oldu çöhrəguşa» misrası ilə başlayan qəsidədir. Həcmcə böyük olan bu şeir mükəmməl bir bahariyyə ilə başlayır. Nəsib (qəsidədə əsas mətləbə keçməzdən əvvəl verilən giriş hissə) hissəni təşkil edən həmin parça qəsidənin az qala yarıya qədərini əhatə edir. Burada baharın füsunkarlığı və təravəti Füzuliyanə obrazlarla tərənnüm olunur. Şair Füzuli həm də rəssam Füzuliyə çevrilir:

Şəqayiq alni zəminbusdən olub məcruh,

Bənəfşə qaməti oldu təvazö ilə düta.

Mürəttəb eylədi bir bəzm gülşən içrə bahar

Ki, verdi zövqi-tamaşası nəş’əyi-səhba.

Ənadil etdi bəyani-məratibi-nəğəmat

Qəmari oldu təanəkəşü sürud səra.

Sədayi-mürğ buraxdı büzürgü kuçigə şövq,

Sürudi-ab ilə üşşaqə hasil oldu nəva.

Bilindi qönçədə gül bərgi zahir olmağ ilə

Ki, qönçə başinə yağdırdı jalə səngi-cəfa.

Cərahət olmasa əzadə zahir olmaz qan,

Tərəşşöh eyləməz əlbəttə sınmadan mina.

Hümayvəş vərəqi-yasəminü bərgi-səmən,

Uçub həvayə gülüstanə düşdü zilli-hüma.

Bahar taciri Misri-çəmən qənilərinə,

Buraxdı Yusifi-gül ərz eyləyib qovğa.

Lalələrin alnı səcdədən yaralandı, Bənövşənin qaməti təvazödən ikiqat oldu.

Bahar çəməndə bir məclis düzəltdi ki, Onun tamaşası şərab nəşəsi verdi.

Bülbüllər nəğmələrin mərtəbələrini bəyan etdilər, Qumrular nəğmə oxuyan və nəğmə yaradan oldular.

Quşların sədası böyük və kiçiyə şövq buraxdı, Suyun nəğməsi ilə aşiqlərə bir pay yetişdi.

Qönçədə gül yarpağı aşkar olmaqla bilindi ki, Şeh qönçənin başına cəfa daşı yağdırdı.

Bədəndə yara olmasa, qan görünməz, Mina sınmasa, əlbəttə, tərləmə olmaz.

Yasəmənin vərəqi və səmənin yarpağı hüma kimi havaya uçdu və gülüstana hüma kölgəsi düşdü.



Bahar taciri çəmən Misirin dövlətlilərinə Gül Yusifi buraxıb dava göstərdi.

Bu, təbii ki, ana dilli poeziyamızda ən dolğun bahariyyələrdən biridir. Zahirən nəsib hissə uzun görünür. Ancaq əslində qəsidədə artıq və lüzumsuz heç nə yoxdur. İri həcmli bahariyyənin özü də elə birbaşa əsas mətləbin – Tanrının qüdrət və əzəmətinin bədii-fəlsəfi ifadəsinə xidmət göstərir. Baharın çeşid-çeşid gözəlliyinin təsviri dərhal belə bir sual doğurur. Bu qədər əlvan və inanılmaz gözəlliyin səbəbi və hikməti nədən, haradandır? Müəllif həmin ecazkar gözəlliyi təqdim etdikdən sonra qəsidənin sonrakı əsas mətləblə bağlı hissəsində həyati məntiqlə deyilən suala cavab verir. Beləliklə, nəsib hissə sənətkarlıqla əsas mətləblə əlaqələndirilir. Göstərilir ki, bu karxana (varlıq, xilqət) bir Ustadın bacarıq və biliyinin nəticəsidir. Hər şey o qədim zata bağlıdır. O zatın ki, al şəraba bənzər dodağın, şirin ləhcənin məlahəti, ölçülü boyun, gözəl çöhrənin nəzakəti ondandır. Görünən hər şey onun elminin kamilliyinin şahidləridir. Onun mərhəməti də, lütfü də, mehribanlığı da, qəzəbi də heç nə ilə müqayisə olunmaz. Bütün bəşərin halı, istər yoxsul, istər varlı onun hikmətinin rəmzlərini mərtəbələrlə şərh edir. Qapısı padşahla dilənçinin bərabərlik məqamıdır.

Sənətkar belə bir ustada (Allaha) əhsən söyləyir və bu nəticəyə gəlir ki, kim ki, sənə qovuşur, əbədi nemət ondadır, kim ki səndən ayrı olar, əbədi əzab içindədir.

Qəsidə ideya-məzmun baxımından Tanrı vahidliyinin, cəlalının və şəninin vəsfini bəyan etməklə yanaşı həm də divana giriş səciyyəsi daşıyır.

«Su», «Xəncər» və s. kimi qəsidələr nətdir. Məhəmməd peyğəmbərin (ə.s.) mədhi ilə bağlıdır. Burada bir məsələni nəzərə çatdırmaq lazım gəlir. Füzulinin bəzi mədhiyyələri var ki, tərifin məzmun və siqləti müəyyən əşya və ya təbiət hadisəsi üzərində qurulur. Başqa sözlə, hər hansı predmet və ya təbiət məqsədli olaraq şeirin poetik nüvəsini təşkil edir, ideya üçün vəsilə rolunu

oynayır. Müəllif tərənnüm obyekti ilə əlaqəli fikirlərini, ideya, məzmun və sənətkarlıq manerasını həmin əşya və hadisənin əlamətlərindən, xassələrindən çıxış edərək oxucuya çatdırır. «Su», «Xəncər», «Gül», «Səba», «Qələm» və s. kimi qəsidələrdə şair bu yolla hərəkət edir.

İslam peyğəmbərinin vəsfinə həsr olunmuş «Su» və «Xəncər» şeirlərində adı çəkilən (və həm də rədif rolunu oynayan) predmetlər mətləbin ifadəsi üçün zəruri məfhumlar kimi seçilir.

Onların əlamət və xüsusiyyətləri mütəfəkkir bir sənətkarın baxış prizmasından şeiriyyət libasına bürünərək, naxışlı, dahiyanə bir bəzək-düzəklə oxucuya təqdim edilir. Buna görə də təsirli, yaddaqalan səciyyə daşıyır.

«Su» Füzulinin ana dilində yazılmış məşhur qəsidələrindən biridir. Suyun Məhəmməd peyğəmbərin (ə.s.) tərifindən ötrü bir vəsilə kimi qəbul edilməsi və poetik obraza çevrilməsi təsadüfi deyil. Belə ki, o, maddi varlığı təşkil edən dörd ünsürdən biri, təmizlik, saflıq vasitəsi və rəmzidir. Bir sözlə, fiziki gerçəklikdə müsbət rolu, dəyəri saysız-hesabsızdır. Sənətkar peyğəmbərin tərənnümü üçün suyun elə qəribə və gözlənilməz xassələrinə əl atır ki, bu, adi adamın yadına gəlmir. Həm də onları elə professional rənglərlə süsləndirir ki, vəsf obyektinə layiq bir poetik lövhə yaranır. Təbii ki, bədii əsərdə forma və məzmun gözəlliyi yaradan poetik fiqurlardan da kafi dərəcədə yararlanır. Aşağıdakı parçaya nəzər salaq:

Rövzeyi-kuyinə hərdəm durmayıb eylər güzar,

Aşiq olmuş, qaliba, ol sərvi-xoşrəftara su.

Su yolun ol kuydən torpaq olub tutsam gərək,

Çün rəqibimdir, dəxi ol kuyə qoyman varə su.

Dəstbusi arizusundan gər ölsəm, dustlar,

Kuzə eylin torpağım, sunun onunla yarə su.

Sərv sərkəşlik qılır qümri niyazından, məgər,

Damənin tuta, əyağinə düşə, yalvarə su.

İçmək istər bülbülün qanın, məgər bir rəng ilə

Gül budağının mizacına girə, qurtarə su.

Tinəti-pakini rövşən qılmış əhli-aləmə,

İqtida qılmış təriqi-Əhmədi-Muxtarə su.

Su daim gözəlin qərar tutduğu bağçaya üz tutur. Deyəsən, o, xoş yerişli sərvə aşiq olmuşdur (Burada təşxis (suyun insan kimi əqli keyfiyyətə malik varlıq olaraq təqdim edilməsi, aşiqliyi), istiarə (insana məxsus əlamətin suyun üzərinə köçürülməsi) və təşbeh (gözəlin olduğu yer cənnət bağçasına bənzədilir) yaradılmışdır).

Gərək torpaq olub suyun o məhəlləyə yolunu kəsəm. Rəqibim olduğu səbəbdən qoymaram ki, su o yerə gedə (Burada mübaliğə, təşxis və touriyyədən, yəni eyhamdan (lirik qəhrəman «torpaq olup dutsam» ifadəsi ilə ölüb torpağa çevrilməyi nəzərdə tutur) istifadə edilmişdir.

Dostlar, onun əlini öpmək arzusundan ölsəm, torpağımı kuzə eyləyin, onunla yara su verin (heç olmasa yarın dodaqları mənim torpağımdan olan kuzəyə dəysin).

Qumrunun yalvarışlarından sərv özünü çəkir, istəyir ki, su ətəyini tuta, ayağına düşə yalvara. Beytdə təşxis, istiarə və touzi («r» samiti – I beytdə, «ə» və «a» saitləri ilə) kimi poetik fiqurlardan istifadə edilmişdir.

Su bir hiylə ilə bülbülün qanını içmək istəyir, gül budağının damarına girib qurtarmağa çalışır. Beytdə təşxis, təlmih («Bülbül və gül» hekayətinə işarə mənasında) vardır.

Su dünya əhlinə təmiz təbiətini açıqlamış və Əhmədi Muxtarın (Məhəmməd peyğəmbərin) yolunu təqlid etmişdir (o yolu tutmuşdur). Beytdə təşxis vardır.

Verdiyimiz nümunədəki son beyt girz (qəsidədə nəsibdən əsas mətləbə keçid beyti) məqamındadır. Burada suyun təmizlik əlaməti ilə islam dininin bir saflıq, batini təmizlik dini olması arasında bənzəyiş yaradılmışdır.

Qəsidədə Allahın rəsulu bəşəri xilqətin ağası, paklıq incisinin dəryası, möcuzələri yamanlıq ocağı üzərinə su səpən «xeyrül-bəşər», «həbibullah» (Allahın dostu), etiqad suyu ilə atəşxanaların odunu söndürən, kafəri müsəlman edən şəxsiyyət kimi təqdim edilir. Suyu adi həyat predmetindən rəmzi-alleqorik səviyyəyə qaldıran, onu təşxis yolu ilə etiqadı statusa malik bir obraz kimi səciyyələndirən şair suyun da təşnə bir həsrətlə peyğəmbərin didarına tələsdiyini söyləyir. Təşnəliyin məlhəmi olan su özü də rəsulun görüş eşqinin təşnəsidir. Buna görə də daim onun ayağı dəyən torpağa yetişməyə, bu torpağa zərrə-zərrə nur salmağa can atır:

Xaki-payinə yetəm der, ömrlərdir müttəsil,

Başını daşdan-daşa vurub gəzər avarə su.

Zərrə-zərrə xaki-dərgahinə istər sala nur,

Dönməz ol dərgahdan, gər olsa parə-parə su.

Divandakı mənqəbətlər içərisində bir neçəsi 1-ci imam Əli ibn Əbutalibə həsr olunmuşdur. Azərbaycan dilindəki «Olur», fars dilində qələmə alınmış «Qışın günündə səhər başlayıb soyuq ruzgar» və s. qəsidələr bu qəbildəndir. Bu tipli şeirlərdə İmam Əli müqəddəs bir şəxsiyyət kimi tərənnüm edilir. Füzulinin bu mövzuya xüsusi diqqət yetirməsi təbii idi. Çünki məzhəbi inancına görə şiə olan şair həm də uzun illər Nəcəfdə İmam Əlinin türbəsində ruhani olaraq fəaliyyət göstərmişdi.



Adını çəkdiyimiz ikinci qəsidənin nəsib hissəsi qış fəslinin dolğun təsvirinə həsr edilmişdir. Bu, «Xəzaniyyə» şeir növünün mükəmməl örnəklərindən biridir.

Qışın günündə səhər başlayıb soyuq rüzgar,

Ağacların canına sanki qorxu, lərzə salar.

Demə ki, yer çəkib ağuşə şövqili günəşi,

Demə, ağ örpəyini dağ başına sərmiş qar.

…Uzatma bəhmən ayında əlini arx suyuna

Ki, onların birisi zəhrdir, biri şahmar.

Yağış havada soyuqdan elə düymələndi

Ki, oldu qətrələrin hər biri düri-şəhvar.

Mövzu etibarı ilə Füzuli qəsidələrinin mühüm bir qismi mədhiyyələrdən ibarətdir. Daha çox dünyəvi motivlə «yüklənmiş» bu əsərlərdə şairin müasiri olan ayrı-ayrı vəzifəli şəxslər, ixtiyar sahibləri tərif edilir. Osmanlı hökmdarı Sultan Süleyman Qanuni, Əlvənd bəy, İbrahim Paşa, Mustafa Çələbi, Ayas Paşa və b. görkəmli şəxsiyyətlər Füzuli mədhiyyələrinin ünvanında dayanır.

Şairin «Gül», «Səba» rədifli, həmçinin «Nə xoşdur əldə gülgun cam, başda eşq sevdasi» misrası ilə başlayan qəsidələri Sultan Süleymana həsr edilmişdir. Sonuncu şeir forma-struktur cəhətdən

ənənəvi qəsidələrdən fərqli, orijinal şəkli xüsusiyyətə malikdir. Belə ki, qəsidənin mətni ayrı-ayrı bəndlərə bölünür. Daha doğrusu, qafiyə sistemi bir-biri ilə bağlı olmayan müstəqil bəndlər şəklində tərtib edilmişdir. Yəni hər bənd müstəqil qafiyə quruluşuna malikdir. Səkkiz bənddən ibarət qəsidənin 1-ci bəndi 2, 2-ci bəndi 3, 3-cü bəndi 4, 4-cü bəndi 5, 5-ci bəndi 6, 6-cı bəndi 7, 7-ci bəndi 8, 8-ci bəndi isə 9 beytdən ibarətdir. Forma baxımından fərqli olsa da, əsərdə janrın tələblərinə müvafiq təmtəraqlı üslub, mübaliğə, müqayisə və təşbehatlar, pafoslu dil ənənəvi qaydadadır. Şeir quruluşca həm də tərkibbəndi xatırladır.

Sənətkarın maraqlı qələmiyyələri də vardır. Mustafa Çələbinin mədhinə həsr olunmuş «Qələm» rədifli, habelə fars dilində yazılmış «Mərhəba, ey qələm, ey şəm'i-şəbüstani-məqal» misrası ilə başlayan şeirlər orta əsrlər poeziyamızda meydana gələn səviyyəli qələmiyyələrdən sayıla bilər. «Qələm» rədifli azərbaycanca qəsidədə müəllif Mustafa Çələbini bir predmet-vəsilə kimi qəbul etdiyi qələmin atributları fonunda tərifləyir.

Füzulinin zikr etdiyimiz mövzuda qələmə alınmış bəzi qəsidələrində dövrün müəyyən sosial-siyasi və tarixi hadisələrinə də toxunulur. Bu mənada həmin əsərləri yalnız mədhiyyə ədəbiyyatımızın nümunələri kimi yox, həm də bədii-tarixi sənəd statusunda qəbul etmək mümkündür. Məsələn, şairin Bağdad valisi Ayas Paşaya ithaf olunmuş bir neçə qəsidəsi mövcuddur. Həmin şeirlərdə o zaman Bağdad və onun ətrafında baş verən ictimai-tarixi hadisələrdən, Bəsrə və Cəzair şəhərlərində baş verən üsyanların yatırılmasından, düşmənin nəzarətində olan Bağdad-Bəsrə ticarət yolunun açılmasından və s.-dən də danışılır. Həmçinin Bağdad və çevrəsində baş verən müəyyən mədəni və iqtisadi-təsərrüfat yenilikləri, bu yönümdə inkişafa təkan verə bilən irili-xırdalı bəzi uğurlar xatırlanır. Bu isə deyilən ərazilərdə mövcud olan ictimai-mədəni, iqtisadi-tarixi həqiqətləri anlamaqdan ötrü faydalı informasiyanın bədii mətndə hifz olunması, gələcək nəslə ötürülməsi deməkdir.



Sənətkarın qəsidələrində humanizm, xalqsevərlik, insana qayğıkeş münasibət, qanuna hörmət, zülm və ədalət, gözütoxluq, insaf, mərhəmət və s. kimi ictimai problemlərə də toxunulur. Müəllif deyilən mətləbləri oxucuya, xüsusilə də hökmdarlara, hakimlərə, rütbə və ixtiyar sahiblərinə xatırladır. Əbədi olmayan dünyada ancaq xeyir əməllərin yaşayacağını söyləyir. Onları xeyirli əməllərə təşviq edir. Bağdad hakimi Məhəmməd Paşaya həsr edilmiş bir şeirində şair hökm və hakimlərin rəftarı barədə rəyini, tövsiyələrini belə ifadə edir:

Hökmdür hökm ki, dünyayə verər ziybi-nizam,

Hökmdür hökm ki, din rəsmini eylər əhya.

Hökm gər olmasa dünyayə salır zülm fəsad,

Hökm gər olmasa bulmaz nəsəqi-mülk bəqa.

Hakim oldur ki, müvafiq ola hökmünə qədər,

Hakim oldur ki, mütabiq ola əmrinə qəza.

Hakim oldur ki, onun olmaya zatında təmə',

Hakim oldur ki, onun olmaya felində riya.

Şəm'dən görsə ki, pərvanəyə bir zülm yetər

Kəsə başın, deməyə zaye olur nəfi-ziya.

Farsca qələmə alınmış «Ənisül-qəlb» («Ürək dostu») Füzulinin irihəcmli və məşhur qəsidələrindən biridir. Əsər mövzu etibarı ilə ictimai-fəlsəfi, əxlaqi-didaktik ruhludur. XII əsr Azərbaycan şairi Xaqani Şirvaninin «Qəsideyi-şiniyyə»sinə cavab kimi yazılmışdır. Şirvanlı sənətkarın həmin məşhur şeirinə Ə.X.Dəhləvi və Ə.Cami də nəzirə yaratmışlar. M.Füzuli öz

söz abidəsinin sonunda bu məsələni xatırladaraq göstərir ki, üç kamal sahibi, yəni Xaqani, Dəhləvi və Cami bədii sözdən yaradılmış bu qəsri ucaltdılar. Ancaq qəsr üç künclü idi. Mən onun dördüncü küncünü hörüb tamamladım və ona «Ənisül-qəlb» adını qoydum.

Qəsidədə qoyulan əsas problem kainatın müşərrəf xilqəti olan insan, onun cəmiyyətdə, həyatda rolu, amalı, yaşayışının mənası, əməli fəaliyyətinin istiqaməti ilə bağlı düşüncələrdir. Burada bəndənin yaradıcı qüvvə, cəmiyyət və öz daxili «mən»i ilə münasibətləri, bir fərd kimi onların qarşısındakı borcu, fəaliyyət yolunun ümumi axarı müəllifin baxış bucağından şərh edilir. Şeirdə poetik-fəlsəfi intonasiya, didaktik təlqin, insani ləyaqətə çağırış ruhu güclüdür. Mütəfəkkir şair göstərir ki, Allahın bəzək vurub yaratdığı bu dünyada insanın mövqeyi hər şeydən üstündür. İlahi bu üstünlüyün sübutu kimi onu təşxis edərək dil və söz əta etmişdir. Halbuki çoxu öz dilinin qədir-qiymətini bilmir. Sözün şəni çox böyükdür. Dua, vəhy və Quran da sözdən ibarətdir. Mərifət paltarını ancaq söz vasitəsi ilə qazanmaq olar. Çalış, sözlə kifayətlənmə, onun vasitəsi ilə ürfan kəsb et ki, əql sənin hökmünə tabe olsun. Biliksiz, məğrur və həqiqətlərdən xəbərsiz alim əslində nadandır. Riyakarlıq və təkəbbür onun bəsirət gözünü bağlamışdır. Əslində həqiqət sirri gözlərdən elə gizlənmişdir ki, hikmət əhli bu müəmmanı ağılla deyil, yalnız bəsirətlə, ilahi fəzilət kəsb etməklə anlaya bilər.

Şair hərisliyi, tamahkarlığı, mal-mülk vurğunluğunu, cahanda nəfsi niyyətlər ucbatından baş verən cahangirlik əməllərini lənətləyir:

Gözü doymaz hərisin dəhrdə, çünki həris insan

Olarsa şahi-İran tutmaq istər mülki-Turani.

Tamahla odlanan bir qəlbin heç vaxt atəşi sönməz

Qızıldan ötrü şiddət kəsb edər hər ləhzə böhrani.



Sənətkar hökmdar və xalq probleminə xüsusi diqqət ayırır. Şahları ədalətə, rəiyyətlə insaflı davranışa dəvət edir:

Olarsa şah zalım, xəlq xoş gün görməz aləmdə,

Xilas olmaz bəladən bir qoyun, qurd olsa çobani.

Sənin xeyrin üçün kəndli ağac əkmişdir, ey hakim,

Kəsib təxt qurma ondan, eyləmə məyus dehqani.

Naseh şairin nəzərində səxavət əhli riyadan, acgözlükdən uzaq olmalıdır. Kərəm əhli nəinki dostun, hətta düşmənin də yarasına məlhəm edən kimsədir. Fəqirə ruzi verən əslində «tə'yidi-sübhan»dır. Ona görə də bəndə qəlbində hər şeyin səbəbkarı və ixtiyar sahibi olan Xudadan qeyrisinə yer verməməlidir. Arif kimsələr maddi aləm həvəslərinə nifrətlə yanaşar, alçaq ruzigara bağlanmaz, bunun üçün də dünya qəmindən qiyamət qorxusundan azad olarlar. Cahan qəminə, istəklərinə uymaq qəflət və cəhalətin bəhrəsidir:

Əsasi qəflət olmuşdur həyatın, yoxsa kim istər –

Bina tiksin, fələk yıxsın, aparsın sellər eyvani?

Müəllif mal-pul, sərvət sahiblərinə məsləhət görür ki:

Malın varsa, onu sərf et, əgər sən kamil insansan,

Çatarsan bil kəmalə sərvətin tapdıqda nöqsani.

Qəzəllərində olduğu kimi şair burada da bəndəyə cananın qəmi, kəmali-eşq ilə yaşamağı tövsiyə edir. Quranın bir nəsihət kitabı kimi nazil olduğunu, ondakı buyruq və göstərişlərə əməl etməyin zərurətini yada salır. Onu da iqrar edir ki:

Əgər bir kəs Xudanın varlığını istəyir isbat,

Bütün varlıqdır Allah varlığının əsl bürhani.

Müəllif zalımlara, imtiyaz, güc-qüvvət, sərvət sahiblərinə, keçmişi, həyat və ölümü, hər bir şan-şöhrətin müvəqqəti olduğunu xatırladır. Rüstəmi-zal, Firon, Nəmrud, Süleyman kimi qüdrət, cah-cəlal yiyələrinin taleyindən ibrət götürməyə çağırır. Göstərir ki, zəmanə şahları dünyanın əlvan şəkillərini görüb aldanan uşağa bənzəyərlər. Anlamazlar ki, çox keçməyəcək fələk onların başına tədriclə torpaq səpəcək. Şair yaxşılıq və pislik, ölüm və həyat məsələləri ilə bağlı belə bir yekunlaşdırıcı tərbiyəvi-ibrətamiz fikrə gəlib çıxır ki:

Çalış xəlqə xeyir ver, xoş sifətlərlə qazan hörmət,

Arı bal vermək ilə əldə etmiş şöhrəti, şani.

Bəzərsən cismini bica yerə əlvan libas ilə,

Gəlibsən lüt cəhanə, lüt edərsən tərk dünyani.

İstər ideya-məzmun, istərsə də bədii keyfiyyətinə görə «Ənisül-qəlb» qəsidə janrının incilərindən biri kimi diqqəti cəlb edir. Əsərdə irəli sürülən mətləb və qayə bu gün də öz aktuallığını saxlayır.

Sənətkarın «Fəzliyə nəsihət» qəsidəsi ictimai-tərbiyəvi, nəsihətamiz mövzudadır və müəllifin öz oğluna müraciəti tərzində yazılmışdır. Şair fərdi olaraq birbaşa oğluna xitab edərək ona gərəkli hesab etdiyi müəyyən məsələ barədə öyüd və məsləhət verir. Şeirdə əsas məqsəd təmsilat-müqayisə yolu ilə verilir. Yəni Füzuli Fəzlini (onun XVI əsrin şairlərindən olduğunu yuxarıda dedik) başa salmaqdan ötrü ona söyləmək istədiyi mətləblə analoji oxşarlıq təşkil edən ağac və onun meyvəsi ilə əlaqəli həyati hadisəni xatırladır. Göstərir ki, ağacın başında nəşvü nüma tapıb qidalanan meyvə tədricən ağacın sayəsində böyüyür. Ancaq elə ki, meyvə yetişdi artıq onların bir-birinə ehtiyacları qalmır. Deməli, bu zaman meyvə ağacdan ayrılmalıdır. Əgər ayrılmazlarsa, onların bir-birinə xətəri dəyər:



Meyvə dərilməz isə ağacdan bir qaydadır,

Dövran əlilə hər ikisinə yetər ziyan.

Həm meyvəni əzib, çürüdüb məhv edər hava,

Həm dəyər ağac başına daş zaman-zaman.

Şair oğluna deyir ki, həqiqətdə mən ağac, sən isə meyvəsən. Nə zaman ki, doğuldun mənə möhtac oldun, mənim sayəmdə böyüyüb gəncliyə yetişdin. İndi vaxtdır ki, məndən ayrılıb müstəqil yaşayasan:

Mənsiz yaşa, qazan özünə hörmət, etibar,

Mən maneyəm, yoxunsa bu gün nam ilə nişan.

Qəsidənin ümumi məzmunundan aydın olur ki, o, müəllifin bədii təfəkkürünün ahıl yaşlarının məhsuludur. O, qocalmış, cismi zəifləmişdir. İndi oğluna öyüd və nəsihət verib bildirir ki, daha mənə yük olmağın, mənim sayəmdə dolanmağın rəva deyil. Gəncsən, özünə müstəqil həyat qur, sərbəst şəkildə ruzi qazan, öz məişətini, güzəranını özün təmin et. Bu müraciət və nəsihətlərin ahəngində bir məzəmmət, şairin övladından incikliyi də sezilməkdədir.

«Fəzliyə nəsihət»dəki ideya-mətləb əslində bir şəxsə deyil, ümumiyyətlə, gəncliyə xitabdır. Həyati təcrübə qazanmış ağıllı bir valideynin gənclərə tövsiyəsi, öyüdü, həyat göstərişləridir.

Nəticə

Şərq poeziyasının müxtəlif janrlarında şeirlər yazan M.Füzuli başqa janrlarda nə qədər böyük uğur qazanmışdırsa, qəsidə janrında da bir o qədər müvəffəqiyyət əldə etmişdir. Onun qəsidələri Azərbaycan, türk və şərq poeziyasını daha da zənginləşdirmişdir. Sənətkarın qazandığı uğur həm mövzu, ideya-məzmun, həm də sənətkarlıq məsələlərində özünü bariz şəkildə göstərir. Belə ki, onun qəsidələri mövzu, ideya-məzmun cəhətdən nə qədər maraqlı, rəngarəng və əlvandırsa, sənətkarlıq baxımından da bir o qədər səviyyəlidir. Müəllif qəsidələrində şərq ədəbiyyatına məxsus məcaz növlərindən bol-bol yararlanmış, onlara bir forma gözəlliyi aşılamışdır. Onun Azərbaycan türkcəsində qələmə aldığı qəsidələri anadilli poeziyamızın son dərəcə qiymətli poetic incilərindən sayıla bilər. O, bu qəsidələri ilə anadilli poeziyamızı xeyli zənginləşdirmişdir.

**Ədəbiyyat**

1. Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı, 1958

2. Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, 1998

3. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı, 2018

4. Əliyev S. Füzulinin poetikası. Bakı, 1986

5. Füzuli M. Əsərləri, 5 cilddə (tərtib edəni: Araslı H.), Bakı, a) IV c., 1961; b) V c., 1985

6. Füzuli M. Əsərləri, 6 cilddə (tərtib edəni: Araslı H.), IV cild, Bakı, 2005

7. Füzuli M. Seçilmiş əsərləri. 2 cilddə. I c. (lirik əsərləri-şərhlərlə. Tərtib edəni: Yusifli X.) Bakı, 2005; II c. (epik əsərləri-şərhlərlə. Tərtib edəni: Xəliloğlu S.), Bakı, 2005

8. Hikmət İ. Azərbaycan ədəbiyyatı tarixi. 2 cilddə, II c., Bakı, 1928

9. Köçərli F. Azərbaycan ədəbiyyatı. 2 cilddə.I c., Bakı, 1978

10. Quluzadə M. Füzulinin lirikası. Bakı, 1965

11. Məhəmməd Füzuli (məqalələr toplusu). Bakı, 1958

# TEODOR DRAYZERİN "KERRİ BACI" ROMANINDA BURJUA HƏQİQƏTLƏRİ

**Aynur Zahir qızı Bədəlova**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi**

**Xülasə**

Kerri bacı şübhəsiz ki, Amerika ədəbiyyatında ilk sosial realist romandır. Bu əsərdə Drayzer sələflərindən fərqli olaraq reallığın ziddiyyətlərini daha dərindən dərk etmiş və bunu tipik obrazlarda əks etdirə bilmişdir. Drayzerin məzlum xalqa rəğbəti romanın əsasında dayanır və həyat həqiqətini obyektiv təsvir etməyə imkan verir. Məqalədə Amerika burjua gerçəkliklərinin ifadəsi araşdırılmış və romanın məziyyətləri əsasında bir sıra məsələlərə aydınlıq gətirilmişdir. Yazıçı "qüsursuzluq" pərdəsi altında gizlənən hakim sinfin mənəvi azğınlığını təsvir edirdi. Əsərdən belə bir nəticə çıxarmaq olar ki, burjua cəmiyyətinin məntiqinin özü insanları əxlaqsız hərəkətlər etməyə məcbur edir. Əsərdəki hadisələr Amerika reallığını vəhdətdə təsvir etdirən iki fərqli məkanda cərəyan edir. Yazıçı onlardan birini kəskin ifşa edir, digərini isə böyük təəssüf hissi ilə təsvir edir.

***Açar sözlər:*** yazıçı, realizm, obraz, ziddiyyət, cəmiyyət

**Abstract**

Sister Carrie is arguably the first social realist novel in American literature. In this work, unlike his predecessors, Dreiser understood the contradictions of reality more deeply and was able to reflect this in typical images. Dreiser's sympathy for the oppressed people is the basis of the novel and allows an objective description of the truth of life. In the article, the expression of the American bourgeois realities was investigated and a number of issues were clarified based on the merits of the novel. The writer described the moral depravity of the ruling class hiding under the veil of "imperfection". It can be concluded from the work that the very logic of bourgeois society forces people to commit immoral acts. The events in the work take place in two different places that describe the American reality in unity. The writer sharply exposes one of them and describes the other with great regret.



***Key words:*** writer, realism, image, contradiction, society

## GİRİŞ

Teodor Drayzerin ilk romanı 1900-cü ildə nəşr olunmuşdur. Roman ictimaiyyət və tənqidçilər tərəfindən dərhal qəbul edilməmişdi. "Kerri bacı" romanı əxlaqsızlığına və ənənəvi Amerika dəyərlərinə uyğun gəlmədiyinə görə ictimaiyyətdə və ədəbi təbqid sahəsində rədd edilmişdi. Amerikada 500 nüsxəsi çap olunmuş və daha sonra çapına və satışına qadağa qoyulmuşdu. İngiltərədə isə "Kerri bacı" əsəri daha yaxşı qarşılanmışdır. Bundan sonra 1907-ci ildə roman ABŞ-da yenidən nəşr olunmağa başlayır və beləliklə həm Amerikada həm də bütün dünyada böyük rəğbət qazanır. Kerri bacı şübhəsiz ki, Amerika ədəbiyyatında ilk sosial realist romandır. Bu əsərdə Drayzer sələflərindən fərqli olaraq reallığın ziddiyyətlərini daha dərindən dərk etmiş və bunu tipik obrazlarda əks etdirə bilmişdir. Drayzerin məzlum xalqa rəğbəti romanın əsasında dayanır və həyat həqiqətini obyektiv təsvir etməyə imkan verir. Drayzer böyük sənətkarlıqla sübut edir ki, Amerika yoxsullar üçün heç də arzuolunan ölkə deyil, bu yazıçıların yalnız "zərif realizmində" əksini tapırdı. Yazıçı bədii vasitələrdən istifadə edərək, Amerika cəmiyyətini

sosial-iqtisadi və siyasi-ideoloji baxımdan hərtərəfli təhlil edir və belə naticəyə gəlir ki, adi insanların çox cüzi bir hissəsi "uğur" qazanır, onların əksəriyyəti xoşbəxtlik uğrunda qeyri-bərabər və amansız mübarizə aparır və çox zaman məğlubiyyətə uğrayır. Cəmiyyətin səciyyəvi nümayəndələri olan və həyatın keşməkeşli mərhələlərində addımlayan qəhrəmanların timsalında yazıçı göstərir ki, "uğur"a aparan yol pozğunluqdan, cinayətlərdən, yalançılıqdan keçir. Bu mövqeni yazıçının eyniadlı romanının baş qəhrəmanı Kerrinin taleyidə görürük. Obyektiv olmaqla yazıçı oxucunu belə qənaətə gətirir ki, Kerri burjua cəmiyyətinin qayda və qanunlarına uyğunlaşdığı üçün qalib gəlib. Drayzer zənginlik arzusunda olan insanların əxlaqi keyfiyyətlərdən məhrum olması fikrini də ifşa edir. Kerri mənəvi uğursuzluq yaşadı. O, cəmiyyətin qeyri-bərabər nərdivanı ilə nə qədər yüksəklərə qalxırsa, bir o qədər sürətlə əxlaqsızlıq uçurumuna yuvarlanır və qalan mənəvi hisslərindən məhrum olur. Amerikalı jurnalist öz romanında (bu əsərlə Dayzer bədii  karyerasına başlamışdır) XIX əsrin 90-cı illərində ABŞ üçün klassik olan "Amerika arzusu"nun reallaşdırılması problemini qaldırmışdır. Əsərin əsas qəhrəmanı Kerri Miber on səkkiz yaşına çatdıqdan sonra kiçik, əyalət şəhəri olan Kolumbiya Sitidən Çikaqoya köçür. Qız, o dövrün əksər amerikalıları kimi, tək bir arzu ilə yaşayır- bu şəhəri fəth etmək və orada böyük uğurlar əldə etməsə də heç olmasa onun ayrılmaz bir hissəsi olmaq.

Klassik əxlaqi dəyərlər ruhunda tərbiyə olunan Kerri tez yolunu azır. Buna səbəb əlverişsiz və çətin həyat şəraiti - iş təcrübəsinin olmaması, ayaqqabı fabrikində ağır iş, qışda isti paltarının olmaması, xəstəlik və digər problemlər olur.  Təbiətcə passiv və xəyalpərəst bir qız, gözəlliyə heyran olan və indiyə qədər naməlum xoşbəxtlik ümidləri ilə yaşayan gənc Druenin cazibəsinə asanlıqla tabe olur. Bir küncə sıxışdırılmış, seçim qarşısında qalmış, valideynlərinin yanına qayıtmaq və ya Çikaqonu fəth etməyə davam etmək fikirləri arasında çırpınan Kerri hər şeyi həll etmək ümidi ilə əxlaq dəyərlərini aşmağa başlayır və  yeni məşuqə mövqeyi ilə asanlıqla barışır. Mənbələrin birində çox doğru qeyd olunur: *"Romanda qadın xoşbəxtliyinə aparan yolun təmiz və şərəfli, bu yolla gedənin isə ləyaqətli, namuslu, günahsız olduğunu vəsf edən Amerika həyat tərzi, sadə insanların mənəviyyatını pozan, onların saf, bakirə əxlaqına təcavüz edən burjua cəmiyyəti ciddi tənqid edilmişdir".  [2]*



Əvvəlcə qız Druenin onunla evlənməsini gözləyir. Sonra eyni ümidləri Herstvuda bağlayır. Rahat yaşamaq arzusunda Kerri artıq evli bir kişi ilə toyu nominal dəyəri ilə qəbul edəcək qədər irəliləyir, amma  bu onun üçün faydalı olmaqdan çıxan ana qədər edir. Hestvurd müflisləşən kimi  Kerri teatr sahəsində pul və şöhrət qazanmağa başlayır və onu tərk edir.

Bar meneceri, qırx min dollarlıq böyük sərvətin sahibi və Çikaqoda hörmətli bir ailənin sahibi Corc Herstvud darıxmağa başlayana və gənc və sevimli Kerri ilə maraqlanmağa başlayana qədər həyatında hər şey yaxşı gedir. Yüksək sosial status və pul Herstvudu xoşbəxt etmir. Həyatını məna ilə dolduran yeganə şey sevgidir. Onun düşüncəsi ilə insan həyatında heç olmasa bir dəfə xoşbəxtliyi bilməlidir və şərəfdən, həqiqətdən əl çəkmək bahasına olsa da bunu etməlidir. Məhz bunun naminə o,  nüfuzlu tanışlarının itkisinə dözməyə hazırdır. Lakin tanış mühiti tərk etmək və qocalığa yaxınlaşmaq Herstvudun yenidən nüfuz qazanmasını qeyri-mümkün edir. Min dollara aldığı Nyu-York barında payını itirən Herstvud işsizliklə üz-üzə gəlir.

Romanda gənc ticarətçi Çarlız Drue obrazı XIX əsr amerikalı obrazının tipik səciyyəsidir. Karyera qurmaq, qadınları yoldan çıxarmaq, bütün mövcud həzzlərdən dadmaq - sevgi, pul, dəbli geyim, ləzzətli yemək, nüfuzlu tanışlar və s. Druenin həyat tərzi və həyatdan mövcud gözləntiləridir. Onun taleyində və xarakterində heç bir dəyişiklik baş vermir. Heç nəyi ciddiyə almayaraq Herstvud kimi səhv etmək imkanından da məhrumdur. Konkret bir şeyə can atmadan Kerri kimi qadını əldə edir, lakin sonra da itirir.

Romanın sonu müəllifin "Amerika arzusu"nun dəyəri haqqında fikirlərini yekunlaşdırır. Şöhrət və sərvət qazanan Kerri pulunu nə edəcəyini bilmir, kişilərə etibar etmir və əyləncəli komediya tamaşalarında oynamaqla kifayətlənir. Əslində o qadın kimi xoşbəxtlik qazana bilmir, onun mənəvi aləmi yaxşılaşmır. Əlbəttə, qarşıda onun parlaq həyatı var, mənəvi oyanış konsepsiyası baxımından o, özünü tapmaq üçün həyatını sonsuz axtarışda keçirəcək. Herstvudun isə mənəvi ölümü baş verdikdən sonra yazıçı bizə onun cismani ölümünü yaşadır. O, Kerridən ayrılandan sonra artıq onun həyatı bitir. Hər şeyini - ailəsini, cəmiyyətdəki mövqeyini, pulunu, sevgisini, bir insan kimi özünə hörmətini itirərək yazıçı xarakterin həyatda yaşamasına lüzum görmür. Beləliklə, o intihar edir.

Uğur heç kimə xoşbəxtlik gətirmir - nə Kerriyə, nə də Herstvuda. "Amerika arzusu" yalnız Çarlz Drue kimi hər gün yaşayan və mürəkkəb mənəvi istəkləri olmayan insanlar üçün yaxşıdır.

Teodor Drayzer ilk romanında özünü şifahi janrın ustası kimi göstərdi. O, bədii konsepsiyanın həyata keçirilməsinə diqqətlə və ciddi yanaşmış, hər fəslə iki başlıq verirdi. "Kerri bacı" əsərində yazıçının bədii üslubu aydın, yığcam, canlı metaforalarla, təsvirlərlə, sadə və başa düşülən dialoqlarla, konkret problem və ya xarakterlə bağlı kiçik şəxsi düşüncələrlə səciyyələnir.

Kerrinin səhnədəki ilk uğurundan danışan yazıçı qeyd edir ki, insanda iddialı istəklərin oyanmasını, daha yüksək mənəvi səviyyəyə çatmaq istəyini müşahidə etməkdən daha sevindirici bir şey yoxdur. Bu, insanın daha güclü, inamlı və daha iddialı mövqedə olmasını təmin edir.

Romanda XIX əsrin sonlarında ABŞ-a xas olan bir sıra gerçəklikləri - çirkli fabrik işlərinin qeyri-mütəşəkkilliyi, iri şirkətlərin pula qənaət etmək istəyini, işçilərə heç bir güzəştlərin qoyulmamasını təqdim edir. Əsərdə Bruklində tramvay işçiləri, işsizliyin və dilənçilərin mövcudluğu, cəmiyyətin varlı və kasıba bölünməsi və eyni zamanda - Amerikada teatr sənətinin inkişafı təsvir edilir. Drayzer romanı burjua əxlaqının ikiüzlülüyünü ifşa edir və ümumbəşəri prinsiplərə əsaslanan dəyərlər sisteminə riayət etməyə cəsarətli çağırış kimi səslənir. Yazıçı "qüsursuzluq" pərdəsi altında gizlənən hakim sinfin mənəvi azğınlığını təsvir edirdi. Əsərdən belə bir nəticə çıxarmaq olar ki, burjua cəmiyyətinin məntiqinin özü insanları əxlaqsız hərəkətlər etməyə məcbur edir. Əsərdəki hadisələr Amerika reallığını vəhdətdə təsvir etdirən iki fərqli məkanda cərəyan edir. Yazıçı onlardan birini kəskin ifşa edir, digərini isə böyük təəssüf hissi ilə təsvir edir.



**Ədəbiyyat**

1. Teodor Drayzer. Kerri bacı. Bakı.Avrasiya press,2006. 472 səh.
2. https://bbclub.az/welcome/book/teodor-drayzer-kerri-baci
3. https://edebiyyatveincesenet.az/index.php/en/gundem/item/363-bu-zhun-dahi-teodor-drayzerin-150-illiyi-geyd-olunur

# TEODOR DRAYZERIN "AMERIKA FACIƏSI" ROMANINDA KLAYD XARAKTERININ FACIƏ KOSEPSIYASI

**Aynur Zahir qızı Bədəlova**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi**

## Xülasə

Teodor Drayzer məşhur amerikalı yazıçı, jurnalist bir çox məşhur romanların müəllifi, realist üslubunun görkəmli nümayəndəsidir. Onun ən məşhur və ən çox oxunan romanı 1925-ci ildə nəşr olunan "Amerika faciəsi" romanıdır. Bu roman yazıçının yaradıcılığında dönüş nöqtəsi hesab edilir. O, dərhal ədəbi sensasiyaya çevrilmiş və Teodor Drayzer bu romanı ilə məşhurlaşmışdı. Məqalədə romanın məziyyətlərindən danışılmış və yazıçının romanda əks etdirdiyi mühit, faciəvi xarakter XX əsr Amerika həyatının real təsvirləri fonunda araşdırılmışdır. Həmçinin belə qənaətə gəlinmişdir ki, əgər insan həyatının faciəvi dönəmində yalnız özü ilə tək qalırsa, cəmiyyət insanı cinayətə sövq edənin nə olduğunu anlamaq istəmirsə, onun sosial, ictimai mənasını açmağa çalışmırsa, o zaman fərdin faciəsi məhz cəmiyyətin faciəsinə çevrilir və tədricən o sağalmaz mərhələyə çatır ki, belə bir cəmiyyətə heç bir şey kömək edə bilmir.

***Açar sözlər:*** yazıçı, təsvir, xarakter, həqiqət, faciə, cəmiyyət



## Abstract

Theodore Dreiser is a famous American writer, journalist, the author of many famous novels, a prominent representative of the realist style. His most famous and most read novel is "American Tragedy" published in 1925. This novel is considered a turning point in the writer's creativity. It immediately became a literary sensation and Theodore Dreiser became famous for this novel. The merits of the novel were discussed in the article, and the environment and tragic character reflected by the writer in the novel were examined against the background of realistic depictions of 20th century American life. It was also concluded that if a person is left alone with himself during the tragic period of his life, if the society does not want to understand what reflected a person to commit a crime, if it does not try to reveal its social meaning, then the tragedy of the individual becomes the tragedy of the society and gradually reaches an incurable stage and nothing can help such a society.

***Key words:*** writer, description, character, truth, tragedy, society

## GIRIŞ

Teodor Drayzer 1871-ci il avqustun iyirmi yeddisində İndiana ştatında anadan olmuş və 1945-ci ilin dekabr ayında Hollivudda vəfat etmiş məşhur amerikalı yazıçı, jurnalist olmuşdur. Teodor çox dindar bir ailədə anadan olmuş, atası dindar bir katolik idi və anası da katolikliyi qəbul etmişdi. Ailədə on üç uşaq idilər. Teodor Drayzer İndiana universitetində təhsil almış və bununla yanaşı müxtəlif mövzularda məqalələr yazmış və bir müddət sonra müxbir kimi fəaliyyət də göstərmişdir. O, cinayət, siyasi hadisələrlə maraqlanır, həm də ictimai xadimlərdən müsahibə də götürürdü.

Drayzer əsərlərini nəhəng müşahidə və təcrübə materialına əsaslanaraq yazırdı. Onun yaradıcılığı dəqiq təsvir sənəti, faktlar və hadisələrin bədii əksini özündə ifadə edən bir sənətdir.

Drayzer Amerika xalqının gündəlik həyatını ən xırda detalları ilə çatdırır, bəzən demək olar ki, tamamilə reallıqdan götürülmüş təsvirləri təqdim edir. Amerika tənqidçiləri Drayzeri dəfələrlə üslubunun olmamasında, onun xüsusi mahiyyətini dərk etməməkdə günahlandırırlar.

Onun ilk romanı olan Kerri bacı (1900), kənddən böyük şəhərə - Çikaqoya gələn və real Amerika həyatının gerçəklikləri ilə üz-üzə qalan kasıb qızın sonda arzularının gerçəkləşməsindən, məşhur aktrisaya çevrilən 18 yaşlı bir qızın hekayəsindən bəhs edir.

Ədəbiyyatşünaslıq və tənqid sahəsində yazıçının ilk romanı böyük düşmənçiliklə qarşılanır və nəşriyyatlar əsəri "əxlaqsız" bir əsər adlandıraraq satışını dayandırırlar. Kitabın cəmi 500 nüsxəsi yayılır və bu da gənc yazıçını çox təəssüfləndirir və həvəsdən salır. Yazıçının ilk əsəri ona uğur deyil, daha da rüsvayçılıq gətirir.

Yazıçının növbəti romanı "Maliyyəçi" (1912) romanı olmuşdur. Drayzer bu romanda maliyyə mühitini təsvir etmiş və budur banklar və monopoliyalar, istehsal və kapital ölkəsi deyərək maliyyə mühitinin bütün gerçəkliklərini göstərmişdir. Baş qəhrəman amerikalı maqnat Frenk Kaupervuddur. Drayzer romanı Amerikalı milyonçu Çarlz Yerksin həyatı əsasında yazmışdır.

Amma yazıçısının ən məşhur və ən çox oxunan romanı 1925-ci ildə nəşr olunan "Amerika faciəsi" idi. Bu roman yazıçının yaradıcılığında dönüş nöqtəsi hesab edilir. O, dərhal ədəbi sensasiyaya çevrilmiş və Teodor Drayzer bu romanı ilə məşhurlaşmışdı. Dövrümüzün tərifinə görə bu kitabı triller adlandırmaq olar. Bu roman hər bir oxucusunun ruhunda həssas iz buraxmış bir əsərdir. Robertanın ilk sevgisi onun üçün çox faciəvi bitir. Klayd Qriffitsin zəngin bir qızla evlənməyi xəyal etməsi və Robertanın buna mane olması cəmiyyətin yüksək təbəqəsində yer almaq arzusuna çatmaq niyyəti səbəbindən Qriffitsin Robertanı öldürməsi, nəticədə özünü də məhv etməsi ilə əsər sonlanır. Personajların həyatı faciəli şəkildə başa çatır: Robertanın ölümü və onun qətlində ittiham olunan Klaydın məhkum olunması sonda onun elektrik stulunda həyatını başa vurmasına gətirib çıxarır. Yazıçı romanı yazdığı dövrdə hər bir amerikalının xoşbət olmaq arzusu pul qazanmaq, bahalı paltarlar geyinmək, restoranlarda nahar etmək-bir sözlə yüksək nüfuz sahibinə çevrilmək kimi xəyallar üzərində qurulurdu. Əsərin qəhrəmanı Klayd da həyatda xoşbəxt olmağın yeganə yolunu bunda görürdü. O, bunun üçün qarşısını kəsən bütün maneələri dəf etməyə çalışır və öz arzularının gerçəkləşdirmək üçün özünü bu həyatın içinə atır. Roman Amerika həyat tərzinin acı gerçəklərinin və Amerika həyatının görünməyən tərəflərinin bədii şəkildə ifadəsidir. Klaydın şöhrətpərəstlik arzusu onun həyatının sonu olur.



"Amerika faciəsi" romanı Amerika arzusunun əslində zəhmətlə öz həyatınızı qurmaq, kasıb və ya zəngin ailədən olmanızdan asılı olmayaraq böyük uğurlara nail olmaq ideyası və arzusuna işarədir. Romanın baş qəhrəmanı Klayd Qriffits Amerika arzusunun yolu ilə gedir, lakin mühit və cəmiyyətdə gördükləri, mühitin təsiri onun bu arzuya çatmaq üçün səhv addımlar atması ilə və sonda onun faciəsi ilə bitir. Kasıb və çox dindar bir ailədə doğulan Klayd uşaqlıqdan maddi cəhətdən əziyyət çəkir, yoldaşları məktəbə getdiyi vaxtda o işləyib pul qazanmalı olur və bütün problemlərin öhdəsindən təkbaşına gəlmək məcburiyyətində qalır, valideynlərinin ona mənəvi dəstəyindən başqa heç bir dəstəyi olmur. Valideynlərinin Klayda təhsil vermək üçün nə pulu, nə əlaqələri, nə də imkanı olur.

Drayzer Klaydın baxışlarının həyat yoluna və taleyinə təsirlərini təsvir edir. Yazıçı insanın mühitin təsirindən dəyişməsini göstərir. Necə ola bilir ki, təvazökar və Allahdan qorxan, çalışqan bir gənc prinsipsiz, yalançı, fürsətçi və cinayətkar birinə çevrilir?!

Klayda əvvəlcə oxucuda böyük rəğbət hissi doğurur, lakin romanın sonunda oxucunun təəssüratları və hissləri əksinə dəyişir. Romanda yazıçı həmçinin XX əsrin əvvəllərində Amerikanın gündəlik həyatının müfəssəl təsvirini verməsini də qeyd etməliyik. Burada çoxlu

maraqlı detallar var, həm təvazökar fabrik işçilərinin, həm də yüksək cəmiyyətin maliyyə maqnatlarının həyatı yüksək səviyyədə təsvir olunmuşdur. Romanda obrazların və hadisələrin bütün təfərrüatların təsviri, personajların mənəvi və bədii əksi, psixologizm, ruh axtarışı, sıçrayışlar geniş bədii boyalarla öz ifadəsini tapar. Romanda Klaydın fikirləri XX əsr Amerika gənclərinin ümumi fikirlərinin ifadəsi şəklində verilmişdir. Klaydın qadınlara münasibəti xüsusilə oxucunu hiddətləndirir. O, kasıb, vicdanlı qızlarla evlənməyi heç bir zaman düşünmür, onların hissləri ilə oynayır. Klayd onların gözəlliklərinə heyran olsa da onun Amerika arzusu ona tamam başqa prinsiplərlə hərəkət etməyə vadar edir. O, yalnız varlı, nüfuzlu ailənin qızı ilə həyat qurmaq arzusundadır. Robertanın hamilə qalması onun bu yolda atdığı bütün addımların qarşısında böyük maneəyə çevrilir. Beləliklə, Klayd Robertanı öldürərək arzularının dalınca gedir. Amma sonra başa düşür ki, o, bu addımla nəinki Robertanın həyatına, həmçinin öz həyatına son qoyur. Həyat ona doğru yollarda işarələr verməyə çalışır, lakin Klayd inadla hər şeyi məhv etməyə davam edir. Nəticədə dəhşətli cinayət və ondan az olmayan bir cəza onun arzularının acı həqiqətinə çevrilir.

Klayd boş iddiallarla, ehtirasla sosial və maddi rifahın zirvələrinə çatmaq arzusundadır. Roman həqiqətən də dərin psixoloji əsərdir. Drayzer insan təbiəti üzrə mütəxəssisdir desək yanılmarıq. O, qəhrəmanların emosional təcrübələrini dəhşətli realizmlə çatdırır. Bu romanda o, kapitalist Amerika cəmiyyətinin mənəvi dəyərlərini tənqid etməyə davam edir və onu baş verən faciənin demək olar ki, əsas günahkarına çevirir.

Maraqlıdır ki, süjet əsl cinayət hekayəsinə əsaslanmışdır və bir çox ədəbiyyatşünaslar bu romanı F. M. Dostoyevskinin "Cinayət və Cəza" əsərinin Amerika analoqu adlandırırlar. Roskolnikov da, Klayd da kasıb ailənin nümayəndəsi, ehtiyac içində yaşayan və ailəsini saxlamaq üçün işləyərək əzab çəkən iki gəncdir. Onlar hər ikisi törətdiyi cinayəti qəsdən, amansızlıqla, istəyərək törətmirlər. Onları bu addımı atmağa vadar edən mühitdir. Mühit, ehtiyac, zəngin olmaq, xoşbəxt olmaq gerçəkliyi. Onlar hər ikisi şöhrəpərəstliyin qurbanına çevrilirlər.



Romanda təsvir olunan hadisələrin həqiqiliyi Amerika oxucuları tərəfindən heç vaxt mübahisə edilməmişdir. Ancaq bütün bunlara baxmayaraq, böyük sual yaranır. Bu roman hansı mənada Amerikanın tipik xüsusiyyətlərini əks etdirir və burada faciə nədədir? Bir sıra amerikalı tənqidçilər təsvir olunan hekayənin reallığı ilə ümumiyyətlə mübahisə etməsələr də, həm adi Amerikalı xarakterini, həm də faciəsini təkzib etmək üçün çoxlu arqumentlər də gətirməyə çalışırlar. Yəni, onlar deyirdi ki, bu hadısə başqa ölkələrdə də baş verə bilərdi. Əlbəttə, bilərdi. Amma bütün həqiqət ondadır ki, başqa ölkələrdə belə cinayətlərə nadir hallarda rast gəlinsə də yalnız Amerika Birləşmiş Ştatlarında nəyin bahasına olursa-olsun yüksək cəmiyyət adlanan təbəqəyə nüfuz etmək üçün idarəolunmaz arzunun diktə etdiyi cinayətlər geniş miqyas almışdı. İlk baxışdan nə qədər ziddiyyətli görünsə də, gənc amerikalılar böyük alim, tədqiqatçı, filosof və ya dövlət xadimi olmağa o qədər də can atmırdılar, çünki onlar uğuru, xoşbəxtliyi, sevgini pulda, yüksək nüfuzda görürdülər. Drayzer bunu Amerika cəmiyyəti üçün tipik bir hadisə kimi görür və bu əsasla da bu romanı yazır. Klayd Qriffitsin taleyi həqiqətən faciəlidir, baxmayaraq ki, onu bütün mənfi xüsusiyyətlərinin daşıyıcısı kimi faciəli qəhrəman hesab etmək olmaz. Onun faciəsi, taleyinin uğursuzluğu kapitalist dünyasında hər şeyi və hər kəsi müəyyən edən o ictimai qüvvələrdən tamamilə asılı olmasıdır. Klaydın reallıq qarşısında acizliyi, müstəqil düşünə bilməməsi, sadə görünən gündəlik vəziyyətlərin adiliyindən qurtula bilməməsi nəticə etibarilə onu ölümə aparır.

"Amerika faciəsi" əsərinin müəllifi Teodor Drayzerin məqsədi ondan ibarətdir ki, o, həyat və istəkləri haqqında adətən Amerika təsəvvürlərinə malik olan tipik amerikalı gənci Amerikanın gündəlik həyatının müxtəlif şəraitlərində təsvir edib və bu tipik gündəlik həyatın hansı faciəvi

nəticələrə səbəb ola biləcəyini göstərmişdir. Bu mənada Klayd Qriffits ümumi Amerikalı obrazdır və onun taleyi universallıq və konkretlik xüsusiyyətlərini qazanmış olur. Əgər insan həyatının faciəvi dönəmində yalnız özü ilə tək qalırsa, cəmiyyət insanı cinayətə sövq edənin nə olduğunu anlamaq istəmirsə, onun sosial, ictimai mənasını açmağa çalışmırsa, o zaman fərdin faciəsi məhz cəmiyyətin faciəsinə çevrilir və tədricən o sağalmaz mərhələyə çatır ki, belə bir cəmiyyətə heç bir şey kömək edə bilmir.

**Ədəbiyyat**

1. Ə. Rəcəbli. T.Drayzer və onun “Amerika faciəsi” romanı. Bakı.Nurlan, 2004. 152 səh
2. A.Həmidli. Teodor Drayzerin "Amerika faciəsi" romanında Amerika arzusunun təzahürü.Filologiya məslələri. Bakı. Elm və təhsil, 2009. №5 s. 315-320
3. https://briefly.ru/drajzer/amerikanskaja_tragedija/

# METHOD OF WORK ON THE SENTENCE
# CÜMLƏ ÜZƏRİNDƏ İŞ METODU

**Arzu Karimova Sabir kızı**

**Azerbaycan Devlet Pedagoji Üniversitesi (Ü. Hacıbeyov-68), 0000-0002-2662-6015**

## Özet

Öğrencilerin düşüncelerini ifade etmek için cümleleri bilinçli kullanma becerisinin oluşturulması, başlangıç düzeyindeki Azerbaycan dili derslerinin en önemli görevlerinden biridir. Teklif üzerinde çalışmanın önemi öncelikle sosyal işleviyle ilgilidir. İlkokul öğrencilerine bilinçli cümle kullanmayı öğretmek, konuşma akışını tam yapısal-anlamsal birimlere bölmek, düşünce konusunu ayrıştırmak, düşünceleri yapısal ve tonlama olarak oluşturmak, kelimeleri kullanma ve bunları cümlelerde birleştirme alışkanlığı oluşturmak anlamına gelir.

Dil öğretiminde cümle üzerinde çalışmak da önemlidir çünkü morfoloji ve kelime bilgisi, fonetik ve yazım söz dizimi temelinde incelenir. Cümle, ilkokul öğrencilerinin isimlerin, sıfatların, fiillerin, zamirlerin, zarfların ve ana kategorilerinin dilimizdeki rolünü anladıkları temel konuşma birimi görevi görür. Öğrenciler aynı zamanda cümleler bazında ana dillerinin sözcük dağarcığına da hakim olurlar.

**Anahtar kelimeler:** cümle, fonetik, konuşmanın bir kısmı, morfoloji, ilkokul



## Abstract

Creating pupils ability to consciously use sentences to express their thoughts is one of the most important tasks of beginner Azerbaijani language courses. The importance of working on the proposal is primarily related to its social function. Teaching primary school pupils to use sentences consciously means dividing the speech flow into complete structural-semantic units, parsing the subject of thought, forming thoughts structurally and intonationally, forming the habit of using words and combining them in sentences.

Studying sentences is also important in language teaching because morphology and vocabulary are studied on the basis of phonetics and spelling syntax. The sentence serves as the basic unit of speech through which primary school students understand the role of nouns, adjectives, verbs, pronouns, adverbs and their main categories in our language. Pupils also master the vocabulary of their native language on the basis of sentences

**Key words:** sentence, phonetics, part of speech, morphology, primary school.

## Giriş

Şagirdlərdə fikirlərini ifadə etmək üçün cümlələrdən şüurlu istifadə etmək bacarığının formalaşdırılması ibtidai siniflərdə Azərbaycan dili dərslərinin ən mühüm vəzifələrindən biridir. Təklif üzərində işin əhəmiyyəti, ilk növbədə, onun sosial funksiyası ilə bağlıdır. İbtidai məktəb şagirdlərinə cümlədən şüurlu şəkildə istifadə etməyi öyrətmək onlarda nitq axınını tam struktur və semantik vahidlərə bölmək, düşüncə predmetini təcrid etmək, fikri struktur və intonasiya cəhətdən formalaşdırmaq, sözlərdən istifadə etmək və onları cümlələrdə birləşdirmək bacarığını inkişaf etdirmək deməkdir.

Dil tədrisində cümlə üzərində iş həm də ona görə əsas yer tutur ki, morfologiya və lüğət, fonetika və orfoqrafiya sintaktik əsasda öyrənilir. Cümlə əsas nitq vahidi kimi çıxış edir ki, onun əsasında ibtidai sinif şagirdləri isim, sifət, feil, əvəzlik, zərf və onların əsas kateqoriyalarının dilimizdəki rolunu başa düşürlər. Şagirdlər ana dilinin lüğətini də cümlə əsasında mənimsəyirlər.

Sözün leksik mənası və işlənmə xüsusiyyətləri söz birləşməsində və ya cümlədə açılır. Sözün mənası cümlə üzvü kimi aydınlaşdırılır. Kontekstdə söz həmişə birmənalı olur (cümlədən kənarda, məlum olduğu kimi, sözün bir neçə mənası ola bilər).

İbtidai məktəbdə cümlə üzərində işləyərkən şərti olaraq beş sahə fərqləndirilir:

1. “Cümlə” qrammatik anlayışının formalaşması (verilmiş dil vahidinin əsas xüsusiyyətlərinin öyrənilməsi);

2. Cümlələrin quruluşunu mənimsəyən şagirdlər ibarələrdə sözlərin əlaqəsinin mahiyyətini başa düşmək, cümlənin qrammatik əsaslarını, baş və ikinci dərəcəli üzvlərin xüsusiyyətlərini dərk etmək, sözlərin düz və tərs düzülüşü haqqında məlumat əldə edirlər;

3. Şagirdlərdə ifadə məqsədinə və intonasiyaya görə fərqlənən cümlələrdən nitqində istifadə etmək bacarığının formalaşdırılması. Cümlənin düzgün intonasiyasını mənimsəmək;

4. Sözlərdən cümlədə dəqiq istifadə etmək bacarığının inkişafı;

5. Yazılı şəkildə cümlə qurma bacarığının formalaşdırılması (cümlənin əvvəlində böyük hərfdən istifadə, durğu işarələrinin qoyulması).

Bu beş iş sahəsinin hamısı bir-biri ilə qarşılıqlı əlaqədədir və onların hər biri yalnız cümlənin öyrənilməsinin ayrı-ayrı aspektlərini aydınlaşdırmaq üçün müəllim tərəfindən müstəqil olaraq nəzərdən keçirilə bilər. Cümlənin öyrənilməsi və ondan nitqdə istifadə etmək bacarığının inkişafı şagirdlərin faktiki biliklərinin daim genişlənməsinə əsaslanır.



Şagird yeni bir şey öyrənir, bu barədə ünsiyyət qurmağa ehtiyac duyur. Fikirlərini ifadə etmək üçün ən əlverişli formanı axtarır. Beləliklə, ünsiyyət ehtiyacından cümlənin daha mükəmməl idarə olunması ehtiyacı yaranır.

“Cümlə” mövzusu kəsişəndir. Bütün üç il ərzində öyrənilir. Cümlənin xüsusiyyətləri haqqında biliklər daim dərinləşir. Cümlənin fikri ifadə edən nitq vahidi kimi elementar fikirlərdən şagirdlər baş və ikinci dərəcəli üzvlərin öyrənilməsinə, cümlədəki sözlərin əlaqəsinə, həmcins üzvlü cümlələrin öyrənilməsinə keçirlər.

Cümlə üzərində işin ilkin mərhələsi savad hazırlığı dövrünə təsadüf edir. Məhz bu dövrdə şagirdlər cümlənin ən mühüm xüsusiyyətləri ilə tanış olurlar: cümlə fikri ifadə edir və intonasiya tamlığı ilə xarakterizə olunur. Əgər bu keyfiyyətlər yoxdursa, sözlər cümlə təşkil etmir, onlar yalnız sözlər qrupu olaraq qalır.

Şagirdlər üçün sualın cavabı özlüyündə belədir: “Niyə müəyyən söz qrupunu cümlə adlandırmaq olar?”. Bucümlənin struktur əsasını təşkil etdikləri üçün baş üzvlərin tanınması ilə sıx bağlıdır.

Cümlə öyrənildikcə onun tərkib hissələrinin, xüsusən də ifadənin ideyası daha dəqiq olur. Eyni zamanda şagirdlərin hər bir cümlə üzvü haqqında bilikləri dərinləşir. Mövzu və predikat nədir? Onların münasibəti necədir? İkinci dərəcəli üzvlərin rolu nədən ibarətdir?

İbtidai siniflərdə cümlə haqqında tədris materialı elə öyrənilir ki, il ərzində cümlə üzərində iş bütün digər mövzuları əhatə edir, baxmayaraq ki, ümumilikdə I-III siniflərdə öyrənilən sintaktik materialın həcmi çox azdır.

Birinci sinifdə proqrama uyğun olaraq, şagirdlər cümlədə kimin və ya nəyin deyildiyini və onlar haqqında nə danışıldığını göstərən cümlədəki sözləri ayırmağı öyrənirlər. Əslində, bu, cümlənin qrammatik əsasları üzərində işin başlanğıcı deməkdir və əsas üzvlərin propedevtik öyrənilməsini təmsil edir. İkinci sinif cümlə üzərində işin keyfiyyətcə yeni mərhələsidir. Tələbələr cümlədə təcrübənin empirik səviyyəsindən konseptual səviyyəyə yüksəlirlər.

Bu, şagirdlərin cümlənin əsas xüsusiyyətlərini mənimsəməsi, baş üzvlərin tərifinin təqdim edilməsi, subyekt və predikat terminlərinin praktikaya keçməsi ilə əlaqədar baş verir.

II sinifdə cümlədə sözlərin əlaqəsinə çox diqqət yetirilir. Bir cümlədə ikinci sinif şagirdləri cümlənin əsasını (mövzu və predikat) və biri asılı, digəri isə əsas olan sözləri (iki söz) müəyyənləşdirirlər. Yəni ikinci sinif şagirdləri cümlənin sonu və şəkilçilərin köməyi ilə sözlərin qrammatik əlaqəsinin necə ifadə olunduğunu da öyrənəcəklər.

III sinifdə cümlə üzvləri haqqında biliklərin daha da inkişaf etdirilməsi həmcins üzvlər anlayışı, cümlə üzvləri haqqında təsəvvürlərdir.

Birincisi, ibtidai məktəb şagirdləri bir cümlənin bütün üzvlərinin iki böyük qrupa bölündüyünü öyrənirlər: əsas və orta. İbtidai siniflərdə cümlənin ikinci dərəcəli üzvləri fərqləndirilmir. Cümləni mənimsəmək üçün əsas və köməkçi üzvlərin mahiyyəti açılır: əsas üzvlər cümlənin struktur əsasını təşkil edir, onlar tez-tez əsas semantik yükü götürürlər və ikinci dərəcəli üzvlər aydınlaşdırıcı funksiyanı yerinə yetirirlər.

İkinci dərəcəli üzvlərin mahiyyətini açmaq üçün şagirdlər cümləni təhlil edir və ikinci dərəcəli üzvlərin hansı cümlə üzvlərini aydınlaşdırdığını müəyyənləşdirirlər. Cümlənin genişləndirilməsi prosesində ikinci dərəcəli üzvlərin spesifikliyi xüsusilə nəzərə çarpır. Məsələn, şagirdlər cümləni yazırlar: Qaranquşlar uçur.



Fikrin daha dolğun ifadə olunması üçün onlardan “haraya?” sualına cavab verən sözləri cümləyə daxil etmələri xahiş olunur, daha sonra “nə zaman?” sualına şagirdlər cavab verməklə cümlənin hansı hissəsinin uzadıldığını aydın görür və daha da dəqiqləşdirirlər.

Şagirdlərdə cümlədəki sözlər arasında əlaqə yaratmaq bacarığının formalaşdırılması ən mühüm sintaktik və nitq bacarıqlarından biridir. İfadə cümlənin tərkib hissəsi kimi seçilir və artıq ibtidai siniflərdə mahiyyət xüsusiyyətlərinə görə qavranılır. “Söz birləşməsi” termininin özü dərsliyə daxil edilməyib, heç bir tərif verilməyib. Lakin praktiki olaraq daha kiçik məktəblilər bir ifadənin aşağıdakı əsas xüsusiyyətlərini dərk edirlər:

1. İfadə bir-biri ilə məna və qrammatik cəhətdən bağlı olan iki sözdür. Məsələn, “Azərbaycan xalqı torpaqlarının azad olması uğrunda mübarizə aparır” cümləsində iki ifadə var:

1) Azərbaycan xalqı;

2) torpaqlarının azad olması uğrunda mübarizə.

2. İfadədə birinci söz asılı, ikincisi isə əsas sözdür. Əsas söz sualı verdiyimiz sözdür, asılı söz isə suala cavab verən sözdür. Məsələn: (hansı?, nə?).

Cümlə daxilində bir ifadəni təcrid etmək qabiliyyəti tədricən inkişaf edir və uzunmüddətli təlim tələb edir. Şagirdlərin bir cümlə daxilində bir sözün digərindən asılılığının mahiyyətini dərk etmələrini təmin etməyə yönəlmiş tapşırıqlar sistemindən istifadə olunur. Aşağıdakı çalışma növləri xüsusilə önəmlidir:

a) Cümlənin genişləndirilməsi.

Cümləni hansı cümlə üzvünün hesabna genişləndirmək istədiyinizi əvvəlcədən təyin edə bilərsiniz. Məsələn, “Quş albalı çiçəyi” söz birləşməsi cümlə daxilində təhlil üçün verilmişdir.

Mövzu və predikat (cümlənin əsası) müəyyən edilir və suallar verilir: “quş albalı çiçək açdı” cümləyə hansı söz daxil edilməlidir? Bu söz hansı cümlə üzvü olacaq? (İkinci dərəcəli.) Cümlənin hansı üzvündən asılı olacaq? (Predikatdan. Nə vaxt çiçək açır? May ayında.) Cümləyə mövzunu izah edəcək bir söz daha əlavə edin. Necə cümlə alındı? (Ətirli quş albalı may ayında çiçək açır.)

b) Deformasiyaya uğramış cümlənin bərpası. Cümlənin bərpası cümlənin kökündən başlayır, sonra söz birləşmələrini “tapmaq” üçün suallardan istifadə edilir. Məsələn, “qalalar”, “hücum”, “dağlarda”, “hündür”.

-Bu cümlədə söhbət nədən gedir? (Qalalar haqqında. Nə? Qalalar.) Onlar haqqında nə deyilir? (tikilir.)

Söz birləşmələrini tapmaq üçün suallardan istifadə edilir. (Nə tikirlər? qalalar. Harada? nəyin üstündə? Sıldırım qayalarda və ya dağlarda. Hansı dağlar hündürdü?) İfadələr “bərpa edildikdən” sonra danışanın nə demək istədiyindən asılı olaraq cümlələrdə ən əlverişli söz sırası müəyyən edilir.

c) Bütöv mətnin cümlələrə bölünməsi. Bu növ işin başa düşülməsi üçün hər bir cümlədə baş üzvləri və söz birləşmələrini müəyyən etmək lazımdır.

d) Cümlənin təhlili və onun sxeminin tərtib edilməsi. Cümləni təhlil edərkən cümlənin əsası müəyyən edilir, sonra mövzunu izah edən ikinci dərəcəli üzvlər, predikatı izah edən ikinci dərəcəli üzv və cümlənin digər ikinci dərəcəli üzvləri də izah olunur. Tədricən cümlələr belə qurulur.

**İstifadə olunan ədəbiyyat**

1.Abdullayev A. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası.Bakı, 1962
2. Abdullayev A.Z. Sintaksisin aktual məsələləri. Bakı: ADU-nun nəşri, 1987,84 s.

3. Lipkina A.I., Omorokova M.I. İbtidai sinifdə oxu dərsləri zamanı şagirdlərin şifahi nitqi üzərində iş. M., 1967.

4. Titova N. F. İbtidai təhsildə nitq mədəniyyəti. M., 1960.

5. Vorodıç A. M. Uşaqlar üçün nitqin inkişafı üsulları (məktəbəqədər yaş). M., 1974.

6. Fomicheva G. A. Səkkizillik məktəbdə söz birləşmələrinin öyrənilməsi. M., 1973.

7. Sulimenko N. F. Stilistik səhvlər və onların aradan qaldırılması yolları. M., 1966.

8. Alqazina N. N. İfadələrin və cümlələrin qurulmasında səhvlərin qarşısının alınması. M., 1962.

# LANGUAGE POLICY AND THE SITUATION OF OTHER LANGUAGES IN KAZAKHSTAN

# QAZAXSTANDA DİL SİYASƏTİ VƏ DİGƏR DİLLƏRLƏ BAĞLI VƏZİYYƏT

**Arzu Karimova**

**Azerbaycan Devlet Pedagoji Üniversitesi (Ü. Hacıbeyov-68), 0000-0002-2662-6015**



## Özet

Dil sadece bir iletişim aracı değil, aynı zamanda milletlerin birleşmesine de katkıda bulunan, bir eğitim aracı ve insanlar arasındaki ilişkileri birleştiren bir destektir. Ülkenin tüm vatandaşlarının dostluğunun ve birliğinin açık bir göstergesi olan Diller Günü, Kazakistan'da birkaç yıldır kutlanıyor. Sonuçta halkların dostluğu, karşılıklı anlayış ve işbirliği yeni Kazakistan'ın inşasının temel direkleridir.

Şu anda Kazakistan okullarında Kazak dilinin yanı sıra ülkede yaşayan halkların 10'dan fazla ulusal dili de okutulmaktadır. Bu, Kazakistan'daki tüm ulusal azınlıkların temsilcilerine kendi kültürlerini ve tarihlerini tanıma ve kendi ana dillerinde bilgi edinme fırsatı vermektedir. Kazakistan Halklarının Dilleri Günü, Kazakistan Cumhuriyeti Cumhurbaşkanı'nın 20 Ocak 1998 tarihli Kararnamesi ile ilan edilmiş ve tüm Kazaklar için genel bir tatil haline gelmiştir. Ülkede yüzden fazla milletten temsilci yaşıyor. Her dilin kendi tarihi vardır, diğer dillerin kaderiyle bağlantılı kendi kaderi vardır. Dil sayesinde insanlar birbirlerini bulur, insanların manevi kültürünü, geleneklerini, ritüellerini anlamayı öğrenirler.

**Anahtar kelimeler**: dil politikası, iletişim, Kazakça, alaka, devlet dili

## Abstract

Language is not only a means of communication, but also a means of education and a support that unites relations between people, contributing to the unification of nations. Languages Day, a clear demonstration of friendship and unity of all citizens of the country, has been celebrated in Kazakhstan for several years. After all, friendship of peoples, mutual understanding and cooperation are the pillars of the construction of the new Kazakhstan.

Currently, in addition to the Kazakh language, more than 10 national languages of the people living in the country are taught in Kazakhstan schools. This gives representatives of all national minorities in Kazakhstan the opportunity to get to know their culture and history and obtain information in their native language.

Day of Languages of the Peoples of Kazakhstan was declared by the Decree of the President of the Republic of Kazakhstan dated January 20, 1998 and became a general holiday for all Kazakhs. Representatives from more than a hundred nationalities live in the country. Each language has its own history, its own destiny connected with the fate of other languages. Thanks to the language, people find each other, learn to understand the spiritual culture of the people, their traditions, rituals.

**Key words:** language policy, communication, Kazakh, relevance, state language.

## Giriş

Dil təkcə ünsiyyət vasitəsi deyil, o eyni zamanda xalqların birləşməsinə töhfə verir, insanlar arasında münasibətləri birləşdirən tərbiyə vasitəsi və dayaqdır. Qazaxıstanda artıq neçə ildir ki, bütün ölkə vətəndaşlarının dostluğunun və birliyinin bariz əlaməti olan Dillər Günü qeyd edilir. Axı xalqların dostluğu, qarşılıqlı anlaşma və əməkdaşlıq yeni Qazaxıstan quruculuğunun əsas sütunlarıdır.

Hazırda Qazaxıstan məktəblərində qazax dili ilə yanaşı, ölkədə yaşayan xalqların 10-dan çox milli dili də öyrənilir. Bu, Qazaxıstanın bütün milli azlıqlarının nümayəndələrinə öz mədəniyyətləri və tarixləri ilə tanış olmaq, ana dillərində biliklər əldə etmək imkanı verir. Qazaxıstan Xalqlarının Dilləri Günü Qazaxıstan Respublikası Prezidentinin 20 yanvar 1998-ci il tarixli Fərmanı ilə elan edilmiş və bütün qazaxıstanlılar üçün ümumi bayrama çevrilmişdir. Ölkədə yüzdən çox millətin nümayəndəsi yaşayır. Hər bir dilin başqa dillərin taleyi ilə bağlı öz tarixi, öz taleyi var. Dil vasitəsilə insanlar bir-birini tapır, xalqın mənəvi mədəniyyətini, adət-ənənələrini, ayinlərini dərk etməyi öyrənirlər.

Dil siyasəti Qazaxıstanın milli dövlətçiliyinin qurulması üçün mühüm siyasi alət olmuşdur. Onun həyata keçirilməsi ölkənin ali rəhbərliyi tərəfindən Qazaxıstan cəmiyyətinin milli birliyinin möhkəmlənməsi amili kimi dəyərləndirilir. Üstəlik, bu onilliklər ərzində dövlətin dili siyasəti onun həyata keçirilməsinin məqsədləri, istiqamətləri, formaları, vasitələri və üsulları haqqında davamlı qızğın müzakirələrlə müşayiət olunub. Müxtəlif ideoloji mövqelərdən həm təriflər, həm də kəskin tənqidlər olmuşdur.

Mövcud siyasətin prioritetləri, ilk növbədə, qazax dilinin dövlət dili kimi təcrid edilməsinə və digər dillərə, ilk növbədə, rus dilinə qarşı qoyulmasına əsaslanır. İkincisi, ölkənin bütün etnik qruplarının onun ilkin istifadə sahələrinin genişləndirilməsinə üstünlük verilməsi haqqındadır, üçüncüsü, rus dilinin funksional tamamlayıcılığı və digər dillərin yerli tətbiqi haqqındadır. Yəni qazax dilinin dövlət dili elan edilməsi dillərin inkişafı və fəaliyyət göstərməsi probleminin həlli üçün əsas kimi təqdim olunur və təklif olunur. Lakin bütün əvvəlki dövr qazax dilinin özünün dövlət dili kimi fəaliyyət göstərməsinin sosial-mədəni problematik xarakterini göstərir.



Əslində qazaxlar dövlət qurucusu etnik qrup olmaqla daha çox müxtəlif fəaliyyət sahələrində rus dilindən istifadə edirlər. Sayca, rusdilli qazaxlar və üstünlük olaraq rusdilli ikidilli qazaxlar, əsasən qazaxdilli qazaxları üstələyirlər. Üstəlik, qeyri-qazax etnik qrupların nümayəndələrinin böyük əksəriyyəti rus dilindən istifadə edir və onu doğma və ya ikinci ana dili kimi qəbul edirlər.

Bundan əlavə, xarici və daxili amillər rus dilinin üstünlük təşkil etməsinə kömək edir. Onlar hakimiyyətin rəsmi şəkildə həyata keçirilən dil siyasəti çərçivəsində bütün siyasi, sosial-mədəni, maarifləndirici, informasiya və kommunikasiya tədbirlərindən daha güclü təsirə malikdir. Qazax dilinin istər Qazaxıstanda, istərsə də başqa ölkələrdə konsolidasiya edilməməsinin əsas səbəblərindən biri də budur.

Birinci onillikdə qazax dilinin yayılması üçün maarifləndirici təşəbbüslər sonrakı dövrdə direktiv şöbə reqlamentləri, kvotalar və nümayiş etdirilən kütləvi təbliğat və təşviqat tədbirləri ilə əvəz olundu. Dili təkmilləşdirmək üçün ilkin islahat səyləri tələsik düşünülmüş linqvistik və leksik təcrübələrə çevrildi. Əsas vəzifə - qazax dili müəllimlərinin müxtəlif yaş kateqoriyalarından olan qeyri-qazax etnik qrupların nümayəndələrinə dərs vermək üçün kütləvi və ardıcıl hazırlanması arxa plana keçdi. Açıq desək, belə işlər ümumiyyətlə aparılmadı.

Ən ciddi fikir ayrılıqları və ziddiyyətli mədəni-maarif nəticələrinə son illərdə qazax-ingilis ikidilliliyinin və ya qazax-rus-ingilis üçdilliliyinin tətbiqini sürətləndirmək cəhdləri səbəb

olmuşdur. Buraya dilin latın əlifbasına çevrilməsi təşəbbüslərini də əlavə edə bilərik - onlar qazaxdilli mühitin özündə birmənalı şəkildə qəbul edilir və onların həyata keçirilməsi rusdilli etnik qrupların onu öyrənməsini daha da çətinləşdirir.

Qazax-ingilis, qazax-türk ikidilliliyinə əsaslanan elitar təhsil müəssisələrinin yaradılması qazax və qeyri-qazax etnik qruplara da sosial və mədəni yadlaşma əhval-ruhiyyəsi gətirir. Hesab edirəm ki, bu, qazax-rus dövlət ikidilliliyinin yaradılmasından və bütün səviyyələrdə universal ikidilli təhsilin tətbiqindən imtinadadır.

Burada tarixə müraciət etmək yerinə düşər. 1920-50-ci illərdə SSRİ-nin milli siyasətinin düşərgə-müstəmləkəçilik və ruslaşdırma aspektləri qazax xalqının mövcudluğuna birbaşa təhlükə kimi qəbul edilirdi. Amma artıq 1960-80-ci illərdə qazax etnosunun müstəqil mədəni inkişafı, qazax dilinin qorunub saxlanılması və təkmilləşdirilməsi üçün real şərait və imkanlar yaranmışdı.

Vahid ittifaq dövlətinin süqutu, Qazaxıstanın suverenləşməsi və müstəqilliyi qazax dilini yeganə dövlət dili kimi təcrid etmək üçün müəyyən səylərin göstərilməsinə səbəb oldu. 1990-cı illərdə rusdilli əhalinin kütləvi şəkildə xaricə axını bu gözləntiləri, hissləri və istəkləri gücləndirdi.

Qazaxıstanın sonradan beynəlxalq birliyə daxil olması və qlobal iqtisadi proseslərə qoşulması respublikada ana dilinin rus dilinin təsirindən azad edilməsi tərəfdarlarına əlavə təkan verdi.

Müasir Qazaxıstanın yeni sosial-mədəni, informasiya, kommunikasiya və siyasi-təşkilati şəraitində yalnız qazax-rus ikidilliliyinin mədəniyyətin və ictimai şüurun çox arzulanan modernləşdirilməsini təmin edə biləcəyini vurğulamaq istərdim. Üstəlik, qazaxların dili, ədəbiyyatı və mənəvi mədəniyyətini Şərq və Qərb ölkələri xalqlarının dilləri, mədəniyyəti və mənəvi dünyası ilə qarşılıqlı əlaqəsini itirmədən inkişaf etdirilir.



İnteqrasiya edilmiş qazax-rus ikidilliliyi siyasətinin həyata keçirilməsi qazax xalqının formalaşması üçün etibarlı əsas kimi götürülür.

Qazaxıstanın dil siyasətində dünya dillərindən biri olan və müasir dünyada geniş yayılmış rus dilinə xüsusi əhəmiyyət verilir. Üçüncü element müasir dünyada dominant mövqe tutan ingilis dilidir. İngilis dili qazaxıstanlılar üçün dünyaya, qloballaşmaya pəncərə açır. Qazaxıstan beynəlxalq proseslərə və təmaslara getdikcə daha çox cəlb olunur. Bu gün cəmiyyətdə heç kimi əmin etmək lazım deyil ki, ingilis dili insanın peşəkar inkişafı üçün ən vacib mənbədir.

Məsuliyyətli dil siyasəti qazax millətini birləşdirən əsas amillərdən biridir. Hazırda Qazaxıstan gənc nəslin qazax dili ilə yanaşı, rus və ingilis dillərini fəal şəkildə öyrənməsinə şərait yaratmaq üçün fəal tədbirlər həyata keçirir.

Və Universitet divarları arasında keçirilən interaktiv mühazirə zamanı keçmiş dövlət başçısı hökumətə üçdilliliyin tətbiqi ilə bağlı göstəriş vermişdir: “Birincisi, qabaqcıl beynəlxalq təcrübəyə əsaslanaraq, təhsil müəssisələrində müasir tədris metodları tətbiq edilsin, onlar innovativ olmalıdır. İkincisi, uşaqların təhsilə cəlb edilməsi ilə bağlı sistemli təklifin ətraflı şəkildə hazırlanmasıdır. Üçüncüsü, təhsil səviyyəsində üçdilliliyin geniş tətbiqini təmin etmək. Bu yolla biz dil əldə etmək üçün məntiqi sistem qura bilərik. Əsaslar uşaq bağçası səviyyəsində, məktəbdə baza səviyyəsində, universitetdə və ya kollecdə - ixtisaslar üzrə peşəkar dildə öyrəniləcək”.

Nursultan Nazarbayevin üçdillilik ideyası ölkəsinin dünya birliyinə inteqrasiyası və sovet dövründən qalan dil baryerini aradan qaldırmaq istəyi diktə edirdi. Təsadüfi deyil ki, dövlət başçısı Qazaxıstan xalqına müraciətində inkişaf etmiş rəqabətədavamlı dövlətə çevrilmək üçün

bir neçə xarici dildə danışmağın vacibliyini qeyd edərək: " biz yüksək təhsilli xalq olmalıyıq" söyləmişdi.

Beləliklə, qazaxıstanlı mütəxəssislərin ixtisas səviyyəsini yüksəltmək üçün üçdilliliyə böyük tələbat vardır. Axı rus və ingilis dillərində texniki terminologiyanı bilmədən müasir istehsalatda işləmək mümkün deyil. Eyni zamanda, öyrənilən fənlər əsasında üçdillilik tətbiq edilməlidir. Məsələn, qazax dilində bütün tədris qruplarında tarix və ədəbiyyat və digər humanitar fənlər ən yaxşı şəkildə tədris olunur.

Üçdilli təhsil proqramı qazax, rus və ingilis dillərinin birbaşa tədrisi, eləcə də üç dildə fərdi fənlər üzrə təlim və dərsdənkənar məşğələlər vasitəsilə həyata keçirilir. Əsas və əlavə dil kursları funksional savadlılığın, ünsiyyət bacarıqlarının və tənqidi düşüncənin inkişafına diqqət yetirir.

Keçmişdə və indiki dövrdə bu hadisə ilə qarşılaşmış dilçilər və digər alimlər tərəfindən çoxdillilik haqqında çoxlu əsərlər yazılmışdır. Həm xaricdə, həm də ölkəmizdə üçdillilik problemi əsas problemlərdən birinə çevrilərək həm yerli, həm də xarici dilçilərin diqqətini getdikcə daha çox cəlb edir. Təsadüfi deyil ki, çoxdillilik problemi bir sıra beynəlxalq linqvistik konqreslərdə müzakirə mövzusu olmuşdur.

Lakin bütün bunlara baxmayaraq, terminologiyada tam birlik olmadığı kimi, ən əsas anlayışların dərk edilməsində hələ də konsensus yoxdur. İkidillilik, adətən, iki dildə danışmaq və ünsiyyət şəraitindən asılı olaraq müntəzəm olaraq bir dildən digərinə keçmək deməkdir.

U.Vaynrax dil təmasları haqqında kitabında yazır: "Dillərin növbəli istifadə prosesi ikidillilik, onlardan istifadə edən şəxs isə ikidilli adlanır".

İnsan dillə yanaşı, ətrafdakı reallığa da yiyələnir; eyni zamanda, dünyanın məntiqi (konseptual) mənzərəsi ilə yanaşı, məntiqi ilə ziddiyyət təşkil etməyən, lakin onunla eyni olmayan linqvistik mənzərə də yaranır. Başqa sözlə desək, dünyanın mənzərəsi biliklər məcmusunu və onun mənimsənilməsi və şərh edilməsi mexanizmlərini əks etdirən model kimi mövcuddur. Dil quruculuğu məqsədlərinə nail olacağımıza nikbinlik və inam var və elə bir vaxt gələcək ki, qazax dilində danışmaq istəyi və bacarığı hər bir Qazaxıstan vətəndaşı üçün təbii olacaq.



**İstifadə olunmuş ədəbiyyat**

1.Qazax-rus ikidilliliyi // Vikipediya, 03-08-2018.

2.Eliseeva E.V., Zlobina S.N. Rəqəmsal təhsil resursları müasir universitetin innovativ təhsil mühitinin tərkib hissəsi kimi.

3. Qazaxıstanda etniklərarası vəziyyət: dinamika və tendensiyalar / Cəmiyyət / İnternet qəzeti. Qazaxıstan. Giriş tarixi: 22 aprel 2010.

4.Şərqi Qazaxıstan. Dil siyasəti. 15 fevral 2010 , Xəbərlər, Ust-Kamenoqorsk.

# THE IMAGE OF THE EASTERN WOMAN IN HUSEYN JAVID'S WORK
# HÜSEYN CAVİD YARADICILIĞINDA ŞƏRQ QADINI OBRAZI

**Yeganə Qasımova**

**filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Xülasə**

Hüseyn Cavid ədəbiyyatımızda romantizm cərəyanının yaradıcılarından biri kimi müstəsna mövqe tutur. Cavid yaradıcılığa lirik şeirlə başlamış, romantizmə meyli də buradan başlanğıcını almışdır. Poeziyamızda Hüseyn Cavidin şeir yaradıcılığı xüsusi bir mərhələ təşkil edir. Cavid 1906-1909-cu illərdə İstanbul Universitetində təhsil almış, Türkiyənin tanınmış alimlərindən dərs almışdır. Universiteti bitirdikdən sonra o, Naxçıvana qayıdaraq müəllimlik etmiş, şeirlərini və ədəbiyyatımızda ilk mənzum dram olan “Ana” pyesini yazmışdır. “Afət”, “Peyğəmbər”, “Topal Teymur”, “Knyaz” , “Səyavuş”, “Xəyyam” adlı sovet dövründə yazdığı tarixi dramları və onların tamaşaya qoyulması müəllifin adını şöhrətləndirmişdir. Görkəmli romantik 1937-ci ilin iyununda günahsız olduğu halda həbs olunmuş, “pantürkist”, “gizli millətçi”, “əksinqilabçı” damğası ilə səkkiz il müddətində həbs cəzasına məhkum edilərək Sibirə sürgün olunmuşdur. Şair iki il keçmiş SSRİ-nin ən soyuq düşərgələrindən olan Maqadanda cəza çəkmiş, 1941-ci ildə Sevçenko qəsəbəsində həbsdə vəfat etmişdir.1956-cı ilin martın 6-da Hüseyn Cavidə bəraət verilmişdir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Cavidin 100 illik yubileyi ərəfəsində nəşi Sibirdən gətirilmiş, doğulduğu Naxçıvan şəhərində dəfn edilmişdir. 

**Açar sözlər:** romantizm, cərəyan, qadın, dram, şeir

**Summary**

Huseyn Javid occupies an exceptional position as one of the founders of romanticism in our literature. Javid started his creativity with lyric poetry, and his tendency to Romanticism got its beginning from here. Huseyn Javid's poetry is a special stage in our poetry. Javid studied at Istanbul University in 1906-1909 and studied with well-known Turkish scientists. After graduating from the University, he returned to Nakhchivan and taught, wrote his poems and the play “Mother”, the first verse drama in our literature. ” Disaster“,” Prophet“,” lame Timur“,” Prince“,” Seyavush“,” Khayyam " historical dramas written in Soviet times and their performance glorified the name of the author. The prominent romantic was arrested in June 1937 as innocent, sentenced to eight years in prison under the stigma of “pan-Turkist”, “secret nationalist”, “counter-revolutionary” and exiled to Siberia. The poet served two years in Magadan, one of the coldest camps in the former USSR, and in 1941 he died in prison in the town of Sevchenko.In 1956, on March 6, Huseyn Javid was acquitted. On the eve of the 100th anniversary of Javid on the initiative of national leader Heydar Aliyev, he was brought from Siberia and buried in his native city of Nakhchivan.

**Key words:** romance, current, woman, drama, poetry

## Giriş

Tanınmış şair və dramaturq, zəmanəsinin böyük mütəfəkkiri Hüseyn Cavidin ədəbi irsi çox maraqlı və zəngindir. Bir romantik kimi Cavidin incansevər, əsl mənada humanist lirikasında

qadına uca bir yer vardır. Şairə görə, dünya adlı geniş məkanda qadın ən təzadlı, ən ziddiyyətli münasibətə məruz qalmışdır. Bir tərəfdən şəninə yüksək, bəlağətli nitqlər deyilmiş, digər tərəfdən sevimli, müqəddəs varlıq kimi vəsf olunan qadının çox vaxt hüquqları əlindən alınmış, hər dövrdə qadağalarla üzləşmiş, yalnız qadınlar üçün qanunlar uydurulmuşdur. Hüseyn Cavid "Qadın", "Sevinmə, gülmə qızım", "Qız məktəbində" şeirlərində və "Peyğəmbər" dramında qadın haqqında fikirlərini ifadə etmiş, onu zəriflik, paklıq rəmzi kimi canlandırmışdır. Xüsusən "Peyğəmbər" dramında müəllif Məhəmməd Peyğəmbərin dili ilə tarix boyu qadın haqqında edilən haqsızlıqları yada salır:

Qadın, qadın?! Onu duymaq, duyurmaq istərkən
Yaxar düşüncəmi bir şölə, bir zəhərli tikən
Bütün həyatı çiçəkləndirən fəqət o...neçin,
Neçin əzilsin o, bilməm neçin sürüklənsin? ( 1, s 47)

Cavidə görə, qadın müqəddəs varlıqdır, bəşəriyyəti çirkin əməllərdən, zülmdən xilas edə biləcək bir qüvvəyə malikdir. Şairin fikrincə, bu zərif xilqət ana kimi müqəddəs bir adı daşıyır, qadın yüksək əxlaqi keyfiyyətlərə malikdir, onu alçaltmaq olmaz. Qadının daxili və zahiri gözəlliyi eynilik təşkil edirsə, o pərəstiş edilməyə layiqdir:

Qadın! Ey sevgili həmşirə, oyan
Ana! Ey nazlı qadın, qalq, uyuyan
Daima mövtlə həmduş oluyor,
Zillü mehnətlə həmağuş oluyor,
İştə sıyrılmada həp zülmətlər!..
Ağarır dan yeri, qalq, iştə səhər!..
Oyan, ətrafını seyr et də düşün!
Bütün evladi-vətən iştə bu gün
Yalınız səndən umar sədrə şəfa,
Yalınız səndə bulur ruha qida.
Ana övladını bəslər, böyütür,
Anasız millət, əvət öksüzdür.
Sənin aləmdə vəzifən, hissən
Nə böyük, həm nə ağırdır, bilsən?! (1, s.60)

Şair qadınlara ədalətsiz münasibətə, haqsızlıqlara boyun əyməməyi, öz haqqını tələb etməyi, çarə axtarmağı tapşırır. O şeirlərində yalnız bir qadına yox, ümumilikdə cəmiyyətə xitabən səslənir:

Baq, baq insan nə qədər aldanıyor?
Xayır, əsla məni sən dinləmə dur!
"Ağla, həp ağla" dedim, pək yanlış..
Ağlamaqdan nə çıqar sanki? Çalış!
Oluyor iştə hüququn pamal,

Çalış, öyrən, ara, bul, haqqını al!

Pərdeyi-zülmət içindən sıyrıl!

Qəhrəmanlar kibi qavğaya atıl!

Fəzlü irfanla mücəhhəz olaraq

Cəhli yıq, qəfləti yaq, iczi buraq!

Kimsədən gözləmə yardım, əsla;

Yalnız kəndinə kəndin ağla!  (1,s.61)

Cəmiyyətdə zərif xilqətin haqlarının tapdanmasını görən şair onu öz hüququ uğrunda mübarizə aparmağa, şərəf və heysiyyətini qorumağa səsləyirdi və bu yolda məğlub olmaqdansa, məhv olmasını üstün tutur:

O lətafət, o nəcabətlə sana

Bu əsarət, bu həqarət nə rəva?

Sən nəsən? Kəndini bil, zəfi bıraq!

Həp nəsibinmi sənin sillə dayaq?  (1,s.60.)

Hüseyn Cavidin əsas idealı gözəllik və eşqdir. Onun romantizmində qadının yeri əvəzolunmaz və sevgisiz yaşamaq mümkün deyil. O, bütün əsərlərində bu zərif varlığa xoşbəxtlik, səadət dolu bir həyat arzulayır. Ədib “Peyğəmbər” dramında yazır ki, qadın o zaman xoşbəxt olar ki, həmin cəmiyyətdə müharibə, haqsızlıq, ədalətsizlik olmasın.

Qadın əlilə fəqət bəxtiyar olur bu cihan

O bir mələk... onu təqdis edər  böyük Yaradan.  (3,s.191)



H.Cavid qadının xoşbəxtliyini əslində insanlığın həqiqi mənada xoşbəxtliyi hesab edir. Çünki qan-qadasız, hərbsiz, nöqsansız bir dünyada qadın-ana da xoşbəxtdir.

Qadın gülərsə, bu ıssız mühitimiz güləcək

Sürüklənən bəşəriyyət qadınla yüksələcək.  (3,s.192)

Qadın mövzusu, onun şərəfi və ləyaqəti Cavidi bütün yaradıcılığı boyu məşğul etmişdi. “Ana” dramında müəllif bu mövzuya daha emosional, daha bəşəri məzmunda yanaşmışdır. Dramaturq Səlma ana obrazını milli dəyərlər kontekstində açmağa nail olmuşdur.

Hüseyn Cavid 1910-cu ildə “Ana” mənzum dramını yazmaqla dramaturgiya sahəsinə ilk addım atmışdı. Ədəbiyyatımızda ilk mənzum dram sayılan “Ana”da müəllif alicənablıq, mərdlik kimi keyfiyyətləri Səlma ananın və cənc İsmətin simasında ümumiləşdirir. Dramdakı hadisələr Dağıstanda cərəyan edir. Pyesin əsas baş qəhrəmanı Səlma anadır, o, mərd, namuslu, məğrur qadındır. Cavid dramaturgiyasında rast gəldiyimiz ən güclü qadın obrazlarından biri Səlma anadır. Bu qadın həyatda tək ümidi olan oğlunun yolunu səbirsizliklə gözləyir, bir ildən artıq görmədiyi oğlunun sağ-salamat geri qayıtması üçün gecə-gündüz Allaha dua edir:

Ey mərhəmət kanı, ey ulu tanrı!

Ey yerlərin, göylərin hökmdarı!

İnayət qıl, yoq başqa bir havadar,

Yalnız varım-yoqum tək bir oğlum var!   (2,s.7)

Nəhayət, oğlunun gəlmə xəbərini eşidən Səlma ana sevincindən tez bu xəbəri oğlunun nişanlısı İsmətə çatdırır:

İsmət! Qızım, müjdəmi ver, müjdəmi!
Bundan sonra gül, sevin, tərk et qəmi!
Şükür, çoq şükür, sap-sağlam, könlü şad!
Bu gün, yarın gəlmək üzrə Qanpolad. (2,s.32)
(İsmətin gedişini seyr edərək)
Ah, qızcığaz sevincindən şaşırmış,
Oğluma pək dərin bir eşqi varmış.
Bən oğul anası, o bir nişanlı,
Lakin o bəndən daha istiqanlı! (2,s.34-35)

Nəhayət, uzun ayrılıqdan sonra Qanpolad evlərinə qayıdır. Lakin evə çatmamış Orxanın dostu Murad ona atəş açır. Qanpolad anidən yerə sərilir. Bu zaman Qanpoladı vuran Murad Səlma anadan sığınmaq üçün yer istəyir. Ana tərəddüd etmədən ona yer verir. Elə bu vaxt Qanpoladı qan içində gətirirlər. Bütün ümidini oğlu Qanpolada bağlayan qadının oğlunu sağ-salamat görmək arzusu həyata keçmir. Ana bu hadisədən dəhşətə gəlir. Oğlu ilə bağlı bütün arzuları puç olan ana yenə də Allahdan ədalət diləyir.

Allah, Allah! Təhəmmül ver, səbir ver!
Açıl, yarıl, parçalan, ey alçaq yer!
Yarıl! Bu talesizə çak qərinə!
Bəndə artıq təhəmmül yoq qəhrinə!
Yalnlz bir pənahım, bir oğlum varkən,
Qanlı topraq! Ayırdın onu bəndən,
Ya rəb, ədalət! Bəni öldür qurtar!
Hər yer bana zindan kibi oldu tar! (2,s.52)

Ana Allaha olan inamını itirmir, bununla yanaşı taleyin hökmünə də inanır. Ana özü də bilmədən oğlunun qatili olan Murada sığınmaq üçün yer verir. Bu zaman söz verir ki, onu qoruyacaq. Sonradan məlum olur ki, oğlunun qatili Muraddır. Bu xəbəri eşidəndə Ana sarsılır, onun qəlbində təzadlı duyğular bir-birilə çarpışır. Lakin sonda vicdanlılıq, rəhmlilik intiqama qalib gəlir:

Qonaq qardaş, dur! Təlaş etmə sən;
Qorqma bir zərər gəlməz sana bəndən,
Amandasın; heç qorqma, heç sıqılma!
Çünki bən əvvəldən söz verdim sana.
Sən bir qonaqsın, qatil olsan belə;
Səlma həlak olur da, verməz ələ. (2,s.54-55)

Ana onun evinə sığınan Muradı nəinki cəzalandırmır, hətta onu öldürmək istəyənlərə belə mane olur. Mərd, alicənab Ana intiqam almaqdansa, əfv etməyi daha ağır cəza tədbiri hesab edir:

Ah, bu xain qonaq aman istərkən,
Niçin bən ona yer verdim bilmədən
Oğlumun köksünü yarsın da gəlsin,
Bir cəllad kəndini amanda bilsin?
Xayır, xayır bu mümkün deyil əsla!
Sağ buraqmam! Bənim pəncəmdə hala!
Onun həddini bildirir bu əllər!
Qəlbində yerləşsin gərək bu xəncər!
Gərək bulsun cəzasını...
(Təbdili-tevr ilə)
Ah fəqət;
Oğlumun ruhu bəlkə eylər nifrət,
Bəlkə bəndən incinir, çünki şimdi
Qan dökməyə əsla riza vermədi.
Həm mültəci, həm qərib, həm misafir;
Xayır, vicdanım olmaz buna qadir.
Bir də hər nə yapsan bu dərdi silməz.
Məhv olsa aləm Qanpolad dirilməz.
Xayır əfv etməli!..Getsin də miskin
Xəcalətdən ölsün, yerlərə keçsin! (2,s.52-53)

Ananın bu qərarı qatilin özünü belə təəccübləndirir. Murad tutduğu işdən peşman olur, xəncəri öz ürəyinə vurmaq istəyəndə ana buna mane olur. Onu evindən çıxarıb gizli yerdən sağ-salamat yola salır. Dramda ananın dilindən söylənilən "Sən bir qonaqsan", "Sən amandasan" fikri xalq adət-ənənələrini özündə əks etdirir. Ənənəmizə görə, qonaq qatil də olsa, qonaqdır:

Murad
Doğrayın bəni riştə-riştə
Əvət doğrayın, məhv olmalı zalım!
Ah,bir alçağa mərhəmət nə lazım?
Qanlı bir canavar sağ bıraqılmaz;
Bən bir xainim öldürün!
Səlma
Hiç olmaz!
Murad

Yaşatma, öldür, ana! Bəncə, hala
Billah, gəbərmək yaşamaqdan evla.

Səlma

Hayır, sən mənə eylərkən iltica
Söz vermişəm, dönməm sözümdən əsla! (2, s.57-58)

Ana bu dərdi içində yaşayır və heç vaxt da unutmayacaq, sadəcə olaraq Səlma ana oğlunun qatilini öz vicdanının məhkəməsinə buraxır. Cəzanın ən ağırı isə insanın öz vicdanı qarşısında cavab verməsidir:

Səlma

(Muradın getdiyi tərəfə doğru hiddətli və həyəcanlı bir səslə)

Get, namərd qonaq, get! Alçaq mültəci!
Get, miskin hərif, get! Cəllad, yırtıcı!
Get, vicdansız! Kəndini qurtar, yaşa!
Ancaq vicdansızları bəslər dünya!

(Daha sinirli və qızğın)

Get, gözüm görməsin! Uzaqlaş, dəf ol!
Nə haqsızlıq etdinsə, allahdan bul!
Get, çəkil get! Dinsiz, Allahsız, xain!
Murdar izin bu torpaqdan silinsin!
Oğlumu söndürdün, yandırdın bəni,
Get, kamə irdirməsin allah səni! (2,s.59-60)



Dramda ikinci qadın obrazı İsmətdir. O, Qanpoladın nişanlısıdır. Adi ilə daxili aləmi eynilik təşkil edən bu vəfalı qız yoxsul bir ailədən çıxmışdır. İsmət var-dövlətə aldanmayaraq öz sevgisinə ləyaqətlə sadiq qalır, barmağındakı nişan üzüyü İsmətlə Qanpolad arasındakı saf məhəbbətin rəmzidir.

İsmət

(barmağındakı üzüyü göstərərək hiddətlə)

Orxan!
İştə barmağımda gördüyün nişan
Qanpoladdan bir yadigardır bana,
Ömrüm olduqca bağlıyam bən ona.

Orxan

İsmət, bir yüzükdənmi eylərsən ihtiraz?

İsmət

Əvət, bu bir zəncir ki, hiç qırılmaz.

Orxan

İsmət, onun heç bir mənası yoqdur,
O bir boş xəyaldır, səni qorqudur.
Yüzük, nişan yalnız gönüldür, gönül!
Olma çocuq...Sən gəl bana ver gönül!
Yarın atlanıb bu köydən çıqalım,
Yigit kimsə, qarşı çıqsın baqalım.
(İsmətə)
Söylə, fikrin nədir? Cavab ver, İsmət!
İsmət
(Usanmış və sinirli bir halda)
Artıq yetər, allah için, çəkil get,
Hürmətin, izzətin, varın, şöhrətin,
Nəslin, nəcabətin, gücün, qüdrətin
Həp sənin olsun, get, çəkil get, Orxan!
Bən ayrılmam o yoqsul Qanpoladdan.
Bütün dünya alt-üst olub dağılsa,
Ondan başqa sevdiyim yoqdur əsla! (2,s.15)



İsmət Qanpoladın mənəvi zənginliyinə könül vermişdir, buna görə də Orxanın şan-şöhrətli, varlı olması onun diqqətini çəkmir. İsmət tərəfdən sevgisinin rədd edilməsi Orxanı daha da qəzəbləndirir, eyni zamanda, həm də təəccübləndirir, bunu özünə təhqir hesab edir. Məhz buna görə də o, Muradın əli ilə cinayət törətməkdən çəkinmir.

İnan ki, alt-üst eylərim aləmi.
İsmət Orxanı rədd edər öyləmi?! ( 2,s.11)

Bununla da, Hüseyn Cavid Orxan və onun kimilərinin mənəvi yoxsulluğunu, İsmət, Səlma ana obrazlarının simasında isə mərdliyi, alicənablığı ön plana çəkmişdir. İsmət öz sevgisinə sadiq olan Şərq qızlarının gerçək bədii təcəssümü kimi son dərəcə maraqlı obrazdır. Başqa əsərlərində olduğu kimi, “Ana” dramında da müəllif qadınların iç dünyasına-duyğularına hörmətlə yanaşır, hər kəsin duya bilməyəcəyi həssaslıqla qadın təbiətini bütün çalarları ilə canlandırır. Cavid oxucusuna bir daha insani borcunu və vəzifəsini xatırladır, ona insanın yaşaması üçün mənəvi zəmin yaratmaq, ona həyatı sevdirmək, həyat eşqini artırmaq naminə “Ana”nın taleyinə öz taleyi, dərdinə öz dərdi kimi yanaşmağa çağırır.

Ədəbiyyat:

1.Hüseyn Cavid :Əsərləri V cilddə I cild Bakı-Elm—2005.
2.Hüseyn Cavid: Əsərləri V cilddə II cild.Bakı.“Lider”-2005.
3. Osmanlı Vəli:Azərbaycan romantikləri.Bakı-Yazıçı-1985.
4. Kərimli.T,Babaxanlı.G.:Cavidşünaslıq(araşdırmalar toplusu) II-III cild.Bakı- 2007

5. Azər Turan: Cavidnamə. Bakı-Elm və təhsil.2010.

6. Məmməd T: XX əsr Azərbaycan dramaturgiyasını poetikası.Bakı-Elm-1999.

7.C.Məmmədli: H.Cavidin “Afət” faciəsi. Bakı-Nurlan-2007.

8.R.N.Qurbanov: H.Cavidin estetik idealı. Bakı-1991.

# ANARIN PYESLƏRINDE XARAKTER YENILIYININ BƏDII VASITƏLƏRI

**F.E.N ƏZİMOVA TƏRANƏ**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, ORCID ID 0000-0001-6951-5844**

Anar dramaturgiya sahəsində bir sıra mühüm yeniliklərə imza atmağı bacarmışdır, bu yeniliklərdən biri də onun əsərlərinin qəhramanlarının xarakterləri ilə bağlıdır.O, müasir dramaturgiyamızda zəngin keyfiyyətlərə məxsus xarakterli obrazlar yaratmağı bacarmışdır.Bu zaman o ədəbiyyatımız zəngin bədii vasitələrindən məharətlə istifadə etmişdir.Onlardan bəzilərinə nəzər yetirəcəyik.

Anarın dramaturgiyasında obrazları daha maraqlı edən ən əsas vasitə onun bədii təfəkkürünə xas gülüşdür.Belə ki, onun bəzi pyeslərini(“Sizi deyib gəlmişəm”,“Təhminə və Zaur”,“Yaşıl maşın” və s.) çıxmaq şərtilə,demək olar ki, bütün pyeslərində bədii gülüş əsas rol oynayır və həqiqətən də,oxucu bu gülüş sayəsində müxtəlif xarakterli insanların daxili aləmi haqqında təsəvvürə malik olur.Anar obrazları həm monoloqlarla öz diliylə gülüş hədəfinə çevirməyi,həm də dialoqlarda başqa xarakterləri də gülüş hədəfinə çevirib ifşa etməyi bacarır.Onun bədii gülüşü olduqca genişdir və pyeslərində müxtəlif formalarda(xəfif yumor,yüngül ironiya,qrotesk,satira,hiperbola və s.) təzahür edir.

Anarın pyeslərini səciyyələndirən başqa əsas keyfiyyətlərdən biri də psixologizmdir.Bu psixologizm onun pyeslərində müxtəlif xarakterli obrazların daxili aləminə hopub.Anarın psixologizmi bu mənada xarakter yeniliyinin mühüm vasitəsi kimi çıxış edir.Bunun bariz nümunəsini “Şəhərin yay günləri ” pyesində görürük.Əsər üç pərdə və yeddi şəkildən ibarətdir.Anar mahir bir yazıçı və dramaturq kimi bu əsərdə ,demək olar ki, obrazın dilindən mühüm problemi ortaya qoymağı bacarır.Başqa sözlə desək,adi hadisələrdən mühüm nəticələr çıxarır.Məsələn,elə “Şəhərin yay günləri ” pyesində belə adi hadisələrdən birinə rast gəlirik.Qiyas müəllimin oğlu Namiq su köşkündən su içmək istəyəndə bilmədən stəkanı qırır,lakin bunun üçün qəti narahat olmur,Qumru soruşanda da atasının da tez-tez stəkan qırdığını deyir və anasının deyinməyindən danışır,lakin o başa düşmür ki,bu cəmiyyətin əmlakıdır və bundan digər insanlarda istifadə edir.Əslində,ilk baxışdan bu oxucunun diqqətini cəlb etmir,ancaq oxucu əsəri oxuduqca anlayır ki, yazıçı bu adi hadisələr vasitəsilə insana ictimai vəzifəsini,əxlaqi və etik qaydaları öyrətməyə çalışır.Yazıçı Namiqin etdiyi adi məsuliyyətlə çatdırmaq istəyir ki,insanlar sadə davranış qaydalarına belə riayət etmir,bunu vərdiş halına gətirmək istəmir.Əsərdə Qumru bu mənada Namiqdən daha çox məsuliyyətlidir.O,işinin məsuliyyətini anlayır,ondan hər dəfə eyni şeyi soruşan sərnişinlərə səbrlə cavab verir və bunu edərkən də haqlı olaraq cəmiyyətə borcunu ödədiyini düşünür.

Qiyasın əmisi Bəhram Zeynallı da öz xarakterinə uyğun psixologizmi təmsil edir.Onun xarakterinə məxsus müsbət əhval-ruhiyyəsi,duzlu danışığı,təkəbbürlüyü onun bütün söhbətlətində özünü büruzə verir.Bunun da bir sıra səbəbləri vardır,öncə onu deyə bilərik ki,əmisi artıq cəmiyyətin qayda-qanunlarını mənimsəyib,bu məsələlərdə daha təcrübəlidir.Bunun təsirilə də O, qardaşı oğlu Qiyasın düşüncələrinə səfəhlik və bacarıqsızlıq kimi baxır.Təbii ki,bunu yalnız Bəhram Zeynallıya aid etmək düzgün olmaz.Qiyas müəllimin yaxınındakı adamlar-həyat yoldaşı Dilarə,onun qardaşı Firuz,onun dostu Ağərəfi və başqaları da bu fikirdədirlər.Bütün bunlara qarşı Qiyas müəllim təkdir,lakin o özünü və özü kimilərinin

çox olduğuna inanır.O,əmisinə keçmişdəki xarakterini xatırlatmaqla bununla demək istəyir ki,əmisi keçmişdə onun üçün daha doğma idi,lakin əmisi yenə onu anlamaq istəmir və özünü Qiyasdan daha təcrübəli olduğu üçün haqlı sanır:

Qiyas (daha artıq qızışaraq): Mənim babam da həkim imiş. Öz cibindən pul verib kasıb xəstələrinə dava-dərman alarmış. Halbuki özü cır-cındır içində gəzərmiş.

Bəhram: Nəsildən nəslə cır-cındır içində yaşamaq olmaz, ay bala.

Qiyas: Axı mənim babam...

Bəhram: Sənin baban – Qiyas, mənim atam idi. Bütün bu söhbətləri də sənə mən özüm danışmışam.

Qiyas: Yaxşı, bəs indi bizə nə olub, ay əmi, bax sənə nə olub?

Dilarə (acıqlı pıçıldayır): Çərənləmə, yoxsa bu saat durub gedərəm.

Bəhram: Nədir ki, axı, nə barədə nə olub?

Qiyas: Axı niyə belə, niyə belədir, ay əmi? Bax burda milli xarakterdən, mən nə bilim nədən danışırlar. Axı bizim ata-babalarımız heç bir vaxt kasıblıqlarından utanmayıblar, xəcalət çəkməyiblər. Biz isə... biz kasıblıq nədir, kasıblıq-zad yox, gör bir nədən xəcalət çəkirik. Xəcalət çəkirik ki, televizorumuz son markalı deyil, utanırıq ki, adi stəkandan çay içirik, büllur stəkandan yox. Utanırıq ki, əzizlərimizə, yaxınlarımıza neçə yüz manatlıq hədiyyələr apara bilmirik, xəcalət çəkirik ki...(Anar.Əsərlər.V cild,Bakı 2005,səh.166)

Bu sözləri insanlar içərisində öz əxlaqına,mənliyinə görə əzilən,gözükölgəli olmağa məcbur olunan bir insan deyirdi.O insan ki, öz həyat yoldaşı belə onun adam içində "çərənləməsini" istəmir,lakin bütün bunlara rəğmən Qiyas müəllim öz əxlaqına,ideyasına sadiq qalır.Qiyas müəllimin oğlu qəza törədəndən sonra Şamxalla üzləşməli olur və bu zaman çətin sınaq qarşısında qalır.O,gənc oğlunu tutulmaqdan qurtarmaq üçün həyatı boyunda ilk dəfə öz ədalət prinsiplərinə qarşı çıxmalı və Şamxalın savadsız oğlunu başqalarının yerinə instituta daxil etdirməlidir.Təbii ki,bu başqaları üçün normal bir hadisədir, çünki tapşırılmaqla ali məktəbə qəbul onlar üçün adi bir prosesdir.Qiyas müəllimin bu yaxşılığı edəcəyi təqdirdə,Şamxalda Namiqi qurtaracağına söz vermişdi.Bundan sonra,Qiyas müəllim oğlu və ideyaları arasında seçim etməliydi.Qiyas müəllim ya ömründə ilk dəfə öz ideyalarına qarşı çıxaraq haqsızlıq etməli,ya da ideyalarını oğlundan üstün tutmalıydı.



Qiyasın yaşadığı acı duyğuları yazıçı çox ustalıqla təsvir edir.Oxucu Qiyas müəllimin necə acılar çəkdiyini hiss edir və başa düşür.Qiyas müəllim neçə dəfə cəhd etsə də,vicdanına qarşı çıxa bilmir, mövzu doğma oğlu olsa da, güzəştə getmir.Bu zamansa,təbii olaraq, oğlunu bir cəfakeş ana kimi sevən Ana tərəfindən ağır təzyiqlərə məruz qalır.Bu zaman Dilarə onu təhqir etməkdən,alçaltmaqdan belə çəkinmir:

Dilarə: Qoy mən ağılsız olum. Amma mən adamam, insanam. Amma sən insan deyilsən. Sən ancaq söz yığınısan, vəssalam! Ancaq yekə-yekə danışmağı bilirsən. Sözlər də hamısı kitab sözləri, qəzet cümlələri. Sən heç kəsi sevmirsən. İnsanları sevmirsən. Çünki insanlar axı tək bir vicdan, nə bilim namusdan, düzgünlükdən ibarət deyil axı. İnsanın nöqsanı da var, səhvi də var, pis cəhətləri də var, çünki insan insandır, canlı məxluqdur, yaxşı-yaman hamısı qarışıb onun içində, amma sən yox, ona görə də insan deyilsən! (Anar.Əsərlər.V cild,Bakı 2005,səh.211)

Həqiqətən də,Dilarənin Qiyas müəllim haqqında dediyi bu sözlər çox ağır ittihamlardır, lakin Qiyas müəllimin xarakterindəki həlimlik,səbrlilik özünü burda da göstərir.O,bütün bu ittihamlara yenə də öz əqidəsinə uyğun cavab verir:

Qiyas (yorğun): Qulaq as, gör nə deyirəm. Çalış məni başa düşəsən. Mən bacarmadım, istədim, amma eləyə bilmədim. Mən o biri uşaqların gözlərini gördüm. Mənə elə baxırdılar ki... Onların hamısı, bax, belə hamısı Şamxalın oğlundan da, Ağarəfinin oğlundan da yaxşı hazırlaşmışdılar. Mənə də elə etibarla, inamla baxırdılar ki.Başa düşürsən, etibarla. Mənim ömrümün çoxu gedib, azı qalıb. Amma onların axı bütün həyatları hələ qabaqdadır. Həyata təzəcə qədəm qoyurlar. Onların etibarını qırmaq olmaz, başa düşürsən,olmaz. Mümkün deyil bu. Əgər onların inamı qırılsa, elə fikrə gəlsələr ki, dünyada ədalət, düzgünlük deyilən şey yoxdur və həyata da bax bu fikirlə qədəm qoysalar, onda nə gözləyir bizi, ilahi? Bax Namiq də bunu bacarmadı, yalan danışa, saxtakarlıq edib canını qurtara bilmədi. Əgər bu qalmasa adamlarda, onda bütün bu dünyanın, hər şeyin nə mənası varmış. Onda hər şey gərək... başa düşürsən... gərək onda hər şey... (Anar.Əsərlər.V cild,Bakı 2005,səh.211)

Təbii ki,Dilarə hadisənin təsiri nəticəsində özünü itirmişdir,buna görə də bu sözlər onun cəfəngiyyatdan başqa bir şey deyildir.Ana bir cəfakeş ana olaraq öz dərdini,yəni oğlunun tutulmasını düşünür,bu zaman o qəzada ölmüş Qumrunu yadına salmaq belə istəmir, ancaq əsərin sonlarında Qumrunun anasının faciəsini gördükdən sonra öz dərdini unudur və belə deyir:

Dilarə: İyirmi iki (Kədərlə). Mən vağzala getmişdim, Qiyas, o arvadı qarşılamağa. Dəhşətdir, Qiyas. Sən təsəvvür eləyə bilməzsən.Vaqondan gülə-gülə düşdü. Əlində də bir banka göbələk vardı.(Ağlayır). Danışa bilmirəm, Qiyas. Ömrüm boyu unuda bilməyəcəm onun qışqırığını. Biləndə ki... ilahi, övlad itirməkdən ağır nə dərd ola bilər? Yeganə balanı... Ayrı heç kəsi yoxdur. Əri təzə arvad alıb.İnanırsan, Namiq də yadımdan çıxdı.(Anar.Əsərlər.V cild,Bakı 2005,səh.211)

Bəli,bununla da Anar Dilarənin xarakterini bizim gözümüzdə tamamilə dəyişməyi bacarmışdır.Bunu edərkən, başqa bir faciədən,yəni Qumrunun anasının faciəsi hadisəsindən bir vasitə kimi istifadə edir.



Qiyas müəllimin ailəsi onu anlamaq istəməsə də,ümumilikdə,həmin dövr üçün bir ailə kimi düzlük və saflıq rəmzidir.Bu mühitdə böyüyən Namiq də xarakter cəhətdən atasına oxşamışdır.Namiq qəza törədərkən əmisi oğlu Rasim işi öz üzərinə götürmək istəyir,buna görə də həmin gün Namiqi sərbəst buraxırlar,lakin o bunu özünə sığışdırmır və gedib öz razılığı ilə təslim olur.Bu isə onun ailəsinin ona necə tərbiyə verdiyindən xəbər verir.

Qiyas müəllim bu çirkin mühitdə düzgünlüyü təmsil edən tək obraz deyil.Belə obrazlardan qonşusu taksi sürücüsü Əjdəri,Qumrunun anasını və başqalarını göstərə bilərik.Bu cür insanların sayları az olmasına baxmayaraq,bu yoxluq içərisində Qiyas müəllim üçün böyük dəstəkdir.Qiyas müəllim bu insanlar sayəsində özünü bu çirkin mühitdə tənha hiss etmir,bunu qonşusu Əjdərə öz diliylə də deyir:

Qiyas: Baxıram sənə, Əjdər kişi, ürəyim fərəhlənir: nə yaxşı ki, bu dünyada sən də varsan.

Əcdər: Durdun söz danışdın da.

Qiyas: Onsuz da biz onlardan çoxuq. Güclüyük də onlardan.(Anar.Əsərlər.V cild,Bakı 2005,səh.214)

Anarın "Adamın adamı" komediyasındakı satirik ruh obrazların xarakterlərinə də yansımışdır.Belə ki, pyesdə satirik ruh və lirik pafos vəhdətdədir.Əsərin əvvəlində Fağır Bağırla Süsən Sünbülün məhəbbətinin təsviri bizə məhəbbət dastanlarını xatırladır,bu zaman müəllif ayrı-ayrı kişi və qadın səsindən istifadə etmişdir:

Kişi səsi (meyxana səpkisində):

Adamın hər işdə adamı gərək,

Yoxsa açarlar başına min kələk,

Dadına yetməz özü gəlsə fələk,

Qoy belə mətləblərə bərkdən gülək.

Xor:

Gəl belə mətləblərə bərkdən gülək,

Qoy belə mətləblərə bərkdən gülək.

Qadın səsi (“Kəsmə şikəstə” üstə):

Deyir əziziyəm, adə balam,

İstəyirsən sayın olsun,

Hər işdə payın olsun,

Ağıl-kamal nəyə lazım,

Təki zorba dayın olsun..(Anar.Əsərlər.V cild,Bakı 2005,səh.68)

Bununla da müəllif çatdırmaq istəyir ki,həyatda Fağır Bağır və Süsən Sünbülün təmsil etdiyi saf məhəbbətlə yanaşı, belə iyrənc işlərdə vardır.Kişi və qadın səsləri də bunun üçün bir vasitə rolu oynamışdır.

Anar “Adamın adamı” pyesində obrazların nitq və hərəkətlərinin fərdiləşməsindən,remarkalardan, monoloq və dialoqlardan o qədər məharətlə istifadə etməyi bacarmışdır ki, bütün bunlar pyesdə xarakter yeniliyini təmin edən vasitəyə çevrilmişdir.Bu pyesdə hadisələr “Az.Yaz.Poz idarəsi”ndə cərəyan edir.Təbii ki,bu xəyali bir məkandır,real deyildir.Bu idarənin işçilərinin vəzifələrini özləri bilmədikləri kimi bizdə bilmirik,ancaq təsəvvür edirik ki,bu idarə və işçilər realda nəyisə və kimsələri təmsil edir.Müəllif bu əsərdə də adi hadisələrə böyük məna verməyi bacarmışdır.Buna elə əsərin əvvəlindən şahid oluruq.Burdakı məkanın divarı yoxdur, üç qapısı vardır ki,bunlarda fəzadan asılı vəziyyətdədir,insanlar bu qapıların arasında olan boşluqdan keçə biləcəkləri halda qapının içərisindən keçirlər.Qapıların fəzada,eyni zamanda natural və meşin olmasıda təsadüfü deyil.Bütün bunlar pyesə komiklik qatmağı bacaran vasitədir.



“Az.Yaz.Poz idarəsi”nin müdiri İbiş İbişlidir.Onun birinci müavini Fənd Fərəc,ikinci müavini isə Nazlı Qəmzəlidir.Bu obrazların xarakterlərindəki mənfi keyfiyyətlər öz aralarında etdikləri söhbətlərdə üzə çıxır.Bunu nümunə olaraq,Nazlı Qəmzəli ilə Fənd Fərəc arasında olan dialoqa nəzər yetirə bilərik:

Fərəc: Nazlıcan, salam, salam, əzizim.

Nazlı: Xoş gördük, Fərəc.

Fərəc: Əcəb gözəlləşmisən, Nazlıcan. Belə hüsn-camal olmaz, beləxətti-xal olmaz, hara belə göyçəkləşirsən, bilmirəm.

Nazlı (işvə ilə): Əşi, boşla görək, qoy oturmuşuq.

Fərəc: Bu sapojkilərin də təzədir. Əcəb yaraşır.

Nazlı (tutulur): Nədir ki? Qardaşım alıb…

Fərəc: Nə deyirəm ki, sağlığına qismət olsun. O gün Babayevin skladına da bunun cüt ekizini gətirmişdilər. Arvadımçün almaq istədim. Mənə çatmadı.

Nazlı (əsəbi): Mənə bax, Fərəc! Sən "A" deyəndə mən dalısını bilirəm.

Fərəc (mehriban təbəssümlə): Onu bilməyə nə var ki, Nazlıcan. A-dan sonra B gəlir: A-Ayrızadə, B-Babayev. Həmi?

Nazlı: Elə bilirsən mən sənin işlərini bilmirəm? Cikivi də bilirəm, bikivi də! Gündüz nə eləyirsən, onu da bilirəm, gecə harda yatırsan, onu da bilirəm.

Fərəc: Nazlıcan, sən zənən xeylağısan, mən də centlemenəm. Sən harda yatırsan, onunla işim yoxdur. Amma yatıb yuxunda nə görürsən, onu deyə bilərəm.

Nazlı: Nə görürəm yuxuda?

Fərəc: Yatıb yuxuda görürsən ki, keçmisən mənim yerimə. Oturmusan mənim kabinetimdə, mənim stolumun dalında.

Nazlı: Mənim stolum, mənim stolum… Yalansa sənin stoluna taxtabiti düşsün.(Anar.Əsərlər.V cild,Bakı 2005,səh.74)

Gördüyümüz kimi, müəllif bu söhbətdə Nazlı və Fərəc obrazlarının xarakterlərini açmaq üçün gizli atmacalardan,iki başlı ifadələrdən məharətlə istifadə etmişdir.Maraqlı cəhət ondadır ki,bu iki obraz iş yoldaşı olsalar da bir-birilərini qüsur tapmaq üçün təqib edirlər,eyni zamanda bunu açıq-aşkar şəkildə edirlər.Fərəc Nazlını yuxu görməkdə ittiham edərkən, əslində, özünü də ifşa etmiş olur, çünki o özüdə müdir İbiş İbişlinin yerini ələ keçirmək arzusundadır.

Pyesdə təsvir olunan idarədə riyakarlıq,etibarsızlıq ön planda təsvir olunur.Bu idarədə hər kəsin bir "adamı" var.Məsələn,Səbzəliyev Fənd Fərəcin "adamıdır",eyni zamanda da İbişlinin də arxasında dayanmışdır,Nazlı Qəmzəlinin "adamı" Əli Əyrizadadir.Həmin Əli Əyrizadə ki,hər kəlməsi pul cırmaqdan ibarətdir.Müəllif bu cür insanlara güvənən idarə işçilərinin simasında yalnız özlərini deyil,həmçinin "adamlarını"da tənqid etməyi bacarmışdır.Əsərdə hadisələrin inkişafı zamanı aydın olur ki,Səbzəliyev,Zərbəliyev və Əli Əyrizadə kimiləri işdən çıxarılır və artıq insanlara müsbət keyfiyyətlərinə görə dəyər verilir.Öz dayaqlarını itirmiş Nazlı və Fərəcsə müsbət yöndə dəyişmək əvəzinə,özlərinə başqa bir arxa-dayaq uydururlar.



Pyesdə mənfi xarakterli obrazlarla yanaşı, müsbət obrazlarda vardır.Məsələn,At Balaxanım,Tərs Tahir və başqalarının adlarını çəkmək olar, ancaq onlar mənfi xarakterli obrazların ifşa olunmasında bir o qədər də əhəmiyyət daşımırlar.Müəllifin məharəti də bundadır ki,mənfi obrazları elə öz diliylə ifşa etmişdir.Anar bu pyesdə də xarakter yeniliyinin müxtəlif vasitələrindən istifadə etsə də,sənətin realist prinsip və ənənələrini unutmamışdır.Bu barədə Eynəddin Məmmədovun yazdıqları da fikrimizi təsdiq edir:"Anar böyük cəsarətlə antipodların ifşasına girişmiş və buna müvəffəq olmuşdur.Anarın komediyası bir daha təsdiq etdi ki, yeni ədəbi nəsillər sənətin realist ənənələrinə sadiqdirlər"(Məmmədov E. Dramaturgiyamızda ənənə və novatorluq,B.Yazıçı,1985,səh 199)

Anarın siyasi pamflet üslubunda yazdığı "Səhra yuxuları" pyesi də xarakter yeniliyinin bədii vasitələri baxımından zəngindir, xüsusilə də,bu zənginliyə xarici obrazlar da rəng qatır.Müəllif Tom Soyer,Lu və onun atası Bruk sayəsində Bayalıstanda gedən azadlıq mübarizəsini təsvir etmişdir.Bayalıstan ölkəsi adını öz prezidenti Bayaldan almışdır.Prezident Bayalın ədalətsiz rejimi insanları kölə halına gətirib çıxarmışdır.Müəllif bu ölkəni təsvir edərkən nə qədər də qroteskə müraciət etsə də,təsvir olunan insanlar da,ölkə də gözümüzdə real olaraq canlanır.Təsvir olunan mücərrəd hadisələr əsərə komiklik qatsa da, müəllifin əsas qayəsi bu

olmamışdır.Müəllif onlardan Bayalıstanın acı gerçəklərini üzə çıxarmaq üçün bir vasitə kimi istifadə etmişdir.Bunu anlamaq üçün əsərdə bir səhnəni yada salaq:

Əsərdə Tom Lu ilə etdiyi söhbətlərinin birində Bayalıstan ölkəsində gördüyü bir hadisəni ona danışır.Belə ki,bir gün Tom prezident Bayalın anadan olduğu Bayal kəndinə gedir və orada diqqət çəkən bir səhnəylə qarşılaşır.O görür ki,kəndin bir tərəfində zülmdən,aclıqdan,səfalətdən vəfat edən insanlar var,digər tərəfdə isə sarayda kef içində yaşayan kəndxuda var.Burda o qədər zənginlik var ki,hətta ayaqyolu belə qızılla bəzədilib.Kəndxuda Toma səxavətli və qonaqpərvər yanaşır,ona gizli saxladığı mücrünü belə göstərir.Mücrünün içərisində iyirmi kiloqrama yaxın göz bəbəkləri vardı.Bu bəbəklərsə,Bayal kəndinin sakinlərinə aid idi.Kəndxudanın dediklərinə görə, bu insanlar prezidentə qarşı çıxmış və buna görə də cəzalandırılmışdır.

Bu hadisədən təsirlənən Tom dərhal Bayal kəndini tərk edib,burda müşahidə etdiklərini polkovnik Əmirə çatdırdı,lakin Əmir bütün bunlara heçnə olmamış kimi reaksiya verdi və Toma yuxu gördüyünü dedi.Bunu da belə izah etdi ki,bu cür yuxular Səmum küləyinin təsirindən baş verir.Əmir Tomun dediyi kəndxudanın həyatda həqiqətən olmadığını da vurğuladı.Sonralar Tom bu məsələni yoxlayanda anlamışdı ki, kəndxudanı onlar yoxa çıxarmışdır.

Tomun dedikləri, şübhəsiz ki, cəmiyyət qaydaları ilə o qədər əkslik təşkil edir ki, bunların yuxu olduğunu,həqiqətən də, düşünmək olar.Tom özünün bu çarəsizliyinə çıxış yolu olaraq içkini görsə də,bu dəhşətli ölkədə Vətənin,xalqın və insanlığın uğrunda daha cəsur mübarizə aparan insanlarda vardır.Belə insanlara nümunə olaraq, doktor Kərimi və “Azadlıq ya ölüm” təşkilatının nümayəndələrini göstərə bilərik.Onların bu mübarizədə tutduqları yol eynidir,lakin mübarizə aparmaq üsulları fərqlidir.Belə ki,Doktor Kərim bu yolda sülh tərəfdarıdır,“Azadlıq ya ölüm” təşkilatının nümayəndələri isə inqilabın tərəfdarlarıdır.Doktor Kərim humanist xarakterli bir obrazdır,o başqalarına zərər gəlməməsi üçün öz canından belə keçməyə razıdır.Buna baxmayaraq,Doktor Kərim Bayal rejimi qarşısında məğlub olur.



Doktor Kərim Tom vasitəsilə gizlin görüşdüyü Luya görə tutulur və işgəncələrə məruz qalır,lakin o,Lu və Tomla etdiyi söhbəti onlara danışmır.Belə olan halda,Bayal rejimi hiyləyə əl atır.Belə ki,onun soyğunçuluq etdiyini və qoca bir arvadı öldürdüyünü deyirlər, bunun polkovnik Əmir yalançı şahidlər belə tutmuşdur.Bütün bunlarla sıxışdırılan Kərimin imdadına “Azadlıq ya ölüm” təşkilatının nümayəndələri gəlirlər.Onlar Doktor Kərimi xilas etmək üçün professor Brukun qızı Lunu girov götürürlər.Müəllif Lunun əsir olmasından da bir vasitə kimi istifadə edib Lunu “Azadlıq ya ölüm” təşkilatının nümayəndələri ilə ayrı-ayrı qarşılaşdırır və bu zaman da onların xarakterlərini ortaya qoymuş olur.

Pyesdə öz cəsurluğu ilə seçilən Leyla obrazı da diqqət çəkməyi bacarmışdır.Leyla ölkənin prezidenti Bayalın yaxın adamı olan generalın övladıdır.Leyla obrazı əsərdə az işlənsə də,oxucu onun xarakteri haqqında başqalarının dedikləri sayəsində aydın təsəvvürə malik olur.Bu isə,təbii ki, xarakter yeniliyinin bir vasitəsidir,lakin müəllif Leyla xarakterini oxucunun təsəvvüründə formalaşdırarkən bununla kifayətlənməmişdir.Onun ölüm ayağına gedərkən atasına yazdığı səmimi etirafla dolu məktubu da oxucu təsəvvüründə onun xarakterini tamamlayan vasitə kimi çıxış edir:

Leyla: Ata! Təəccüblənmə, bu məktubu sənə yazıram, çünki yer üzündə ən yaxın adamım bircə sənsən... həmişə səndən çox uzaq olmuşuq, ata, amma həmişə səni sevmişəm, inqilabçı kimi yox, Leyla kimi yox, sənin balaca “qara balan” kimi sevmişəm... Yadına gəlirmi, ata, köhnə evimizdə iri bir soba vardı, yanında yumşaq bir kürsü vardı. Mən balaca olanda otuzdurardın məni dizlərinin üstündə, elimizin ən qədim, ən qəmli nəğmələrini oxuyardın...“Səhranın qoxusu var, səhranın yuxusu var”... Mənim uşaqlığım xoşbəxt keçmişdi, ata – sən məni əzizləyir,

süsləyirdin, çoxlu qəşəng paltarım, oyuncağım vardı, dadlı yemək yeyirdim. Mən xoşbəxtdim... Xoşbəxtdim o vaxta qədər ki, bixəbərdim. Ölkəmizdə uşaqların çoxunun bir parça çörəyə, evə, geyimə möhtac olmasından xəbərim yox idi. (Anar.Əsərlər.V cild,Bakı 2005,səh.279)

Dramaturq bu cür etiraflar sayəsində obrazların əsl insana məxsus müsbət xüsusiyyətlərini çox məharətlə ortaya çıxarır.Xüsusən də,bu cür etirafları "Azadlıq ya ölüm" təşkilatının nümayəndələrinin dilində istifadə etdirməsi məqsədə uyğundur.Belə ki, müəllif bununla göstərməyə çalışır ki, bu insanlar kənardan baxınca nə qədər duyğusuz,hissiz biriləri kimi görünsə də, əslində onların daxilində həssas və kövrək bir ürək var.

Müəllif "Azadlıq ya ölüm" təşkilatının nümayəndələri öləndən sonra onların qırılmaz ruhunu göstərmək üçün daha bir vasitədən istifadə edir.Bu da,amerikalı qızın xəyalında təzahür edir:

Lu (yenə diksinərək): İlahi, Tom, ora bax... Bu yuxu deyil...İndi bayaq Mehdi dayanan yerdə ağ kəfəndə Leyla dayanıb. Tom çevrilən kimi xəyal qeyb olur.

Tom: Nə var orda, canım?

Lu: Mən lap aydın gördüm, Leyla dayanmışdı orda... Elə də gözəl idi ki...(Anar.Əsərlər.V cild,Bakı 2005,səh.283)

Burda diqqəti cəlb edən cəhət elə bundan ibarətdir ki, müəllif bilərək bu xəyalları Luya gördürür.O,bununla Amerika kimi böyük ölkənin təmsilçisinə kiçik bir təşkilatın qırılmaz,əzmkar ruhunu göstərir.O bundan sonra Tomdan fərqli olaraq bütün bu haqsızlığa susmayacaq və getdiyi hər yerdə Leyla kimi mübarizə aparmağa çalışacaq.

Həqiqətən də,Anar bu pyesdə xarakter yeniliyinin bədii vasitələrindən vəhdət halında istifadə etmişdir.Bu barədə Yaşar Qarayev də dəyərli fikirlər söyləmişdir:"...Faciə finalı ilə tamamlanan siyasi pamfletdə sintez əlamətləri aydın hiss olunur:burada faicə,məzhəkə,qəzet,xronika,psixologizm və publisistika,satirik qrotesk və teleqraf dilinin əlamətləri qaynayıb-qarışır.Bayalstan özü bir metafora kimi məhz bu mozaikadan yaranır,siyasi satirik inkar da ayrı-ayrı ünsürlər şəklində deyil, bütünlüklə səhra metaforasının özündədir."(Yaşar Qarayev."Meyar şəxsiyyətdir" səh.257)



Anarın özünün də bəhrələndiyi dahi sənətkarımız Cəlil Məmmədquluzadənin obrazını yaratdığı "Sizi deyib gəlmişəm" pyesi də diqqət cəlb edir.Belə ki,hadisələr Cəlil Məmmədquluzadənin ətrafında cərəyan edir.Burda müəllifin əsl məqsədi tamamilə bədii bir obraz yaratmaq olmamışdır,dramaturq onu real,öz sözlərilə təqdim etməyə çalışır.Bunu təkcə Cəlil Məmmədquluzadə obrazına aid etmək olmaz,eyni zamanda,Ömər Faiq Nemanzadə,Mirzə Ələkbər Sabir,Cəlil Məmmədquluzadənin xanımı Həmidə xanım da bu cür təsvir olunmuşdur.

Əsəri oxuduqca müəllifin Cəlil Məmmədquluzadəyə nə qədər dəyər verdiyi gözümüzdə canlanır.Anar bu pyesdə Cəlil Məmmədquluzadənin ənənələrini davam etdirmiş,komik elementləri ictimai problemlərə yansıtmış,kənardan gülüşə səbəb olan hadisələrdən uzaq durmuşdur.Bu isə əsərə özünəməxsus bir keyfiyyət qatmış və onun poetik keyfiyyətini yüksəltmişdir

Anarın dramaturgiyasından danışarkən onun bir-birindən maraqlı telepyeslərini də unutmaq olmaz.Belə ki,o "Qəm pəncərəsi","Dantenin yubileyi","Dindirir əsr bizi","Gecə müsahibi","Evləri köndələn yar","Əlaqə","Təhminə və Zaur","Dədə Qorqud" "Nigarançılıq" kimi telepyeslərin müəllifidir.Göründüyü kimi,müəllif dramaturgiya sahəsində olduqca böyük işlər görmüşdür.

"Gecə müsahibi" telepyesi "Mən,sən,o və telefon" hekayəsinin motivləri əsasında yazılmışdır.Bu əsərin mövzusu insan talesidir.Məhəbbət mövzusuna da yer verilsə də,bu özünü

o qədər də qabarıq göstərməyi bacarmır.Əsərin əsas qəhrəmanı yalnızlıq içərisində boğulan və bu yalnızlıqdan yaxa qurtarmağa can atan bir obrazdır.Mədinən yalnız xəyal aləmində və telefonda ünsiyyət qurduğu Rüstəm obrazı da diqqəti cəlb edir.Mədinə yalnızlıqdan çıxış yolu kimi onu görür,ancaq zaman keçdikcə bu duyğular onun üçün adiləşir.Bundan sonra,Mədinə ayrıldığı topluma qayıtmağa çalışır.Gerçəkdə Seymurla qarşılaşır.Bu zaman müəllif Mədinən hiss və həyəcanlarını ustalıqla təsvir etmişdir.

Müəllifin olduqca maraqlı telepyeslərindən biri də "Evləri köndələn yar"dır.Anar bu telepyesi 1986-cı ildə yazmışdır.Bu telepyes bəzi mənbələrdə "teleməsəkə" kimi dəyərləndirilib.Bununda başlıca səbəbi ondan ibarətdir ki,telepyes sırf televiziya üçün yazılıb.Əsər iki süjetlidir.Əsərin əsas konflikti xalq ənənələrinə müasir cəmiyyətdə insanların münasibəti üzərində qurulub,lakin bununla yazıçı sadəcə münasibəti təsvir etməyə çalışmamışdır.Müəllif bu münasibət vasitəsilə obrazların xarakterlərini, daxili aləmlərini açmışdır.

Anar bu telepyesdə mövcud dövr üçün aktual olan problemlərə toxunmuşdur.Müəllif bu zaman müxtəlif obrazların monoloq və dialoqlarından o qədər məharətlə istifadə etməyi bacarmışdır ki,əsərin bütünlükdə ideyasını çatdırmağı bacarmışdır.Əsər iki süjet əsasında qurulduğundan pauzalara xüsusi yer verilmişdir.Bu oxucunu daha çox intizarda saxlamağa yönəlmiş bir vasitədir.

Müəllifin özünün də radiopyes adlandırdığı "Yaşıl maşın" əsəri 1975-ci ildə yazılmışdır.Bu əsər janrın tələblərinə uyğun olaraq kiçik həcmlidir,əsərdə yalnız səkkiz obraz iştirak etmişdir.O bu pyesdə həmin dövrün cəmiyyəti üçün aktual mövzu olan institutlarda rüşvət məsələsinə toxunmuşdur.Yazıçı bu pyesdən sonra bu mövzunu daha geniş işləmək ehtiyacı duyduğundan "Şəhərin yay günləri " pyesini yazmışdır.



Anarın dahi sənətkarımız Cəlil Məmmədquluzadəyə həsr etdiyi telepyesi də vardır.Bu sənədli əsərin adı "Dindirir əsr bizi"dir və 1976-cı ildə yazılmışdır.Bundan başqa,yuxarıda qeyd etdiyimiz "Sizi deyib gəlmişəm" pyesi də Cəlil Məmmədquluzadəyə həsr olunmuşdur.Bu da onu göstərir ki,Anar Cəlil Məmmədquluzadədən kifayət qədər bəhrələnmiş və buna görə də ona iki əsər həsr etmişdir.Bu telepyesdə də "Sizi deyib gəlmişəm" pyesində olan obrazlar:Ömər Faiq Nemanzadə,Mirzə Ələkbər Sabir,Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım və başqaları iştirak etmişdir.

Anar Cəlil Məmmədquluzadədən faydalanmağa davam etmiş və onun bəzi hekayələrini sintez edərək "Nigarançılıq telepyesini də yazmışdır.Əsər 1998-ci ildə yazılmışdır.Dramaturq dahi sənətkarın bir neçə əsərini birləşdirərək yeni bir əsər ortaya qoymaqla dünya ədəbiyyatından götürülmüş təcrübəni ədəbiyyatımızda uğurla davam etdirməyi bacarmışdır.Onu da qeyd etmək lazımdır ki,Anar bu telepyesdə təqlidçi olmamış,dahi sənətkarımız Cəlil Məmmədquluzadənin hekayələrindən bəhrələnərək dövrə uyğun yeni bir əsər yaratmışdır.Bu səbəbdən də,əsərə yeni obrazlar da daxil etmişdir.Belə obrazlardan biri Arakelovdur.O bu əsərdə erməni hiyləgərliyinin nümayəndəsi kimi çıxış edir

Anarın ssenari yaradıcılığında özünü müsbət yöndən büruzə verən əsərlərindən biri də "Dədə Qorqud" əsəridir.O bu əsəri 1975-ci ildə yazmışdır.Əsər qəhrəmanlıq dastanımız olan "Dədə Qorqud"un motivləri əsasında qələmə alınmışdır.Müəllif dastanı təqlid etməyə çalışmamış, dastanı müasir dövrə uyğun zənginləşdirməyə çalışmışdır.Anarın epos üzərində ciddi axtarışlardan sonra bu əsər ortaya çıxarmışdır.Ssenarini yazarkən müəllif Dədə Qorquda daha çox yer ayırmış,onu həqiqətən eposda olduğu kimi idarəçi,istiqamət verən bir obraz kimi təsvir etməyi bacarmışdır.Dədə Qorqud xarakteri mühitin tələblərinə uyğun olaraq

yaradılmışdır.Anar bu kiçik həcmli əsərdə irihəcmli bir eposun hadisələrinin ardıcıllığını qorumağı bacarmış və bunu ustalıqla təsvir etmişdir.

Anar 1978-ci ildə “Dantenin yubileyi” ssenarisini yazır.Qeyd edək ki,Anarın bu adda məşhur bir povesti də var.Bu ssenarinin mövzusu da adi ailə-məişət həyatindan götürülmüşdür.Müəllif povest əsasında ssenari yazmaq ənənəsini davam etdirmiş və 1990-cı ildə “Əlaqə” ssenarisini yazır.Bu əsərdə müəllif povestdən fərqli olaraq elmi-kütləvi janrın tələblərinə uymuşdur.Bu isə,təbii ki,dəyişən zamanın tələbinə görə idi,lakin onu da söyləmək lazımdır ki, əsərdəki bütün fantastik ünsürlər gerçek hadisələrə dayanır.

# THE USE OF PUBLIC RESOURCES IN THE WORKS OF TEYMUR ELCHIN

# TEYMUR ELÇİN YARADICILIĞINDA XALQ QAYNAQLARINDAN İSTİFADƏ

**Şöhrət Nüsrət qızı Məmmədova**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müdiri, Filologiya üzrə fəlsəfə doktor, dosent,**

**https://orcid.org/.0009-0006-6553-6385**

Azərbaycan xalq bədii qaynaqlarından səmərəli, yaradıcılıqla istifadə edərək bir-birindən maraqlı şeirlər, nəğmələr, laylalar, fantastik poema və nağıllar yazan sənətkarlardan biri də Teymur Elçindir.

Xalq ədəbiyyatından istifadə edərək fikri sadə şəkildə ifadə etmək, yeni formalar tapmaq, uşaqların qəlbinə şüuruna təsir edə biləcək əsərlər yazmaq Teymur Elçin yaradıcılığının məgzidir. Xalq ədəbiyyatına məxsus sadəlik, şeirin vəzni, qafiyələrin oynaqlığı, sözün məna silqətinə tabe edilməsi, qələmə aldığı mövzunun inandırıcı, təbii səslənməsi onun yaradıcılığının başlıca keyfiyyətidir.

T.Elçinin yaradıcılığını təhlilə cəlb edən tənqidçi-ədəbiyyatşünas, akademik Bəkir Nəbiyev yazır: "Teymur Elçin Azərbaycan klassik poeziyasını yaxşı bilən, müasir rus və dünya ədəbiyyatının nailiyyətlərini öyrənən və istedadla yazılmış uşaq əsərlərində bunlardan yaradıcılıq yolu ilə faydalanan şairlərimizdən biridir. Onun əsərlərinin ən mühüm məziyyəti bununla izah olunur ki, şair öz sözünü uşaq aləminə, psixologiyasına məxsus incə bir kamertonla kökləməyi bacarır. Balacaların mənəviyyatına dərindən nüfuz edə bildiyi üçün T.Elçin onların bakir fikir və duyğular, arzu və həvəslər, maraq və duyğular dünyasında öz şeir və poemaları ilə doğmadır, arzuediləndir. Onun əsərlərində iki qat olduğunu görənlər haqlıdırlar. İlk təəssüratla bağlı olan birinci qat şən yumordur. Uşaq ürəkaçan yumorla yoğrulmuş misraları oxuduqca, yaxud dinlədikcə ürəkdən gülür. Lakin əsas qayə ikinci plandan baş qaldırır və fəhmli oxucunu düşündürür"..(4. s.146)



Şair uşaqların leksik imkanlarını daha da zənginləşdirmək üçün sözlərin çoxmənalılığını poetik misralarla izah edir, sözlərin etimologiyasını araşdırır, hansı kökdən yarandığının sirrini onlara açır. "Diz-dizlik", "Saç-saçaq", "Əl-Əlçək", "Qulaq-qulaqlıq" və sair şeirlərində sözlərin müqayisəli izahını verir.!

Şairin şeir-yanıltmacları da bu qəbildən sayıla bilər. Onun "Qarğa və qırğı", "Cücülər", "Keçilər", "Qaz və qız", "Yemişlər", "Tülkünün kürkü", "Alabaş", "Ağacdələn", "Cücülər", "Kosa" və sair şeir-yanıltmaclarının dilində yığcamlılıq, semantik baxımdan tutumluluq nəzərə çarpır. Alliterasiyalılıq daha çox nəzərə çarpan "Keçilər" şeir-yanıltmacında bunun bariz nümunəsini görürük:

Keçilər köçürdülər,

Küçədən keçirdilər.

Küçük qaçdı küçəyə,

Keçilərin kiçiyi

Keçi dedi küçüyə,

Hamı güldü keçiyə. (1.s.136 )

Burada “k” kar samitinin səsləndirilməsi ilk baxışda uşaqlara çətin görünsə də, əslində onların nitqinin səlisləşməsinə xidmət edir.

“Yemişlər” adlı şeir-yanıltmacında şair “y” sonor samitinin fasiləsiz təkrarı ilə poetik ahəng yaradaraq uşaqların şifahi nitqinin cilalanmasına, ifadə etdiyi sözlərin düzgün tələffüzünə xidmət edir:

Yemişləri yemişdilər,

Yeyə-yeyə demişdilər:

Yeyilmişdi yetişməmiş yemişlər,

Yetişmişdi yeyilməmiş yemişlər.(1.s.136)

T.Elçinin qırxa yaxın tapmacadan ibarət olan silsilə şeirləri uşaqların təfəkkür tərzini və əqli keyfiyyətini formalaşdırmaq baxımından maraq doğurur. Balıq haqqında şeir-tapmacanı oxuyuruq:

Üzər suda,

Batar suda,

Gəzər suda,

Yata suda.

Yaxud:

Qanadları,

Qolları var.

Xərcləməyən

Pulları var.  (1.s,137)

Verilmiş şeir-tapmacada ilin fəsillərinin müəyyən edilməsi uşaqların ixtiyarına buraxılır. Dörd hecalı misralardan istifadə etməklə, sadə və aydın ifadələrlə hər bir fasilə xas olan əlamətlər sadalanır, cavabının tapılması isə oxuculara həvalə olunur:

Deyin, nə vaxt

Əriyir qar,

Baş qaldırır

Yaşıl otlar? (Yazda)

Deyin, nə vaxt

İsti olur,

Anbarlara

Taxıl dolur? (Yayda) və sair.(1.s,137)

Tapmaca-şeirlərinin bəzilərinin cavabını tapmaq asan olsa da, elələri də vardır ki, uşaqları dərindən düşünməyə vadar edir. Məsələn:

Toxudum, hördüm,

Büründüm, yatdım.

Yuxu da gördüm,

Bir gün özümü

Özüm oyatdım. (İpəkqurdu)

Dağlarda qar əridi,

Ayaq tutub yeridi,

Dərə görüb çağırdı,

Dəniz görüb kiridi. (Çay). (1, s.137)

Bütövlükdə götürəndə, T.Elçinin bədii yaradıcılığı folklor motivlərindən yoğrulmuşdur. Bu da səbəbsiz deyildir. Çünki şair Azərbaycan şifahi xalq ədəbiyyatını dərindən bildiyi kimi, dünya xalqlarının folkloruna da yaxından bələd idi. Onun yaradıcılıq laboratoriyasını araşdırdıqca həm milli, həm də dünya folklor nümunələrindən bəhrələndiyi qənaətinə gəlmək mümkündür. Məsələn, şair "Oğul Buğac" poemasını ulu dastanımız "Dədə Qorqud"un motivləri əsasında qələmə almış, sadə, ahəngdar, oxunaqlı poetik dili ilə qorxmaz, mərd Buğacın vətənə, müqəddəs torpağa, doğma elinə, obasına, ata-anasına olan sevgisini təsvir etməklə, böyüməkdə olan yeni nəslin bu ruhda tərbiyə olunmasını və onların qəlbində dünənimizə və gələcəyimizə məhəbbət duyğuları oyatmasını qarşısına məqsəd qoyur və buna nail olur.

T.Elçin "Qar qız" poemasını yazarkən rus foklorundan bəhrələnsə də, "Pekin zəngi"ndə Çin xalq əfsanəsindən istifadə etmişdir. Hər iki poema öz məzmunu, maraq dairəsi baxımından diqqəti cəlb edir.

Laylalar folklorun ən qədim janrlarından biridir. T.Elçin ilk dəfə sədası bəşər övladına çatan bu janrdan məharətlə istifadə edərək: "Hər anaya öz balası, hər balaya öz laylası" prinsipini əsas götürərək müxtəlif canlıların "ana-bala" münasibətini onların xarakterik xüsusiyyətlərinə əsaslanaraq nəzmə çəkmişdir. Şair hər bir canlının balasına öz dilində layla çaldığını bildirir və turacın, delfinin, qurbağanın, canavarın və kirpinin laylasını ayrı-ayrılıqda qələmə alaraq, insanın (ananın) söylədiyi layla ilə müqayisə edir. Şair oxucularına belə bir fikir aşılayır ki, hər anaya öz balası əzizdir. O, turacın dili ilə təbiətin zərif məxluqlarına düşmənlərdən ehtiyatlı dolanmağı, ayıq olmağı tövsiyə edir. Sonra şair oxucunun diqqətini heyvanlar aləminə yönəldir. Canavarın yırtıcılığını, vəhşiliyini real boyalarla təsvir etməklə, şair vəhşi heyvanlar arasında təbii bir təzadın mövcud olduğunu bildirir. Adları çəkilən heyvanlar laylalarında yalnız öz xasiyyətlərini büruzə verir, balalarının da onlar kimi böyüməsini istəyirlər. Məsələn, yırtıcı canavar öz balasına bu cür layla oxuyur:



Yat, mənim küçük balam,

Tez böyü, kiçik balam,

Qulaqların, gözlərin,

Dişlərin iti olsun.

Quzunun əti olsun yediyin.

Kimi görsən parçala

Böyü, canavar bala.  (2.s.124)

Bəşər övladını tərbiyə edən ana isə öz laylasında balasına xoş arzular diləyir və onun bir şəxsiyyət kimi böyüməsini istəyir. Adı çəkilən şeirlər silsəsində şair oxucularına yalnız bir fikir aşılayır ki, təbiətdə tutduğu mövqeyinə, fəaliyyətinə, xarakterinəə görə bir-birindən fərqli görünən heyvanların və quşların hər birinə öz balası əzizdir. Şair alleqorik üsuldan məharətlə

istifadə edərək, bu canlıların hər birinin xarakterini onların özünəməxsus dillə oxuculara təqdim edir. Canavar şifahi ədəbiyyatda, əsasən yırtıcılığın, dovşan qorxaqlığın, tülkü hiyləgərliyin rəmzi kimi təsvir olunmuşdur. T.Elçinin uşaq şeir yaradıcılığında da ("Dovşan, tülkü, canavar" və s.) bu tipli alleqorik obrazlara tez-tez rast gəlmək olur.

Folklor materiallarında bülbül gözəl səsin simvolu kimi təqdim olunursa, qarğa onun tam əksi kimi olunur. Yaxud, qarğa özünü bütün quşlardan gözəl və üstün hesab edir, lakin son nəticədə ifşa olunaraq qınaq meydanına çəkilir. Bu baxımdan, T.Elçinin qələmə aldığı mənzum nağılları özünün tərbiyəvi əhəmiyyətinə görə diqqəti cəlb edir. Onun "Qarğanın məktəbində", "Dovşanın evi", "Üç qardaş, bir bacı", "Pişik və sərçə", "Qarğa niyə qarr eləyir?", "Billurənin nağılı", "Qızulduz, Yaşar və Nur nənə", "Dovşan, tülkü, canavar" və sair nağılları sənətkarlıq baxımından yüksəkdə dayanır.

"Qarğanın məktəbində" mənzum nağılı janr baxımından fərqlənsə də, məzmunca S.S.Axundovun "Tutuquşu" hekayələri ilə eyniyyət təşkil edir.

"T.Elçinin bu əsərində uşaqlarda ana dilinə, xalq mahnılarına və nəğmələrinə məhəbbət oyatmaq, xalqa, vətənə sədaqətlə xidmət etmək kimi xeyirxah ideyalar təbliğ olunur. Şair şifahi danışıq dilinin təmizliyinə xələl gətirən, özünü müasir adlandıran, nəticədə, öz ana dilində danışmağa yadırğayan, yad dillərə meyl göstərən üzdəniraq adamları ifşa etməklə yanaşı, yeni nəslə öz ana dilini sevməyi, yad ünsürlərin təsirinə düşməməyi, heç kimi təqlid etməməyi tövsiyə edir."(10.s.266)

Əsərin məzmunu bundan ibarətdir ki, qarğa bütün quşları öz başına toplayıb, onlara dil öyrətməyə çalışır. Sərçəni qarıldamağa məcbur etsə də, sərçə özü bildiyi kimi cikkildəyir. Qarğa dəridən-qabıqdan çıxsa da, cikkildəməyi sərçəyə yadırğada bilmir. Bildirçin, dolaşa və bülbül də qarğanın dediklərinə əməl edə bilmirlər. Qarğa istədiyini əldə edə bilmədiyinə görə əsəbləşir və bundan mütəəssir olur.



Qarğanın arzusunu yalnız tutuquşu yerinə yetirə bilir. Qarğa nə deyirsə, tutuquşu da onun dediklərini təkrar edir. Bu, qarğanın ürəyincə olur. Tutuquşunun riyakarlığı, qarğaya uyğunlaşması, digər quşlar tərəfindən nifrətlə qarşılamır.

Əsərdən də göründüyü kimi, T.Elçin dolayısı yolla olsa da, yabançı dillərin təbliğinə öz mənfi münasibətini bildirmiş, bu tələyə düşən müti xarakterli adamların iç üzünü tamamilə açıb göstərmişdir.

T.Elçin insanın kosmosda əldə etdiyi elmi nəticələri, müasir texnikanın sabah nəyə qadir olacağını bədii, oynaq və ahəngdar bir üslubda balaca oxuculara çatdırır, onların düşüncə tərzinə müsbət təsir göstərir. Müəllif nağılların fantastik mahiyyətindən, həm də kosmik elmi nəticələrdən istifadə yolu ilə bitkin əsər yaradır.

"Qızılduz, Yaşar və Nur nənə" nağıl-poeması, həm nağılların fantastik mahiyyətindən, həm də kosmik elmi nəticələrdən istifadə yolu ilə yaranmışdır. Müəllif nağılların fantaziyasından, bəzən də elmin möcüzəli nailiyyətlərindən istifadə yolu ilə yaranmışdır. Müəllif nağılların fantaziyasından, bəzən də elmin möcüzəli nailiyyətlərindən istifadə edərək həm nağılların, həm də elmi-fantastik əsərlərin xüsusiyyətlərini özündə cəmləşdirir.

Balaca Yaşar Aya uçmaq istəyir. Halələnmiş Ayın parlaq şüaları uşağın xəyalnı məşğul edir, onu qoynuna çağırır. Lakin Aya necə uçmaq olar? Şair ədəbi priyomdan məhrarətlə istifadə edərək öz istəyinə çatır. Yaşarla Qızulduz Aya uçurlar. Onlar xalq nağıllarındakı Simurğ quşunu xatırladırlar. Nağıllardan uşaqlara tanış olan, xayirxahlıq mücəssəməsi olan Nur nənə ilə görüşürlər. Nur nənə uşaqların Aya uçuşunu sevinclə qarşılayır, onların buraya tez-tez gəlməsini xahiş edir.

Şair uşaqların Aya uçuşunu təsvir edərkən, xalq nağıllarının fantastik xüsusiyyətlərindən istifadə edirsə, Ayın coğrafi təsvirini real, bədii boyalarla yarada bilir.

Müəllif Nur nənə obrazını da məharətlə təsvir edir. Uşaqlara bu xeyirxah, nurani qarı haqqında ətraflı məlumat verir. Nur nənə Ay planetinin bədrləndiyi zaman ətrafında yaranan halənin insan şəklinə salınmış təsviridir. Şair uşaqlara halənin nə olduğunu başa salmaq üçün onu insan şəklində təsvir etmişdir.

Əsərdə təsvir olunan Günəşin uşaqları da bu qəbildəndir. Onlar hər səhər uçub Ayın qoynuna girir, axşamlar isə çıxıb gedirlər. Günəşin səhər çıxıb, axşam batmasını da müəllif obrazlı şəkildə təsvir etmiş, əsərin fantaziyasını zənginləşdirməyi, uşaqların xəyalına təsir göstərməyi qarşısına məqsəd qoymuşdur.

Əsərdəki nağılvari hadisələr uşağın yuxusunda baş versə də, əslində bu poema balacalar üçün yazılmış müasir fantastik əsər təsiri bağışlayır. “Bip-bip” poeması da elə bu qisim əsərlər silsiləsinə daxil edilə bilər.

T.Elçinin “Toğrul babanın nağıl ağacı”, “Səyahət”, “Küsdü, barışdı Mərcan”, “Tuk-tuk, tak-tak” adlı mənzum nağıllarının əsas ideyası da uşaqlara mənəvi təmizlik və gözəllik hissləri aşılamaq, onları igidlik, qəhrəmanlıq ruhunda tərbiyə etməkdən ibarətdir.

“Toğrul babanın nağıl ağacı” nağıl-poeması uşaqlara tərbiyə aşılayan ayrı-ayrı nağılların sintezindən ərsəyə gəlmişdir. Məsələn, “Kuklaların evində”, “Kilimçi”, “Nar bağı”, “Cırtdan danışdı”, “Ağ göyərçinin nağılı”, “Elçi gəldi Təpəgöz”, “Yuxucul domrulun nağılı” bu poemanın bütövləşməsinə, onun məzmun baxımından zənginləşməsinə xidmət edir.

“Səyahət”, “Küsdü, barışdı Mərcan”, “Tuk-tuk, tak-tak!” mənzum nağılları uşaqların mütəliəsi üçün ən gözəl bədii əsərlərdən sayılır. “Səyahət”in mövzusu müasir həyatdan alınmışdır və müəllif bu əsəri, özünün də sevdiyi, əsərlərini dönə-dönə dilimizə tərcümə etdiyi, görkəmli rus uşaq şairi Korney Çukovskinin əziz xatirəsinə həsr etmişdir.



Balaca Elşən böyük hazırlıq işləri görərək dünya sayəhətinə hazırlaşır. Özünün düzəltdiyi “Zümrüd” adlı üzən, uçan sehrli qayığı ilə Afrika qitəsinə səyahət edir. Orada abadlıq işləri görmək, toxum əkib bağ salmaq onun əsas arzularından biridir. Həmçinin, dəvəquşunun xahişi ilə lovğa, qorxulu timsahdan digər canlıları xilas etmək üçün fəaliyyət göstərən Elşən yerli əhalinin dostuna çevrilir. Üç il üç ay Afrikada məskən salan bu igid uşaq onlara arxa durur, böyük bağ salır, xeyirxah işlərlə məşğul olur.

Şairin təsviri nağılvari olsa da, hadisələr elə inandırıcı, elə məharətlə təqdim olunur ki, balaca oxucular sənətkarın qələmindən çıxan əhvalatların reallığına inanmaya bilmirlər. Bu isə T.Elçinin sənətkarlığından irəli gəlir.

“Küsdü, barışdı Mərcan” mənzum nağılında şair bir pişiyin (Mərcanın) həyat tərzini elə canlı təsvir edir ki, sanki söhbət bir uşağın keçirdiyi həyat tərzindən gedir. Mərcan Qaplan adlı it tərəfindən incildiyi ümün ondan küsür və özünə yeni ev tikdirmək arzusu ilə yaşayır. Uşaqlar – Elşən, Fariz, İlqar və Vüqar ona ev tikməli olurlar. Mərcana lazımi şərait yaradıldıqdan sonra o, Qaplanla barışmağa razılıq verir.

“Tuk-tuk, tak-tak” adlı alleqorik nağılı isə şair təzə dil açmış uşaqlar üçün qələmə almışdır. Ona görə də, şeirin misraları əsasən 5 hecadan ibarətdir, dili isə olduqca sadə və aydındır. Bu əsərdə müəllif uşaqları bütün ev quşları və heyvanları ilə yaxından tanış edir.

T.Elçin yaradıcılığında mənzum nağıllara daha çox yer vermişdir. “Pişik və sərçə”, “Dovşan, tülkü, canavar”, “Üç qardaş, bir bacı”, “Muratino” və sair əsərlərinin maraqlı süjet və kompoziyası uşaqları özünə cəlb edir, oxunaqlığı ilə onları öz təsiri altına sala bilir.

Şairin yaradıcılığında təmsillərə də rast gəlmək mümkündür. “Donuz”, “Öküz”, “Dayı”, “Ulaq” adlı təmsillərində tənqid və ifşa üsulu əsas götürülmüşdür. Məsələn, “Donuz” təmsilində şair yaratdığı tipi tam aydınlığı ilə təqdim edir və onun mənfi xüsusiyyətlərini açıb göstərmək üçün folklordan bəhrələnməni üstün tutur ,

T.Elçinin bədii yaradıcılığı öz üslubu, dili, sənətkarlıq xüsusiyyətləri ilə uşaq ədəbiyyatı sahəsinə yeni bir ab-hava və müəllifinə şan-şöhrət gətirmişdir. Əsərləri ilə balaca oxucuları özünə cəlb etməyi bacaran şairin məharəti onda olmuşdur ki, o, uşağın nə istədiyini başa düşmüş, onun qəlbinə nüfuz etmək yollarının sirrinə vaqif ola bilmişdir.

**Ədəbiyyat**

1. Azərbaycan sovet uşaq ədəbiyyatı antologiyası tətib edəти . Ş, Məmmədova . lV cilddə, ll cild, -Bakı, 2018.- 438

2. Azərbaycan sovet uşaq ədəbiyyatı antologiyası.tətib edəти Ş, Məmmədova .lV cilddə lV cild, -Bakı, 2024. -635 s.

3. Namazov Q. AZərbaycan uşaq ədəbiyyatı. -Bakı, BDU, 2007.- 443 s.

4. Nəbiyev B. Söz ürəkdən gələndə. -Bakı, 1984. -282 s.

5. Nəbiyev A, Azərbaycan uşaq folkloru, -Bakı, Elm, 2000.- 459 s.

6. Xəlil Z. Azərbaycan uşaq ədəbiyyatı (rus dilində). -Bakı, 1987.- 497 s.

7. Əsgərli F. Ədəbi düşüncələr. -Bakı, ADPU, 2004, - 456 s.

8. Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı. -Bakı, ADPU, 2009. – 436 s.

9. Əsgərli F. Sehirli dünyanın memarı -Bakı, ADPU, 2010. - 413 s.

10.Əsgərli F. Uşaq ədəbiyyatı -Bakı, ADPU, 2021.- 440 s.

# APPLICATION OF INTERACTIVE METHODS IN AZERBAIJAN LANGUAGE LESSONS

# AZERİCE DİL DERSLERİNDE ETKİLEŞİMLİ YÖNTEMLERİN UYGULANMASI

**Lale Musayeva Qismet kızı**

**Ü. Hacıbeyov 68, Azerbaycan Devlet Pedagoji Üniversitesi, Azerbaycan dili ve öğretim teknolojisi bölümü, ORCİD: 0000-0002-7701-5716**

**Özet**

Etkileşimli yöntemlerin öğretim unsurlarının aktif olarak uygulanması, ikili, küçük ve büyük gruplar halinde çalışmayı içerir.

Etkileşimli öğrenme yöntemleri, öğretmenin birçok geleneksel yaklaşımı yeniden düşünmesini gerektirir. Örneğin sınıfta öğrenciler arasında özgür iletişim oluşturmak kolay görünüyor. Ancak karşılıklı saygı olmadan, birbirini dinleme yeteneği olmadan, dersi yürütmede uygun genel rehberlik olmadan hiçbir şey işe yaramayacaktır.

Sınıfta ortak davranış kuralları temelinde çalışma fikri çok dikkatli ve ısrarla tanıtılmalıdır. Bu, kısa sürede sınıfta daha güvenilir ilişkiler kurulmasına ve öğrencilerin derslerde daha aktif olmasına yol açar.

Ders sırasında öğrenciler arasında ve öğrencilerle öğretmenler arasında yüksek düzeyde etkileşim varsa, öğretme ve öğrenmeyi etkileşimli olarak adlandırırız. Bu tür bir etkileşim genellikle belirli bir sorunun nasıl çözüleceğine ve önerilen çözümün kabul edilebilirliğine ilişkin bir tartışma biçimini alır.

Çoğu sınıfta, yalnızca en iyi öğrencilerin soruları yanıtladığı ve geri kalanların sessiz kaldığı sıklıkla görülür. Öğrencinin, özellikle soru gerçekse ve yanlış cevap olasılığı varsa, sınıfın önünde cevap vermeye gönüllü olacak kadar size güvenmesi gerekir. Belki geleneksel - biliyor musun? sorusu yerine"Ne düşünüyorsun?" sorusuna alışana kadar ilk etapta öğrencilerle bireysel iletişimden kaçınmanız tavsiye edilir. Bunun yerine öğrenci-öğrenci etkileşimine odaklanın.

İnteraktif yöntemlerin geleneksel yöntemlerden daha iyi olduğunu veya tam tersini söylemek tamamen yanlıştır. Bu, birinin ev inşa etmek için çekicin testereden daha iyi bir araç olduğunu söylemesine eşdeğerdir! Uygulamada 45 dakikalık bir derste 5 veya 6 farklı yöntem kullanılabilmektedir. Nitelikli bir profesyonel, öğretmen veya marangoz, görevi en başarılı şekilde tamamlamak için farklı araçları ne zaman ve nasıl kullanacağını bilir.

**Anahtar kelimeler:** yöntem, etkileşim, ders, öğrenci, eğitim, öğretim

**Abstract**

Active implementation of teaching elements of interactive methods involves working in pairs, small and large groups.

Interactive learning methods require the teacher to rethink many traditional approaches. For example, it seems easy to create free communication between students in the classroom. But without mutual respect, without the ability to listen to each other, without proper general guidance in conducting the lesson, nothing will work.

The idea of working on the basis of common rules of behavior in the classroom should be introduced very carefully and persistently. This soon leads to more trusting relationships in the classroom and students become more active in the lessons.

We call teaching and learning interactive if there is a high level of interaction between students and between students and teachers during class. Such interaction usually takes the form of a discussion of how to solve a particular problem and the acceptability of the proposed solution.

In many classes, it often happens that only the best students answer the questions, and the rest remain silent. The student must trust you enough to volunteer to answer in front of the class, especially if the question is factual and there is a possibility of a wrong answer. Maybe traditional - you know? instead of the question "What do you think?" until you get used to the question, you are advised to avoid communication with individual students at first. Instead, focus on student-to-student interaction.

It is completely wrong to say that interactive methods are better than traditional methods and vice versa. This is the equivalent of someone saying that a hammer is a better tool for building a house than a saw! In practice, 5 or 6 different methods can be used in a 45-minute lesson. A qualified professional, teacher or carpenter knows when and how to use different tools to complete the task most successfully.

**Keywords:** method, interactivity, lesson, student, education, training

## 1. GİRİŞ

İnteraktiv tədris metodu ingilis dilindən meydana gəlmişdir, ingilis dilində interact – qarşılıqlı əlaqədə olmaq, bir-biri ilə hərəkət etmək; iştirak yolu ilə öyrənmə, dəyişən qruplar daxilində qarşılıqlı əlaqə [3].



Bəlkə də burada başa düşülməli olan ən vacib şey, problemin həlli prosesinin cavabın özündən daha vacib olmasıdır, bu, interaktiv texnikanın məqsədinin sadəcə məlumatların ötürülməsi deyil, məlumat, yəni, şagirdlərə müstəqil cavab tapmaq bacarıqlarını aşılamaq ilə bağlıdır.

Qrupun ölçüsü öyrənmə və ya qarşılıqlı əlaqənin keyfiyyətini müəyyən etmir. "Qarşılıqlı əlaqə" metodunun əsas xüsusiyyəti ondan ibarətdir ki, bu, kəşf prosesidir ki, onun mahiyyəti şagirdlərin qarşılıqlı əlaqə vasitəsilə öyrənmə bacarıqlarına yiyələnmələridir. [2].

## 2. YÖNTEM

Ən uğurlu öyrənmə məhz qarşılıqlı əlaqə prosesində baş verə bilər. Alimlər hesab edirlər ki, bu yolla şagirdlər daha tez öyrənirlər və müzakirə zamanı öyrəndiklərini daha yaxşı xatırlayırlar. Bu, aşağıdakı səbəblərə görə baş verir:

- şagirdlər təkcə məlumat almaqla kifayətlənmirlər, həm də onların həllə aparan yolunun və həllin özünün nə üçün düzgün və ya ən azı mövcud variantlardan ən yaxşısı olduğuna dair məntiqi izahat verməyə məcbur olurlar;
- şagirdlər ideyalar üzərində daha dərindən işləyirlər, çünki məntiqsiz nəticələrə etiraz ediləcəyini bilirlər;
- şagirdlər problemi həll edərkən özlərinin və başqalarının təcrübəsindən istifadə edirlər. Bu ümumi bilik fondu hər bir fərdi şagirdin biliyindən çoxdur;
- müəllim şagirdlərdən yeni bir şey öyrənə də bilir.

Şagirdləri öz fikirlərini ifadə etməyə həvəsləndirmək üçün müəllimlər aşağıdakı faydalı üsullardan istifadə edə bilərlər:

1) Fikirlərinə görə həmişə onlara təşəkkür edin.

2) Onların cavabının səhv olduğunu düşündüyünüzü söyləməyin, əksinə digər şagirdlərin bu fikirlə razı olub-olmadığını soruşun. Əgər məlum olarsa ki, bütün sinif müzakirə olunan məsələni səhv başa düşüb, onda siz onlara öz nöqteyi-nəzərinizi izah edə bilərsiniz..

3) Passiv şagirdləri seçməyə çalışın. Bəzən bəzi şagirdlər passiv görünür, lakin onların digərlərindən fərqli olan çox orijinal fikir və ya mülahizələri ola bilər və sinfi məsələyə fərqli bucaqdan baxmağa təşviq edə bilər.

İnteraktiv metodda, hər hansı digər tədris metodunda olduğu kimi, qrupda qarşılıqlı əlaqəni təşkil etməyə kömək edən bir çox texnika var. Bu texnikaları aşağıdakı kimi təsnif etmək olar:

- Oxşarlıqlar/fərqlər
- Ranqlaşdırma
- Uyğunluğun tapılması
- Reytinq
- Təsnifat
- Ümumiləşdirmə
- Doğru/yalan
- Düzgündür və ya dəyişikliklərə ehtiyac var
- Üstünlüklər və çatışmazlıqlar
- Nəticələrin müəyyən edilməsi
- Necə düşünürsünüz?
- Araşdırma və hesabat
- Rollu oyun
- Beyin fırtınası
- Debat

Müəllimin yaradıcılığından asılı olaraq interaktiv ola biləcək bir çox başqa fəaliyyət növləri də mövcuddur.

**3. BULGULAR**

İndi nümunə olaraq Ranqlaşdırma texnikasından istifadə edək və aşağıdakı tapşırığı həll edək: "Mənim üçün nə vacibdir?"

Təsəvvür edin ki, kimsəsiz bir adaya səyahət etmək üzrəsiniz. Aşağıdakı siyahıdan özünüzlə yalnız 5 şey götürə bilərsiniz:

Su şüşəsi / kompas / çətir / xəritə / ip / qələm / kitab / çörək / eynək

Bu siyahıdan 5 şeyi seçin və onları sizin üçün əhəmiyyətinə görə sıralayın: əvvəlcə ən vacib, sonra ən az əhəmiyyətli.

Bu tapşırıq şagirdlərdən bir sıra ifadələri nəzərdən keçirməyi və hər birinin digərləri ilə müqayisədə nisbi əhəmiyyətini və ya dəyərini müəyyən etməyi tələb edir.

Sonrakı texnika uyğunluğun tapılması texnikasıdır. Bu tapşırıq şagirdlərdən söz və ya ifadəni təsvirə uyğunlaşdırmağı tələb edir və şagirdlərin çətin mətnləri oxumağa başlamazdan əvvəl yerinə yetirilməsi tövsiyə olunur. Bu, anlayışların mənasını gücləndirmək üçün yaxşı texnikadır.

Tapşırıq – Uyğunluğu tapın.

Cütlərdə işləyərək, hansı heyvanın hansı balasının olduğunu müəyyənləşdirin.

**Tablo 1. Uyğunluğu tapın**

| Heyvan | Balası |
|---|---|
| 1. İt | A) Quzu |
| 2. Qoyun | B) Buzov |
| 3. At | C) Küçük |
| 4. İnək | D) Dayça |

Növbəti texnika Reytinq texnikasıdır. Ranqlaşdırmada olduğu kimi, bu fəaliyyət şagirdlərdən xallar şəklində təqdim olunan sıralama üçün bir sıra bəyanatları və meyarları nəzərə almağı tələb edir. Onlar hər bir ifadəyə hansı reytinqin veriləcəyinə qərar verməlidirlər. Bu tip tapşırıqlardakı cavablar çox vaxt ilk növbədə şəxsi rəyə əsaslanır və çoxlu müzakirələr yarada bilər. Onlar şagirdlərin məsələləri nə dərəcədə yaxşı başa düşdüklərini öyrənmək üçün çox faydalı ola bilər, lakin təbii ki, biliklərini qiymətləndirmək üçün istifadə edilmir.

**Tablo 2. Tapşırıq "Zahid Xəlilin nağılları**



| № | Bəyanatlar | Mənim fikrim |
|---|---|---|
| 1 | Zahid Xəlilin nağıllarını oxumaq və öyrənmək asandır. | |
| | Həm böyüklər, həm də uşaqlar onları sevirlər. | |
| | Nağıllar müxtəlif möcüzələrlə doludur. | |
| 2 | Mən də nağıl yaza bilirəm. | |
| 3 | Zahid Xəlilin nağıllarını ingilis dilinə tərcümə edə bilirəm. | |
| 4 | Nağılların həmişə xoşbəxt sonluğu var. | |
| 5 | Zahid Xəlilin nağıllarını oxumağı çox sevirəm. | |

Doğru/yalan texnikası

Bu texnikanı yerinə yetirərkən şagirdlər ifadələrə diqqətlə baxır və onların doğru və ya yalan olduğuna qərar verirlər. Bu, köhnə anlayışları möhkəmləndirmək, şagirdləri mənbə sənədlərində cavab tapmağa çağırmaq və onların anlayışlarını yoxlamaq üçün yaxşı bir yol ola bilər. Nəticə adətən çox müzakirə olur.

**Tablo 3. Doğru/yalan texnikası**

| № | Təsdiq | Doğru/Yanlış |
|---|---|---|
| 1. | Mirzə Ələkbər Sabir böyük Azərbaycan şairidir. | |
| 2. | Abdulla Şaiqlə yaxın dost olmuşlar. | |
| 3 | Nağıl uydurma hekayədir | |
| 4 | "Uşaq və buz" şeiri Abbas Səhhətindir. | |
| 5. | Mirzə Ələkbər Sabir hər bir əsəri ibrətamizdir. | |

Düzgündür və ya dəyişikliklərə ehtiyac var texnikası.

Bu fəaliyyətdə şagirdlər ifadələrə baxır və onların düzgün olub-olmadığına qərar verirlər. Yoxdursa, bəyanatı yenidən yazmalıdırlar ki, düzgün olsun.

Tapşırıq - Səhvlərin düzəldilməsi

Velosipedin iki ayağı var.

İnəklər ot verir, süd yeyirlər.

Kəndimizdə kitabxana var, polis bölməsi yoxdur.

Təsnifat. Bu tapşırıq şagirdlərdən bir sıra ifadələri meyarlara görə təsnif etməyi tələb edir. Bununla onlar təklif olunan meyarların mənasını daha çox öyrənirlər.



Tapşırıq - Kateqoriyalar

Paytaxt/yaşıl/dəmir/torpaq/dost/daş/oxumaq/isti/oynamaq/şən.

Kateqoriyalar:

İsim

Sifət

Feil

Nə fikirləşirsən?

Bu fəaliyyət şagirdlərdən bunun necə olması və niyə belə olması barədə düşünmələrini tələb edəcək. Sadəcə sual vermək əvəzinə, tez-tez bir sıra fikirlər təqdim etmk lazımdır.

Daha sonra şagirdlər hansının özlərinə daha yaxın olduğuna qərar verməyə çalışırlar. Bu növ tapşırığın məqsədi şagirdləri müəyyən mövzu ilə bağlı müxtəlif nöqteyi-nəzər və məsələlərlə tanış etmək, onları öz fikirlərini formalaşdırmağa yönəltməkdir.

Tapşırıq Nağıllar nəyi öyrədir?

Sizcə kimin cavabı daha doğrudur?

Anar: Nağılları bizə xeyirxahlığı öyrədir ki, çətin anlarda bir-birimizə kömək edək.

Əsgər: Bu barədə heç düşünməmişəm. Sadəcə cavab vermək və yaxşı qiymət almaq üçün oxuyuram. Nağılların hansı tərbiyəvi mənaları ehtiva etdiyini düşünməliyəm.

Aynurə: Sehrli nağıllar çox maraqlıdır. Onlar qızıl qoz-fındıq dişləyən dələ və ya gözəl bir qıza çevrilən Qu Şahzadəsi haqqında olan gözəl möcüzə epizodları ilə doludur. Onlar bizə dərin

təxəyyül, zəngin təsəvvür, qonşumuza əsl sevgi hisslərini öyrədirlər.

Elvira: Mənə elə gəlir ki, nağıllar bizə çox şey öyrədir: təbiətə, heyvanlara, qonşulara məhəbbət, mərhəmət və xeyirxahlıq, cəsarət, həm də ibrətamiz xarakter daşıyır, məsələn, cadügər qarı süpürgə üzərində uçur, Məlikməmməd divə qalib gəlir və s.

## 4. SONUÇ

Bildiyimiz kimi, məktəb cəmiyyətin sosial sifarişlərini yerinə yetirməlidir: şagirdlərə dərin və hərtərəfli biliklər verməli, bacarıq və vərdişləri inkişaf etdirməli, yüksək mədəniyyətə və mütərəqqi dünyagörüşünə malik şəxsiyyətlər yetişdirməlidir [1].

Buna əsaslanaraq ümumtəhsil məktəblərində qeyd olunan problemlərin məhsuldar həlli üçün beynəlxalq standartlara cavab verən yeni pedaqoji-metodiki yanaşmalara, yeni metodik təfəkkür tərzinə ehtiyac var.

Şagirdlərin özlərinə inam hissi o zaman yaranır ki, onlara sinfin və dərsin təşkilində iştirak etməyə icazə verilir, araşdırmaq üçün sərbəstlik verilir, onların fikirləri ictimai müzakirəyə səbəb olur.

## KAYNAKLAR:

1. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı, 2006.
2. Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri. Dərs vəsaiti. Bakı, 2011
3. Эльконин Д.Б. Психология обучения младшего школьника. М.: Знание, 1974. –230с

# CHRONIC ETHANOL CONSUMING INVESTIGATION OF SPAITAL LEARNING AND ACOUSTIC START REFLEX IN ADOLESCENT RATS

# KRONİK ETANOL TÜKETEN ERGEN SIÇANLARDA UZAMSAL ÖĞRENME VE AKUSTİK İRKİLME REFLEKSİNİN ARAŞTIRILMASI

**Kamile YAZGAN ÖZDIRAZ[1], Asuman GÖLGELİ[2]**

[1]Öğretim Görevlisi, Erciyes Üniversitesi Halil Bayraktar S.H.M.Y.O., Elektronörofizyoloji, orcid.org/0000-0002-8112-6101

[2] Prof. Dr., Erciyes Üniversitesi Tıp Fakültesi, Fizyoloji, orcid.org/0000-0002-9004-8563

## Özet

### 1.GİRİŞ

Alkol bağımlılığı, aşamalar halinde ilerleyen kronik ve tekrarlayan bir bozukluktur (Jupp ve Lawrence, 2010; Koob ve Volkow, 2010). Kronik etanol tüketimi ve alkol kullanım bozukluğu (AUD), başarısız ilişkiler, iş kaybı, psikiyatrik semptomlar ve ciddi bilişsel bozulma dahil olmak üzere toplum üzerinde olumsuz etkiye sahiptir. Dünya çapında 76 milyon yetişkinin alkol bağımlısı olması da aşırı alkol kullanımının bir başka sonucudur (Rehm ve ark., 2009). Bu çalışmada, yüksek dozda kronik (6 hafta, haftada 3 gün) etanol tüketiminin öğrenme, bağımlılık düzeyi ve akustik irkilme refleksi üzerine etkisinin ergen sıçanlarda araştırılması amaçlandı.

### 2.YÖNTEM

Çalışmada ergen (6 haftalık) erkek Wistar Albino sıçanlar kullanıldı. Ergen sıçanlar kontrol ve etanol tüketen olarak gruplara ayrıldı. Haftada dört gün, her kafese 4 sıçan yerleştirilerek yem ve suya serbest erişimleri sağlandı. Haftanın üç günü (Pazartesi, Çarşamba, Cuma) etanol tüketen gruplara %20 etanol ilaveli çeşme suyu verildi. Y-Labirentte uzamsal öğrenme ve hafıza, koşullu yer tercihinde bağımlılık davranışı değerlendirildi. Sıçanların akustik irkilme tepkisi ön uyarı inhibisyonu (PPI) testi SR-LAB sistemi ile ölçüldü. Plazmada dopamin ve serotonin analizi ELISA yöntemi ile değerlendirildi.

### 3.BULGULAR

Y-Labirent testinde hedef kolda kalış süresi Etanol grubunda Kontrol grubuna göre B kolunda kalış süresi ($p<0,05$) ve alternasyon yüzdesi ($p<0,05$) anlamlı olarak azalmıştır. Etanol grubunda kollara giriş sayısı Kontrol grubuna göre ($p<0,05$) artmıştır. Şartlı yer tercihi testinde deney gruplarında hedef bölgede ve diğer bölgede geçirilen süre (saniye) olarak değerlendirildi. Etanol grubunda Kontrol grubuna göre hedef bölgede kalma süresi ($p<0,05$) artmıştır. İrkilme yanıtının ön uyaran aracılı inhibisyon testinde deney gruplarında alışma, ilk uyarım 4 dB, 8 dB ve 16 dB uyarımda irkilme refleksleri ölçüldü. Kontrol grubu Etanol grubuna göre irkilme yanıtlarında ve plazmada dopamin ve serotonin seviyesi istatistiksel olarak anlamlı değildir.

### 4. SONUÇ, TARTIŞMA VE ÖNERİLER

Kronik %20'lik etanollü su tüketimi ergen sıçanlarda; uzamsal öğrenmeyi ve bağımlılık düzeyini olumsuz etkilerinin olduğu, Akustik irkilme yanıtı (irkilme refleksi) ve plazmada dopamin ve serotonin seviyesi değişmediği görülmüştür. İleriki çalışmalarda daha genç

hayvanlarda uygulama yapılabilir, süre 8 haftaya veya üzerine çıkarılabilir. En önemlisi de bu çalışmadaki analiz yöntemlerine hayvanlarda etanol bağımlılığının biyobelirteci olan ADH gibi maddelerin analizi ve beyin dokusunda BDNF analizi de eklenebilir.

## 5.KAYNAKLAR

Jupp B, Lawrence AJ. New horizons for therapeutics in drug and alcohol abuse. Pharmacology and Therapeutics 2010; 125: 138–168.

Koob GF, Volkow ND. Neurocircuitry of addiction. Neuropsychopharmacology 2010; 35: 217–238.

Rehm J, Mathers C , Popova S, Thavorncharoensap M , Teerawattananon Y, Patra J. Global burden of disease and injury and economic cost attributable to alcohol use and alcohol-use disorders. Lancet 2009; 373(9682): 2223–2233.

**Anahtar kelimeler:** Etanol, Öğrenme, İrkilme Refleks, Rat

**Summary**

## 1. INTRODUCTION

Alcohol addiction is a chronic and relapsing disorder that progresses in stages (Jupp ve Lawrence, 2010; Koob ve Volkow, 2010). Chronic ethanol consumption and alcohol use disorder (AUD) have a negative impact on society, including failed relationships, job loss, psychiatric symptoms, and severe cognitive impairment. Another consequence of excessive alcohol use is that 76 million adults worldwide are addicted to alcohol (Rehm ve ark., 2009). This study aimed to investigate the effects of high-dose chronic (6 weeks, 3 days a week) ethanol consumption on learning, addiction level and acoustic startle reflex in adolescent rats.



## 2. METHOD

Adolescent (6 weeks old) male Wistar Albino rats were used in the study. Adolescent rats were divided into control and ethanol consuming groups. Four rats were placed in each cage four days a week, providing free access to food and water. Tap water with 20% ethanol added was given to groups consuming ethanol three days a week (Monday, Wednesday, Friday). Spatial learning and memory, and addictive behavior in conditioned place preference were evaluated in the Y-Maze. The acoustic startle response of rats was measured with the prepulse inhibition (PPI) test SR-LAB system. Dopamine and serotonin analysis in plasma was evaluated by ELISA method.

## 3. FINDINGS

In the Y-Maze test, the duration of stay in the target arm in the Ethanol group compared to the Control group. The duration of stay in the B arm ($p<0.05$) and the percentage of alternation ($p<0.05$) were significantly decreased. The number of arm entries increased in the ethanol group compared to the control group ($p<0.05$). In the conditioned place preference test, the time (seconds) spent in the target area and the other area in the experimental groups was evaluated. The duration of stay in the target area increased in the ethanol group compared to the control group ($p<0.05$). In the prestimulus-mediated inhibition test of the startle response, startle reflexes were measured in the experimental groups at habituation, first stimulation of 4 dB, 8 dB and 16 dB stimulation. Compared to the ethanol group in the control group, startle responses and dopamine and serotonin levels in plasma are not statistically significant.

## 4. CONCLUSION, DISCUSSION AND RECOMMENDATIONS

Chronic 20% ethanol water consumption in adolescent rats; It has been observed that it has negative effects on spatial learning and addiction level, and the acoustic startle response (startle reflex) and dopamine and serotonin levels in plasma do not change. In future studies, application can be made in younger animals and the duration can be extended to 8 weeks or more. Most importantly, analysis of substances such as ADH, which is a biomarker of ethanol addiction in animals, and BDNF analysis in brain tissue can be added to the analysis methods in this study.

## 5.RESOURCES

Jupp B, Lawrence AJ. New horizons for therapeutics in drug and alcohol abuse. Pharmacology and Therapeutics 2010; 125: 138–168.

Koob GF, Volkow ND. Neurocircuitry of addiction. Neuropsychopharmacology 2010; 35: 217–238.

Rehm J, Mathers C , Popova S, Thavorncharoensap M , Teerawattananon Y, Patra J. Global burden of disease and injury and economic cost attributable to alcohol use and alcohol-use disorders. Lancet 2009; 373(9682): 2223–2233.

**Key words:** Ethanol, Learning, Startle Reflex, Rat

# GENOME-WIDE ASSOCIATION FOR DETECTION OF GENES PLAYING A ROLE IN TOLERANCE TO LEAF SPOT (*Cercospora beticola*) DISEASE IN SUGAR BEET

**Sameen Fatima[1], Mehmet Arslan[2]**

**[1]Erciyes University, Graduate School of Natural and Applied Sciences, Agricultural Biotechnology, Kayseri, Turkey, 0009-0005-9693-1997**

**[2]Erciyes University, Agriculture Faculty, Agricultural Biotechnology, Kayseri, Turkey, 0000-0002-0530-157X**

## Abstract

*Cercospora beticola*, causal agent of sugar beet leaf spot disease, is one of the most destructive and economically damaging leaf diseases of sugar beet. The estimated average sugar yield losses were between 5 and 50%, depending on the disease severity. Extensive fungicides are applied to protect the sugar beet plant from *C. beticola* in the sugar beet cultivated areas. To reduce fungicide application, developing cultivars tolerant to *C. beticola* is one of the best ways to control leaf spot disease. The objective of this study was to identify sugar beet genotypes with genes of tolerance to this pathogen. A greenhouse evaluation was established to determine *C. beticola* tolerance level of 65 sugar beet genotypes. Sugar beet genotype reactions were determined by inoculation with the *C. beticola* spore solution (approximately 1x103 spores/mL) at 140 L/ha. Disease severity was scored 20 days after inoculation based on the Kleinwanzlebner Saatzucht scale for rating disease intensity of *Cercospora* leaf spot in sugar beet. The *C. beticola* tolerance was controlled by at least four or five genes whose effects vary depending on the severity of the infection. Among the tested genotypes, sugar beet genotypes were determined as low, moderate, moderate to low and high. The genomic DNA were extracted from the tested sugar beet genotypes and sent for sequencing-based diversity array technology (DArTseq) to identify single-nucleotide polymorphisms (SNP) and SilicoDArT markers linked to genes responsible for tolerant to *Cercospora* leaf spot.

**Anahtar Kelimeler:** Cercospora leaf spot, DArTseq technology, molecular markers, sugar beet

# REGIONAL DETERMINATION OF α -AMINO NITROGEN AMOUNT IN SUGAR BEET

# ŞEKER PANCARINDα -AMİNO AZOT MİKTARININ BÖLGESEL OLARAK BELİRLENMESİ

**Ayşe ATILGAN[1], Oğuzhan ULU[1], Ş.Rüveyda KARKI[1]**

**[1]Araştırmacı, Gıda-Kimya, Kayseri Şeker A.Ş., ORCID: 0009-0008-5119-389X**

**[1]Araştırmacı, Gıda-Kimya, Kayseri Şeker A.Ş., ORCID: 0009-0004-0228-2125**

**[1]Genel müdür yardımcısı, Ziraat-Bitki Koruma, Kayseri Şeker A.Ş.,**

**ORCID: 0009-0002-6026-959X**

## Özet

Dünya' da endüstriyel getirisi yüksek stratejik bir bitki olan şeker pancarının teknolojik kalitesi şeker üretim prosesinde önem arz etmektedir. Teknolojik kaliteyi etkileyen en önemli faktörlerden biri şeker pancarındaki α-amino azot miktarıdır. Ülkemizde farklı bölgelerde yetiştirilen pancarların α-amino azot miktarları bilinçsiz gübre kullanımından dolayı genel ortalamanın üstünde çıkmaktadır. α-Amino azot miktarının yüksek olmasından dolayı şeker üretim prosesinde melasa sürüklenen şeker miktarında artışa sebep olmaktadır.

Yapılan çalışmada pancarın teknik kalitesini belirlemek, bu sayede aşırı ve bilinçsiz gübrelemenin önüne geçmek, şeker üretim prosesinde şekerin melasa sürüklenmeye sebep olan α-amino azot değerinin optimizasyonu sağlanmak ve sürdürülebilir şeker pancarı tarımının gerçekleşmesi ve elde edilen verilerin değerlendirilip şeker pancarı üreticilerini bilgilendirilmek hedeflenmiştir.

Bu çalışma kapsamında 2021 yıllarında Kayseri Şeker analiz laboratuvarına gelen yaklaşık 35.000 araçtan pancar numuneleri tam otomatik pancar numunesi alma sistemi ile kullanılarak gerçekleştirilmiştir. α -amino azot miktarları Betalyzer cihazı kullanılarak belirlenmiştir. Kayseri Şeker bünyesinde bulunun; Kayseri Merkez Bölge, Develi, Bünyan, Pınarbaşı, Gemerek, Yeşilhisar, Şarkışla ve Sarıoğlan analizleri gerçekleştirilmiş ve sonuçlar bölgelere göre aritmetik olarak belirlenmiştir. Sırasıyla; ; Kayseri Merkez Bölge 7077 araçtan numune alınmış ve aritmetik ortalaması 1.75 mmol/100g pancar, Develi Bölge 2756 araçtan numune alınmış ve aritmetik ortalaması 1.97 mmol/100g pancar, Bünyan Bölge 3846 araçtan numune alınmış ve aritmetik ortalaması 1.79 mmol/100gpancar, Pınarbaşı Bölge 2486 araçtan numune alınmış ve aritmetik ortalası 1.55 mmol/100gpancar, Yeşilhisar Bölge 3329 araçtan numune alınmış ve 1.93 mmol/100g pancar Gemerek Bölge 3503 araçtan numune alınmış ve 1.86 mmol/100g pancar, Şarkışla Bölge 5700 araçtan numune alınmış ve 2.06 mmol/100g pancar, Sarıoğlan Bölge 5886 araçtan numune alınmış ve 2,36mmol/100g pancar olarak belirlenmiştir.

α -amino azot miktarları; iklim, râkım, toprak tekstürü, gübreleme ve sulama yöntemi gibi çeşitli faktörlerden kaynaklı her yıl farklılık göstermektedir. Ancak fazla azotlu gübrenin α-amino azot miktarlarını artırdığı bilinmektedir. Bu bağlamda bu bölgelerde faaliyet gösteren yaklaşık 6000 sözleşmeli şeker pancarı üreticilerine şeker pancarı teknolojik kalitesini etkileyen

en önemli faktörlerden biri olan α-amino azot miktarının öneminin anlatılması ve bölgelerimize ait bir veri havuzu oluşturulması hedeflenmiştir.

**Anahtar kelimeler:** Şeker pancarı, α-amino azot, teknik kalite

## Abstract

The technological quality of sugar beet, a strategic plant with high industrial return on investment worldwide, is a crucial factor in the sugar production process. One of the most significant factors influencing the technological quality is the quantity of α-amino nitrogen present in the sugar beet. In our country, the α-amino nitrogen content of beets grown in different regions is above the general average due to the application of fertilisers without due consideration of the potential consequences. The elevated levels of α-amino nitrogen result in an increased entrainment of sugar into the molasses during the sugar production process.

The objective of this study is to ascertain the technical quality of the beet in order to prevent excessive and unconscious fertilisation, optimise the α-amino nitrogen value that causes sugar to drift into molasses in the sugar production process, ensure sustainable sugar beet agriculture and evaluate the data obtained, with a view to informing sugar beet producers.

The present study encompasses the analysis of approximately 35,000 beet samples collected from vehicles arriving at the Kayseri Seker analysis laboratory in 2021. This analysis was conducted using a fully automated beet sampling system.  The α-amino nitrogen amounts were determined using the Betalyzer device. The samples from the Kayseri Central Region, Develi, Bünyan, Pınarbaşı, Gemerek, Yeşilhisar, Şarkışla and Sarıoğlan were subjected to analysis and the results were determined arithmetically according to the regions. In the Kayseri Central Region, 7077 vehicles were sampled, yielding an arithmetic mean of 1.75 mmol/100 g beet. In the Develi Region, 2756 vehicles were sampled, resulting in an arithmetic mean of 1.97 mmol/100 g beet. In the Bünyan Region, 3846 vehicles were sampled, producing an arithmetic mean of The mean concentration was 1.79 mmol/100 gpancar. In the Pınarbaşı region, 2486 vehicles were sampled, resulting in an arithmetic mean of 1.55 mmol/100 gpancar. In the Yeşilhisar region, 3329 vehicles were sampled, yielding an arithmetic mean of 1.93 mmol/100 gpancar. In the Şarkışla Region, 5,700 vehicles were sampled, yielding an arithmetic mean of 2.06 mmol/100g beet. In the Sarıoğlan Region, 5,886 vehicles were sampled, resulting in an arithmetic mean of 2.36 mmol/100g beet.

The level of α-amino nitrogen in the soil varies from year to year due to a number of factors, including climate, altitude, soil texture, fertilisation and irrigation method. However, it is established that the application of excess nitrogen fertiliser results in an increase in the amount of α-amino nitrogen. In this context, the objective is to elucidate the significance of the α-amino nitrogen amount, which is a principal factor influencing the technological quality of sugar beet, for approximately 6000 contracted sugar beet producers operating in these regions and to establish a data repository for our regions.

**Keywords:** Sugar beet, α-amino nitrogen, technical quality

# DETERMINATION OF THE NUTRIENT COMPOSITION OF REDUCED TURKEY PASTE (Cichorium intybus)

# HİNDİBA POSASININ (*Cichorium intybus*) BESİN MADDE KOMPOSİZYONUNUN BELİRLENMESİ

**Yeliz Taşçı[1], Selma Büyükkılıç Beyzi[2]**

**[1] Kayseri Şeker Ar-Ge Merkezi, Kayseri Türkiye, Hayvan Besleme**
**https://orcid.org/0009-0008-3481-1983**

**[2]Doç.Dr, Erciyes Üniversitesi, Ziraat Fakültesi, Zootekni Bölümü, Kayseri Türkiye, Zootekni ve Hayvan Besleme https://orcid.org/0000-0002-4622-0645**

## Özet

Gıda endüstrisinin ilerlemesi ile yeni veya mevcut hammaddeler yeni bir ürüne dönüştürüldüğünde yan ürünler açığa çıkmaktadır. Bu yan ürünlerin değerlendirilmesi amacıyla hayvan beslemede kullanımı hem katma değer oluşturmakta hem de atık olarak çevreye verebileceği potansiyel zararı engellemektedir. Bundan dolayı hem sektörde hem de hayvan sağlığı ve üretim verimini artıracak alternatif yem kaynakları aranmaktadır. Hindiba bitkisi (*Cichorium intybus*) içerdiği inülin ve bir çok bileşen sayesinde kullanım alanı geniş bir bitki türüdür. İçerdiği inulin miktarı endüstiriyel anlamda inülin üretimine oldukça uygundur. İnülin çözünebilir bir lif ve prebiyotik özelliğine sahip ülkemizde yenilikçi ve fonksiyonel özellikli bir ürün olarak karşımıza çıkmaktadır. Bu çalışma, son zamanlarda trend ürün haline gelen hindibadan inulin üretimi sonrasında kalan ürün hindiba (*Cichorium intybus*) posasının hayvan beslemede kullanılabilirliğinin araştırılması amacıyla yapılmıştır. Bu amaçla, Kayseri Şeker Ar-Ge Merkezi'nde labotatuvar koşullarında hindibadan inülin eldesine yönelik yürütülen projede çalışmalar sırasında 3 ayrı üretimden elde edilen posalar kullanılmıştır. Elde edilen posanın kuru madde içeriğinin ortalama %25.62 olduğu belirlenmiştir. Hindiba posasının kuru maddede ortalama %4.80 ham kül, %0.5 ham yağ, %5.28 ham protein, %18.98 NDF, %17.18 ADF, %3.81 ADL ve %12.49 ham selüloz içerdiği saptanmıştır. Ayrıca nispi yem değeri ortalama 370.1, sindirilebilir kuru madde %75.5 ve kuru madde tüketimi %6.3 olarak hesaplanmıştır. Sonuç olarak, hindiba posası içerdiği besin maddeleri bakımından hayvan beslemede ruminantlar için alternatif bir yem kaynağı olabilir. Ancak daha iyi bir değerlendirme yapılabilmesi için sindirilebilirliğinin *in vivo* veya *in vitro* olarak belirlenmesi önerilmektedir.

**Anahtar kelimeler:** hindiba posası, yem, ruminant

## Abstract

As the food industry progresses, by-products are generated when new or existing raw materials are converted into a new product. The use of these by-products in animal nutrition to utilise them both adds value and prevents potential environmental damage as waste. Therefore, alternative feed resources that improve animal health and production efficiency are being sought both in the industry and in animal health. Chicory (*Cichorium intybus*) is a plant with a wide range of uses thanks to its inulin and many other components. The amount of inulin it contains is very suitable for industrial inulin production. Inulin is a soluble fibre and prebiotic product with innovative and functional properties in our country. This study was carried out to

investigate the use of chicory (*Cichorium intybus*) pulp in animal nutrition after inulin production from chicory, which has recently become a trend product. In order to achieve this objective, the project conducted at the Kayseri Seker R&D Centre for the production of inulin from chicory under laboratory conditions employed pulps derived from three distinct production processes. The average dry matter content of the obtained pulp was determined to be 25.62%. The analysis revealed that the chicory pulp contained 4.80% crude ash, 0.5% crude oil, 5.28% crude protein, 18.98% NDF, 17.18% ADF, 3.81% ADL and 12.49% crude cellulose in dry matter. Furthermore, the average relative feed value was 370.1, the digestible dry matter was 75.5%, and the dry matter consumption was 6.3%. It can be concluded that chicory pulp represents a potential alternative feed source for ruminants in animal nutrition, given the nutrients it contains. However, it is recommended to determine its digestibility in vivo or in vitro for a more comprehensive evaluation.

**Keywords:** chicory pulp, feed, ruminant

# IDENTIFICATION OF A CLINICAL *Bordetella bronchiseptica* ISOLATE AND DETERMINATION OF ITS ANTIMICROBIAL SENSITIVITY

# KLİNİK BİR *Bordetella bronchiseptica* İZOLATININ TANIMLANMASI VE ANTİMİKROBİYAL DUYARLILIĞININ BELİRLENMESİ

**Burcu Emine TEFON-ÖZTÜRK[1]**

**[1]Asst. Prof., Akdeniz University, Faculty of Science, Department of Biology, Türkiye**

**0000-0003-1690-9879**

## Abstract

